AZƏRBAYCAN TARİX QURUMU

Ənvər Çingizoğlu

# Hüseynqulu xan Qovanlı-Qacar

(Tarixi-bioqrafik tədqiqat)

- 10446 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİD... XANASI

MÜTƏRCİM

Bakı – 2011

63.3(5Az)5-8
Ç 52

*Müəllif kitaba göstərdiyi maddi və mənəvi dəstəyə görə Mübariz ABBASOVA minnətdarlığını bildirir.*

AZƏRBAYCAN RESPUBLİKASI
Diaspor
BEYNƏLXALQ DİASPOR MƏRKƏZİ

*Azərbaycan Respublikası Beynəlxalq Disaspor Mərkəzinin sədri İsmayıl AĞAYEVİN təşəbbüsü ilə çap olunur.*

***Elmi redaktoru:*** **Əli Məmmədov,** tarix elmləri doktoru

***Redaktoru:*** **Mahal Qacar,** tarix elmləri üzrə fəlsəfə doktoru,

***Rəyçilər:*** **Qasım Hacıyev,** tarix elmləri doktoru, **Gültəkin Nəcəfli,** tarix elmləri üzrə fəlsəfə doktoru

**Ənvər Çingizoğlu**
**Hüseynqulu xan Qovanlı-Qacar.** ***Tarixi-bioqrafik tədqiqat.***
– Bakı: Mütərcim, 2011. – 88 səh.

Kitabda İrəvan xanlığının hakimi, məşhur Qacar sərkərdəsi Hüseynqulu xan Qovanlı-Qacarın yaşam salnaməsi əks olunub. Onun tarix səhnəsinə çıxmasının tarixi zəmini və əsas məqamları kitabda izlənmiş, şəxsiyyəti barədə ətraflı məlumat verilmişdir. İrəvan xanlığı uğrunda göstərdiyi çaba-çalışmalar təfərrüatı ilə təsvir edilmişdir.

Kitab tədqiqatçılar, müəllim və tələbələr, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ç $\frac{0502000000}{026}$ 85-11

© Müəllif hüquqları qorunur. Müəllifin icazəsi olmadan bu kitabı və ya onun hər hansı bir hissəsini çap etdirmək, surətini çıxarmaq qadağandır!

© **Ə.Çingizoğlu, 2011**

## GİRİŞ

Bu kitab XVIII yüzilliyin ikinci yarısı - XX yüzilliyin əvvəllərində mövcud olmuş, Azərbaycanın uzunömürlü xanlıqlarından biri olan İrəvan xanlığının sonuncu hakimi Hüseynqulu xan Qovanlı-Qacarın həyatına həsr olunub.

Kitabın yazılmasında arxiv materialları ilə bərabər, muxtəlif illərdə cap olunmuş qaynaqlardan da istifadə olunmuşdur. Belə qaynaqlardan ən zəngini XIX yuzilliyin ikinci yarısında A. Berjenin redaktorluğu ilə Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı 12 cilddən ibarət sənədlər toplusudur. Kitabda bu toplunun bütün cildlərindən istifadə olunmuşdur. QAKA kulli miqdarda rəsmi və qeyri-rəsmi arxiv sənədlərindən ibarətdir. Aktlarda toplanılan sənədlərin hər biri ayrı-ayrılıqda məlumat mənbəyidir. Bu sənədlər bizə İrəvan xanlığının siyasi tarixi, tarixi coğrafiyası, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyət növləri, əhalisinin sayı, etnik və dini tərkibi, silki quruluşu haqqında zəngin material verir.

İrəvan xanlığının siyasi tarixinin və tarixi coğrafiyasının öyrənilməsində çar Rusiyası dövründə nəşr olunan «Kavkazskiy sbornik» adlı jurnalın I, XXI, XXII, XXIV, XXVIII və XXX cildlərindən istifadə edilmişdi. Topluda Gülüstan sülh müqaviləsindən sonra İrəvan xanlığının Rusiya ilə münasibətləri, ayrı-ayrı rus zabitlərinin şəxsi gündəlikləri və 1826-1828-ci illər müharibəsi ilə əlaqədar Qafqazdakı rus ordusu qərargahının külli miqdarda sənədləri toplanmışdı. Bu sənədlərdə İrəvan xanlığının siyasi-iqtisadi vəziyyəti, tarixi coğrafiyası və əhalisi haqqındakı məlumatlar böyük əhəmiyyətə malikdir. Bu sənədlər Gülüstan sülh müqaviləsindən sonra sərhəd xəttinin təyin edilməsi ilə əlaqədar sonuncu İrəvan xanı Hüseynqulu xanın rus sərhəd rəislərinə və baş komandan A.E.Yermolova göndərdiyi məktublarından və rusların öz aralarında yazışmalarından İrəvan xanlığının siyasi sərhədlərini müəyyən etməyə imkan verir. Müxtəlif illərdə yazılmış bu məktublarda rus komandanlığının məkrli siyasəti, hadisələri bilə-bilə gərginləşdirməsi, İrəvan xanını fitnə törətməklə müharibəyə cəlb etmək və bu ərazini

işğal etmək niyyətləri göstərilmişdi.

İ.Şopenin «Rusiya imperiyasına birləşdiyi dövrdə Erməni vilayətinin tarixi abidələrinin vəziyyəti» əsəri İrəvan bölgəsinin tarixi, tarixi coğrafiyası və əhalisini öyrənmək üçün ən mühüm mənbədir. Statistik məlumata söykənən bu əsər işğaldan sonra çar icra orqanları tərəfindən həyata keçirilən siyahıyaalınma nəticəsində tərtib edilmişdi. Belə ki, İrəvan xanlığının işğalını həyata keçirən rus qoşunlarının baş komandanı qraf Paskeviçin təşəbbüsü ilə bu bölgəni Rusiyanın xammal bazarına çevirmək, gəlir mənbələrini dərindən öyrənmək üçün 1829-cu ilin aprelindən siyahıyaalınma keçirilməyə başlanmış və 1832-ci ilin mayında tamamlanmışdır.

1816-1817-ci illərdə A.P.Yermolovun başçılığı ilə Rusiya dövlətinin Tehrana göndərdiyi nümayəndə heyətinin tərkibində məsləhətçi kimi iştirak etmiş A.Y.Sokolovun verdiyi məlumatlar da çox dəyərlidir.

A.Y.Sokolovun əsərlərində XIX əsrin əvvəllərində Pəmbək hadisələri, sabiq Axalkələki hakimi Şərif paşanın başladığı üsyan, Qacar İran dövlətinin Cənubi Qafqazla bağlı planları, əhali haqqında məsələlər, Hüseynqulu xanın şəxsiyyəti haqqında xeyli məlumat toplanmışdır.

Ermənilərin İrəvan xanlığına köçürülməsinin təşkilatçılarından biri olan yazıçı və diplomat A.S.Qriboyedovun «Gündəlik» və məktubları mövzumuz üçün böyük əhəmiyyəti kəsb edir. Bu sənədlərin əksəriyyəti 1889-ci ildə Sankt-Peterburqda nəşr olunmuşdur. Sənədlərdə Hüseynqulu xanın şəxsiyyət və fəaliyyəti, İrəvan qalası, ermənilərin köçürülməsi haqqında maraqlı məlumatlara rast gəlmək olar. A.S.Qriboyedov hadisələrin canlı şahidi olduğundan bu məlumatların İrəvan xanlığının tarixinin öyrənilməsində əhəmiyyəti misilsizdir.

Tədqiq olunan mövzu ilə bağlı bəzi məlumatlar 1850-ci illərdə Tiflisdə nəşr olunmuş "Kavqazskiy kalendar"larda oz əksini tapmışdır. Bu topluda birinci və ikinci İrəvan döyuşləri haqqında məlumatlar var.

İrəvan xanlığına aid bəzi məlumatları "Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza" jurnalında tapmaq olur. Cox cildli jurnalın I və IV cildlərindən istifadə edilmişdir. Jurnalda İrəvan xanlığının siyasi tarixi, iqtisadi vəziyyəti, xanların şəcərəsi haqqında xeyli material əldə etmişik.



Mövzunun tədqiqində N.F.Dubrovinin zəngin arxiv materialları, müxtəlif sənədlər əsasında yazdığı digər altı cildlik əsərindən də istifadə olunmuşdur. Xronoloji baxımdan 1782-1826-cı illəri əhatə edən bu əsərdə Rusiyanın Qafqazda apardığı işğalçılıq siyasətini təsvir etməklə bərabər, İrəvan xanlığının siyasi tarixi, iqtisadiyyatı, təbii-coğrafi vəziyyəti, təbii sərvətləri, əhalinin sayı, etnik və dini tərkibi, məişəti, adət-ənənəsi haqqında zəngin məlumat toplanmışdır. N.F.Dubrovin əsərində İrəvan xanlığının əhalisinin etnik cəhətdən Azəri türklərinin çoxluq təşkil etməsi faktını göstərməsi mövzunun tədqiqində xüsusi əhəmiyyət kəsb edir.

Rusiyanın Azərbaycanda işğalçılıq siyasətini təsvir edən müəlliflərdən biri də V.A.Pottodur. Onun «Kavkazskaya voyna v otdelnıx oçerkax...» adlı beş cilddən ibarət əsəri İrəvan xanlığını öyrənmək baxımından əhəmiyyətlidir. Əsərdə 1801-1829-cu illərdə Rusiyanın Qafqazda, o cümlədən Azərbaycanda apardığı işğalçılıq siyasətindən ətraflı bəhs edilsə də, İrəvan xanlığınında baş verən siyasi hadisələr, İrəvan əhalisinin rus işğalçılarına qarşı qəhrəmanlıq mübarizəsi, rus qoşunlarının itkiləri, Gülüstan sülh müqaviləsindən sonra Rusiya ilə Qacar İran dövləti arasında sərhəd məsələsinin təyin edilməsində İrəvan xanlığının rolu və yeri, xanlığın əhalisi, müharibələr dövründə əhalinin müxtəlif ölkələrə emiqrasiya etməsi məsələləri ətraflı təsvir edilmişdir.

Tədqiq etdiyimiz mövzu ilə bağlı tarixi kitablara baş vurmuşuq. Biz yalnız çap olunmuş materiallarla kifayətlənməmiş, arxiv sənədləri ilə də maraqlanmış arxivlərdə axtarışlar aparmışıq.

Kitabın yazılmasında müxtəlif səpkili qaynaqlardan istifadə olunmuşdur. Bu qaynaqlara yerli, rus, osmanlı, fars və gürcü qaynaqları daxildir.

Bu tədqiqatın qiymətli cəhəti ondan ibarətdir ki, müraciət edilən mövzu ilk dəfədir ki, işlənilir.

# I fəsil

## QACAR ELİ

### Qacar elinin tarixi

Öncə adaçımı haqqında. Yeddi Qızılbaş elinin biri də Qacardır. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, bu toponim türk kökənli tayfalardan birinin adıdır. Qacar adı Qaçardan götürülüb. İlkin mənası qasar-torpaqdır. Qədim türklər və monqollar torpağa yer-dzer-qeser deyirdilər. Qaçarın bir anlamı da köçər-köçəri, gəzərgidir.

Məlumdur ki, əksər hallarda toponimləri yerli əhali-qəbilə, tayfa, boy özü verir. Həm də bu cür adları yaşadan ilk növbədə yerli ulus, el olur.

Türk-Azərbaycan mənşəli qacar adı ilə bağlı coğrafi adlar areal xarakterlidir və türkdili xalqların yaşadıqları regionda geniş yayılmışdır. Areal toponimlərin müxtəlif zonalara səpələnməsinin başlıca və birinci səbəbi eyni qəbilə və tayfada mənsub əhalinin müxtəlif tarixi şəraitdə, müxtəlif yerlərdə məskən salması ilə bağlıdır. Areal toponim olan qacar adı ilə bağlı coğrafi adlarla Qırğızıstan Respublikasında Qacar formasında, Türkmənistan Respublikasında Qacarlı şəkilində və lap qədim zamanlardan azərbaycanlıların yaşadıqları Ermənistan ərazisində Qacaran biçimində rast gəlirik. Bu coğrafi adlar təsadüfü üst-üstə düşməyib, eyni bir adın, Qacar etnoniminin fonetik dəyişikliyə uğramış formasıdır. Qacar-Qajar-Qajarlı-Qacaran. Burada elə bir əsaslı fərq yoxdur. Belə ki, türk dillərində, o cümlədən Azərbaycan dilində c-j əvəzlənməsi qanunauyğun fonetik haldır.

Qacar etnotoponimi bu ərazidə Qacar etnik qrupunun yaşaması, məskunlaşması ilə bağlıdır.



Azərbaycan monqolların hücumu ilə əlaqədər olaraq bir sıra türk tayfaları Azərbaycana gəlmişlər. Bu tayfalar-qacarlar, cavanşirlər, baharlı, çobanlı, cəlairlər, üngütlər və başqaları XIII yüzildə Azərbaycanda məskunlaşmağa başlayırlar.

Faruq Sümer yazır ki, Qaçara (qacar) gəlincə, bu oymaq XV yüzilin sonlarına doğru ağqoyunlular dövründə Anadolunun Boz-ox (bugünkü Yozqat) bölgəsindən gəlmiş və Azərbaycanda yurd salmışdı[1].

Azərbaycan ərazisində və eləcə də Ermənistan və Gürcüstan ərazisində qacar etnoniminin geniş yayılmasını biz coğrafi adlardan da görürük.

1728-ci ildə tərtib olunmuş «Dəftəri müfəssəli-əyaləti-Tiflis» də Qacar toponimi qeyd olunmuşdur.

Qacarlar türk etnosudur. Formalaşması, biçimlənməsi Səfəvilər dövlətinin yaranması dönəmində başa çatmışdır. Səfəvi dövlətinin Azərbaycanda və eləcə də Zaqafqaziyada nə kimi rola malik olduğu məlumdur. Səfəvi dövlətinin coğrafi sərhədlərində qacar etnonimi geniş yayılmış, eləcə də Azərbaycan dili Qafqaz dillərində qacar dili eyniləşdirilmiş, bəzən qacar dili adlandırılmışdır.

Məlumdur ki, «Azərbaycan» termini sovet dönəmində Qafqaz xalqlarının dilinə daha geniş daxil olmuşdur. Müxtəlif Qafqaz xalqları azərbaycanlılara fərqli adlar vermişlər.

Bu deyilənlərə əsasən, belə bir qənaətə gəlmək mümkündür ki, Qacar tayfası Azərbaycanın ictimai-iqtisadi, mədəni həyatında mühüm rol oynamış, Qafqazda geniş yayılmış və coğrafi adlarda izini qoruyub saxlaya bilmişdir. Belə bir geniş areala malik olma isə Qafqaz xalqlarını bir qisminin azərbaycanlıları qacar etnosu ilə eyniləşdirməyə səbəb olmuşdur.

XIX yüzildə Zaqafqaziyada Qacar adlı 10 kənd qeyd olunmuşdur.

İranda qacarlar hazırda Qorqanda, Mazandaranda, Xorasanda (Məşhəddən şimalda) və Kirmanda yaşayırlar. İ.V. Savina qeyd edir ki, bu tayfa sayca az olmasına baxmayaraq İranda böyük rol oyna-

[1] F.Sümer, Oğuzlar, Bakı, 1992, səh.164.

yıblar. Qacar sülaləsi 1794-cü ildən 1925-ci llədək İranı idarə ediblər. Qacarlar İran aristokratiyasının, mülkədarlarının, tacirlərinin böyük hissəsini təşkil edirlər. Qacar etnonimi Hesarqacar, Qacar (Zəncanda), Qacarxeyl (Mazandaranda), Hüseynabadqacar, Qacarabad, Qacarxəlisə (Mərkəzi İranda), Qəsri-Qacar (Həmədanda), Dehqacar (Sistanda)[1].

Beləliklə, Qacar toponimii türk-Azərbaycan mənşəli qacar tayfasının adı ilə bağlıdır. Bu toponimin istər pozitiv cəhəti-tarixi, coğrafi reallıqda əks olunması, istərsə də neqativ-zahiri əlamətləri, morfoloji cəhətləri türk-Azərbaycan mənşəli olduğunu sübut edir.

Biz qaynaqlara dayanaraq Qacar toponimindən danışdıq. İndi isə qacar el, tayfa, etnos kimi. Ayrıntılara varaq.

Azərbaycan xalqının kökündə dayanan, etnogenezisində iştirak edən ellərdən biri də Qacardır. Faruq Sümerə görə Qacar eli XVI yüzildə şambayatı, yıva və ağcaqoyunlu oymaqlarından meydana gəlib[2]. Faruq Sümer sonra yazır ki, belə olduğu təqdirdə xanədan bu üç oymağın birinə (yıva?) mənsub olmalıdır. Qacar adına gəlincə, onun bu üç oymağın başçısı olan bir bəydən nəşət etdiyi şübhəsizdir. Qacarları Anadoludan İrana gətirən bəlkə də bu bəy idi. Faruq Sümerin mülahizələrində bir az yanlışlıq var. Qacar sülaləsi Yıva yox, Qovanlı oymağına bağlıdır. Qacar eli türkman və tatar köklü oymaqlardan yaranmışdı. Faruq bəyin göstərdiyi oymaqlar türkman əsilli idilər.

İ. P. Petruşevski güman edir ki, Qacar eli XIII-XIV yüzillərdə Ön Asiyada sulduz, tanqıt və cəlair adlı türk tayfalarından yaranıb.

Tarixi bilgilərdən məlum olur ki, qacarlar Qarabağda Əmir Teymurun Osmanlı səfərindən sonra məskunlaşmışlar. Bu fikrimizi təsdiqləmək üçün tarixi qaynaqlara müraciət etdik.

1402-ci ilin iyul ayının 25-də Ankara altında Əmir Teymur Barlas Sultan İldırım Bəyazidi (1387–1402) məğlub etdi. Anadoluda yurd tutmuş oğuz və monqol-tatar kökənli bir çox elləri sürüb, qışlağı Qarabağa gətirdi.

Əmir Teymur Qarabağa gətirən elləri bəzi qaynaqlar qara tatarlar, bəziləri isə ağ tatarlar kimi göstərirlər.

Tarixçi Şərəfəddin Əli Yəzdi «Zəfərnamə» adlı əsərində yazır: «Qara tatarlar Mənqu qaanın Hulaku xanı İrana göndərdiyi vaxt onun qoşununa daxil edilmiş türk qəbilələrindəndirlər. Hulaku xan Təbriz taxtgahına yiyələndikdə onları malik olduqları şər xasiyyətlərinə görə köçürüb Rum və Şam sərhədlərində məskunlaşdırmışdır. Sultan Əbu Səidin ölümündən sonra, İranda ixtiyar sahibi qalmadığından onlar itaətsizlik göstərməyə başladılar və 52 dəstəyə böləndülər...[1]

Əmir Teymurun yanına elçiliyə gəlmiş İspaniya elçisi Rui Qonsales de Klavixo öz gündəliyində yazır: «Teymur bəy oradan Babil sultanın torpağına tuşlandı. Ona qədər ağ tatar deyilən qəbilə ilə rastlaşdı. Bu adamlar həmişə yurddan yurda köçürlər. O, onlarla vuruşmağa başladı və savaş açdı, kimi yendisə əsir götürdü. Onların başçılarını, kişili-qadınlı əlli min nəfəri əsir götürdü. Hamısını özüylə apardı. Ordan Dəməşq (Şam) şəhərinə tərpəndi. Şəhərin sakinləri onu əsəbləşdirmişdilər. Həm təslim olmurdular, həm də elçisini tutmuşdular[2]. Əmir Teymur ordan götürdüyü türkmanları da Qarabağa gətirdi. Oğuz kökənli Rumlu və Şamlı ellərini xətrini əziz tutduğu Xacə Əli Səfəviyə bağışlayıb, Ərdəbil civarında yerləşdirdi. Yarı hissəsi monqol-tatar və yarısı isə oğuz kökənli olan Qacar və Cavanşir ellərini Qarabağda sakin etdi.

Əbdürrəzzaq bəy "Məasiri-sultaniyyə" adlı əsərində deyir: Abağa xanın əmriylə bu tayfanın rəislərindən Sərtaq adlı bir nəfər Arqun xana atabəy təyin edilib, Xorasan və Təbəristanda əmirülümarə olmuşdu. Onun Qaçar adlı bir oğlu vardı, bu tayfanın çoxu onun nəslindəndir. Onlardan (qacarlardan) bir çoxu da zaman getdikcə Rum və Şam vilayətlərinə getmişlər. Əmir Teymir onlardan

---

[1] Онамастика Востока. Москва, 1980, В. I. Савина. Этнонимы и топонимы Ирана.стр 150.
[2] F.Sümer, Oğuzlar, Bakı, 1992, səh.166.

[1] Şərəfəddin Əli Yəzdi. Zəfərnamə. Bakı. 1996. səh. 71
[2] Руи Гонсалес де Клавихо. Дневник путешествия в Самарканд ко двору Тимура. (1403–1406). М., 1996, стр. 68.

50.000 ailəni gətirib İrəvan, Gəncə və Qarabağ nahiyələrində yerləşdirdi. Onlar gündən-günə artıb, cah və cəlal sahibi oldular. Qacar əmirlərindən bir çoxu da Səfəvilər dövründə etibarlı hökumət adamları olub, Ermənistanda və Şirvanda yüksək iqtidara malik idilər. İrəvan hakimləri həmin nəsildən olmuşdular. Gəncə və Qarabağ hakimləri də Ziyadoğlu ləqəbilə, Xudafərin körpüsündən başlayaraq Sınıq körpüdən yuxarı olan Şulaver kəndində qədər hökmranlıq edirdilər. Bunlar Muğanın böyük şurasında Nadir səltənətinə razılıq verməyib, Səfəviyyə dövlətinin bərqərar olmasını tələb edirdilər. Buna görə Nadir səltənət taxtına oturunca, onların əzəmət və iqtidarını qırmaq istəyərək, Qarabağ əhalisini bir çoxunu Xorasana köçürdü. Bərguşad və Xəmsə məliklərini onların ixtiyarından çıxarıb, Azərbaycan sərdarına tapşırdı...[1]

Fars dilindən ingilis dilinə tərcümə olunmuş "İran tarixi Qacar səltənəti altında" kitabında, Qacar elinin köçürülməsi haqqında belə yazır: "Əmir Teymur Kurkanlı, Suriyanı fəth edən zaman əmir etdi ki, Qacar elini Suriyadan Türküstana köçürsünlər; ancaq onlar Azərbaycana yetişəndə, Gəncə və İrəvanda sakinləşdilər".[2]

İranın müasir tədqiqatçılarından biri Ələsgər Şəmim söyləyir: «Qacar eli də başqa elat və tayfalar kimi Allahın hökmü ilə idarə olunurdu. Lakin İranın siyasət şahmatının meydanında uzun müddət «piyada» olaraq qalmışdı[3].

Tədqiqatçı sonra göstərir ki, həmin tarixin birinci fəslində qacarların bünövrəsi, onların İranın ictimai, siyasi həyatında baş verən hadisələrdə oynadıqları tarixi roldan bəhs olunur və tarixi mənbələrdə onların tayfa köklərinin 635-ci il hicri tarixinə gedib çatdığı göstərilir. Əksər mənbələrin verdiyi məlumata görə, qacarlar öz sülalə ünvanlarını monqol sərdarı Sərtaq noyonun oğlu Qacar noyondan götürmüşlər.

[1] Abbasqulu ağa Bakıxanov, Gülüstani-İrəm, Bakı, 2001, səh.203-204.
[2] History of Persia under Gajars.
[3] Ə. Şəmim, İran dər dövreyi-səltənəti-Qacar, «Elm» nəşriyyatı, II çapı, 1370 hicri, səh.22 (farsca)



Bu monqol sərdarı monqolların bir məqsədini həyata keçirmək üçün Hülakü xan tərəfindən tapşırıq almışdı ki, monqol tayfalarından ibarət on min seçmə ailəni Türküstandan tutmuş Misir və Şama qədər yerləşdirsin. Bunlar Monqolustanı qorumaq üçün həyata keçirilirdi. Qacar noyonun övlad və nəvələrinin bundan sonra tarixdə baş vermiş cürbəcür hadisələrdə az-çox öz yeri, payı və fəaliyyəti olmuşdu[1].

İ. P. Petruşevski qeyd edir ki, Qacar elinin soy-kökündə dayanan tayfalardan biri də Cəlairdir. Biz bilirik ki, Cəlair ulusu Azərbaycana monqol-tatarların fütuhatı dönəmində gəlmişdir. Cəlair ulusunun cadaran, cat, orlat, tukaraun, karavun və başqa oymaqları vardı. Cadaran oymağının Kumun kovan, Mukali kovan, Buğa kovan, Boqol kovan adlı noyonları Çingiz xanın silahdaşları, özləri isə ata-bala, qohum əqraba idilər. Monqol qurumunda kovan ünvan, rütbə sayılırdı. Ola bilsin ki, Qovanlı oymağı öz adını bu ünvandan alıb.

Qaçar ağa Sərtaq ağanın oğlu, Sapa ağanın nəvəsi idi. Onun noyon ünvanı, rütbəsi yoxudu. Cəlair ulusunun Karavun oymağından idi. Qacarların Yuxarıbaşlı qrupunda Sapanlı adlı oymağı ola bilsin ki, öz adını Sapa ağadan alıb.

Tarixçi Rəşid bəy İsmayılov qacarlar haqqında yazır: «Cəlayir türklərinin nəslinə mənsub Qacar türklərini Əmir Teymur Qarabağ, Gəncə və İrəvan vilayətlərinə köçürülüb, burada yurdlaşmağa bunlara müsaidə etmişdi. Sonra Qacarlar Azərbaycanın sair nöqtələrinə dəxi dağılıb, «Qacar» və «Qacarlı» adlı köylər abad etmişlər. Hülaku silsiləsinin mənsub Arqun xanın müəllimi olan Xorasan və Astarabad hakimi Sirtaq Nuyan xanın oğlunun adı «Qacar» imiş. Qacarların adı ilə kendi qəbiləsi dəxi adlanmışdı»[2].

Qacarların İran və Azərbaycanın tarixində oynadığı rol haqqında müəllif daha sonra yazır: "Ağa Məhəmməd xan hal - hazırda İranda səltənət edən Qacar silsiləsinin ilk tacidarı və müəssisi idi. Dağıstan ləzgiləri Gəncə, Erivan və Qarabağ əhalisini indiyədək

[1] Ə. Şəmim. Göstərilən əsər. səh. 22.
[2] Rəşid bəy Ismayılov, Azərbaycan tarixi, Bakı, 1993, səh.21.

"Qacar" deyə adlandırırlar. Qacarlar ən əvvəl Gəncənin yaxınlığında olan Şimku yurdunda sakin olublar. Burada Qacarların "Mehdibəyli" adlanan yurdlarının xarabası və əkdikləri çinar ağacları indiyədək qalmışdır.

Şah Abbas Qarabağdan bir kaç bin Qacar türklərindən köçürdüb, Mazandaranda və Astarabadda sakin etdi. Ağa Məhəmməd xan Astarabadda sakin olan Qacarlara mənsubdur"[1]. R. Əfəndiyev sonuncu sitatı A. Bakıxanovdan götürmüşdür.

N. A. Kuznetsovanın kitabında isə bu məsələ belə şərh olunur: "I Şah Abbas XVII yüzilin başlanğıcında qızılbaşların gücünü azaltmaq məqsədilə qacarları üç hissəyə bölüb, onların birini Xorasanda, başqasını Astarabadda (Qorqan çayı üzərində), üçüncü hissəsini isə Qarabağda, Gürcüstanla sərhəd rayonlarında yerləşdirmişdi. İranın siyasi həyatında bu qoldan Qorqan qacarları daha fəal mübarizə aparırdılar. Məhəmməd Həsən xan Qacar bu qoldandır"[2].

Tanınmış Səfəvi tarixçisi İskəndər bəy Türkmən Münşi (1560-1634) özünün məşhur «Tarixi aləm-arayi-Abbasi» adlı əsərində yazırdı: «Qarabağ qışlaqları və yaylaqları, təmiz havası və sıx ormanları olan ən gözəl bir diyardır. Qarabağın ən qədim əhalisi qacarlar və onlara qohum olan tayfalar burda gözəl bağlar salmışlar».

Çingiz Qacar yazır ki, qacarların tarixi maraqlı və dramatikdir. Onlar parlaq qələbələr və acı məğlubiyyətlərlə müşaiyət olunan çoxillik bir yaşam yolu keçmişlər.

Son 6-7 yüzildə qacarların ən yaxşı nümayəndələri İran və Azərbaycan ərazilərində gedən coşqun tarixi hadisələrdə fəal şəkildə iştirak etmişlər.

Qacarların öz xronikalarına əsasən, «onların əcdadları Türküstanda şad-xürrəm yaşamışlar, yay aylarında dağların yamaclarında qoyun sürüləri otarmış, qışda isə bu gözəl ölkənin məhsuldar düzənlərinə enmişlər.Tayfanın yüksəlişi bu boyun tanınması və yayılması üçün cəhdlərini birləşdirmiş 5 qardaşın ailəsi ilə başlayıb. Onlar öz cəsarət və şücaətləri ilə döyüşlərdə şöhrət qazanmış və

---

[1] Rəşid bəy Ismayılov, Azərbaycan tarixi, Bakı, 1993, səh.73-74

[2] Кузнецова Н. А. Иран в первой половине XIX века. М., 1983, с.9



tanınmışlar. Həmin qardaşların xislətinə xas olan şücaət istinasız olaraq bütün qacarlara aiddir. Bu barədə bir şeirdə deyilir:

Biz bir kökdən gələn beş qardaşıq,
Beş barmaq kimi bir-birimizə sirdaşıq.
Biz qalxanda qələbə bayrağı bizimdi
Birləşəndə düşmənlərin başına qara daşıq.

Həmin beş qardaşın böyüyü Qacar xan idi. Tayfanın kökünü də, adını da buradan götürmüşdü. Oğuz xanın Fars vilayətinə yürüşü zamanı onun ordusunun əksər qismi bu tayfadan idi. İran tutulandan sonra onlar özlərinin yaylaq və qışlaq yerlərini Diyarbəkr və Yerlatda saldılar. Sultan Həsən bəy Ağqoyunlunun (1453-1478) hökmranlıq zamanında onlar Diyarbəkrdən Azərbaycana köçürülurlər. Sultan Yaqub bəyin və Əlvənd mirzənin dövrlərində qacarlar tayfasının tanınmış adamları Azərbaycan, Fars və İranın bir çox böyük şəhərlərinin hakimləri oldular.

Qacarlar haqqında rəvayətlərə əsasən, bu tayfa öz köklərini Çingiz xanın oğlu Kaan Lunun nəslindən götürmüşdür. (Çingiz xanın Cuçi, Cığatay, Ügədey, Tulu və Külkan adlı oğulları vardı) Qacarların əcdadlarından biri öz oğluna Kaan Lunun qızını almış və bundan sonra həmin nəsli Kavan Lu Qacar adlanmağa başlamışlar. Tayfanın digər bir nəsli isə Dovanlu Qacar adlandırılıb. Əldə olan tarixi sənədlər göstərir ki, qacarlar axırıncı dəfə Ön Asiyaya XIII yüzildə Çingiz xanın nəvəsi Hülaku xanın (1256) qoşunlarının tərkibində gəlmişlər. Qacarların həmin qrupları İrana, İlxanilər dövlətinin süqutundan sonra isə Suriyaya (Suriya ilə İran arasındakı ərazilərə, xüsusilə də Ermənistana) köçürürlər. Teymurun vaxtında onları Qarabağ, Gəncə və İrəvan ərazilərində, öz tayfalarından olanların yanında məskunlaşdırırlar. Səfəvilərin ilk vaxtlarında Qacarların təsiri güclü surətdə artır. Şah İsmayıl onlara tutduqları ərazilərə sahiblik haqqında sənəd verir, onların malikanələrini rəsmiləşdirir. Qacarlar Səfəvilərin Azərbaycanda və sonra da İranda öz hakimiyyətlərini möhkəmləndirməkdə arxalandıqları qızılbaş tayfalarından olurlar.

Qacar eli hamılıqla Qızılbaş tayfa ittifaqına qoşulmuşdu. Ünlü türkoloq Faruq Sümər Qacar elinin Qızılbaşları təşkil etməsi haqqında yazır: «Səfəvi dövlətini quran ünsür tamamilə türklərdən ibarətdir. Bu ünsürün böyük əksəriyyətini də anadolulu köçəri və kəndli türklər meydana gətirirdi. Yuxarıda deyildiyi kimi, Şah İsmayıl Ərzincan yaxınlığında Anadolu türklərini başına yığaraq, buradan Azərbaycana yürüyərək öz dövlətini qurmuşdur. Bu halət Səfəvi dövlətinin başlıca dayağı olan boy və obaların yurdlarının bilinməsilə daha düzgün anlaşılmaqdadır. Qızılbaş ulusunu təşkil edən birinci dərəcəli oymaqlar bunlardır: ustacalı-ustahacılı (Səfəvi dövründə ustaclı), rumlu, təkəlü, zülqədər, şamlı, əfşar, qaçar»[1].

Tarixçi Əhməd Zəki Vəlidi Toğan «Azərbaycan» adlı kitabında Səfəvilərin ilk dövrlərində Azərbaycana hakim olan türk və türkmanlar haqqında yazır: «Teymur Ərdəbildə Şeyx Səfiəddin türbəsini ziyarət etməyə gəldikdə Ərdəbil şeyxi Xoca Əlinin xahişi ilə rumlu, şamlı, musullu, quzanlu, kavanlı, zülqədir və qacarları Səfəvi şeyxinin tabeliyinə vermişdi. Ərdəbil və Muğan tərəflərində şeyxlərin «qızılbaş» ordusunu təşkil edənlər də ustaclı, şamlı təkəli, baharlı, zülqədir, əvşar, qacar və varsaqlar idi. Səfəvilər dövründə «Otuz iki cavanşir» adı ilə adlanan cavanşir qəbiləsi Şirvanda və Qarabağda görünür[2].

Tarixçi Nasir Nəcmi kitabında qacarlar haqqında yazır: «Türk irqinin bir qolu kimi sayılan Qacar tayfası tarixi hadisələrin və şahların siyasəti nəticəsində bir yerdən başqa yerə köçürülmüşdür. Səfəviyyə şahları zamanında Qacar tayfası birdəfəlik Araz çayının ətrafından Gürgan çayı dərəsinə köçürülmüş orada İran hüdudlarını, sərhəd şəhərlərini qorumaq işilə məşğul olmuşdu. Get-gedə tayfa içərisində ixtilaf törənmiş, bu isə tayfanın iki hissəyə parçalanmasına səbəb olmuşdur. Beləliklə, tayfanın bir hissəsi Qoyunlu, yaxud «Aşağıbaş» qacarları, ikinci hissəsi isə «Yuxarıbaş» qacarları adını almışdır. Zaman keçdikcə kökləri bir olan bu iki tayfa

[1] F. Sümər, Oğuzlar, Bakı, 1992, səh. 163.
[2] B. Z. V. Toğan, Azərbaycan, Bakı, 2007, səh.52.



tamamilə ayrılıb, bir-birinə qarşı kin və düşmən münasibəti bəsləməyə başlamışlar.

Bu kin, düşmən münasibət iki tayfa arasında bir sıra qanlı hadisələrə, döyüşlərə, qırğına və toqquşmalara iki tayfanın bir çox adamlarının həlak olmasına səbəb olmuşdur. «Aşağıbaş» qacarlarından olan Ağa Məhəmməd xan Qacar tayfasına arxalanaraq hakimiyyətini, şahlığını, habelə hökmranlığını möhkəmləndirməyə başladı. O, hakimiyyətinin ixtilaflar, toqquşmalar nəticəsində xətərə məruz qalaraq sarsılmasını hiss etdikdə bu məsələnin həlli üçün bir yol tapmaq fikrinə düşdü. Nəhayət, o, ixtilafı aradan qaldırmaq üçün təzədən qız alıb, qız vermək vasitəsilə iki tayfanın arasında əlaqə yaratmaq qərarına gəldi. O, Qacar Əliqulu xan Dəvəllinin qızını qardaşı oğlu Fətəli şaha aldı. «Yuxarıbaş» qacarlarının hüsnirəğbətini cəlb edərək, o tayfanın da İran şahlığı məsələlərində iştirakı üçün həmin qızın oğlunu vəliəhdliyə və naibbüssəltənəliyə təyin etməsi haqda Fətəli şaha göstəriş verdi»[1].

Qarabağda, Bərdə bölgəsində yaşayan İyirmidörd elinin Qacar elindən ayrılması haqqında fikirlər var.

Qacar eli və oğulları Azərbaycan tarixində şanlı səhifələr açmışlar. Səfəvilər dövlətinə yazılan kitablardan dərələdiyimiz xronikanı yazımıza köçürməyi gərəkli saydıq.

1500-cü ildə Qızılbaş qoşunu Şirvana yürüş edərkən Qacar sərkərdələrindən Qara Piri bəy və başqaları iştirak etmişdilər. Qara Piri bəyin qarabağlı olmasını əski və çağdaş tarixçilər təsdiqləyiblər.

1534-cü ildə Osmanlı padşahı I Sultan Süleyman Azərbaycana yürüş etdi. Təkəli və Zülqədər tayfaları osmanlıların tərəfinə keçdilər. Qacar eli ağır qoşunla şahın yanında dayandı. Budaq xan və Göyçə sultan I Təhmasibin məşvərətçiləri, sərkərdələri sırasında idilər. Onlar Qacar ordusunun başında yer-yurdlarını qorudular.

1535-ci ildə I Sultan Süleyman yenidən Azərbaycana yürüş etdi. Budaq xan yığcam qoşunla Ercişdə osmanlıların önünə çıxıb vuruşdu. Osmanlılar yenilib geri döndülər. Sinan paşa və başqa osmanlı sərkərdələri ilə birgə yüzlərlə yeniçəri məhv edildi. Budaq

[1] N. Nəcmi, Abbas mirzə, Bakı, «Yazıçı», 1993, səh.5-6.

xan Qacar isə Osmanlı sərkərdəsi İbrahim paşaya qarşı döyüşə başladı. Onun dəstəsini Bidlisədək qovub xeyli qənimətlə qayıtdı. Budaq xanın sayəsində Van və Erciş qızılbaşların əlinə keçdi.

1546-cı ildə qardaşına qarşı qiyam edən Əlqasib (Əlqas) mirzəylə danışıq aparmaq üçün gedən Bədr xan Ustaclı əliboş qayıtdı. Şah Şahverdi sultanı və Göyçə sultanı başqa qızılbaş əmirlərilə bərabər Əlqasib mirzənin üstünə göndərdi. Qiyamçı şahzadə dirəniş göstərən kimi Qacar eli köməyə gəldi. Əlqasib mirzə məğlub olub Osmanlı dövlətinə sığındı.

1548-ci ildə I Sultan Süleyman üçüncü dəfə Azərbaycana yürüş etdi. Osmanlı ordusuna qarşı ilk çıxanlar arasında Şahverdi sultan Ziyadoğlu və Göyçə sultan da vardı.

1551-ci ildə I Şah Təhmasib Şəkinin müstəqilliyinə son qoymaq qərarına gəldi. Qacar elinin qatıldığı Qızılbaş ordusu Şəkini tutub, Səfəvilər dövlətinə birləşdirdi. Toygün bəy Qacar Şəkinin hakimi təyin edildi.

1551-ci ildə I Şah Təhmasibin əmri ilə Qızılbaş ordusu asi gürcülərə qarşı yürüş edir. Qızılbaş ordusunun başçılarından biri Şahverdi sultan Qarabağ ordusunun başında cızığından çıxmış Gürcüstan valilərini cəzalandırmışdı.

1552-ci ildə Osmanlı ordusu yenidən Qızılbaşlar məmləkətinə soxuldu. I Şah Təhmasib düşmən ordusuna qarşı bir neçə istiqamətdə qoşun tərtib etdi. Dəvil istiqamətində Bayram bəy Qacar, Toygün bəy Qacar, başqa istiqamətində isə Şahverdi sultan öz qoşunları ilə vuruşurdu. O, Ərzurum hakimi İskəndər paşaya qarşı qarabağlılarla çıxış etmişdi.

1554-cü ildə I Sultan Süleyman dördüncü dəfə Azərbaycana yürüş etdi. Bu dəfəki savaşda da Qacar eli seçildi. Şahverdi sultan Ziyadoğlu-Qacarın başçılığı ilə qarabağlılar Pasinə qədər osmanlıları izləyib dənlədilər.

1554-cü ildə Osmanlı yürüşündən ilhamlanan Şirvan əhalisi Şirvanşah Qasım mirzənin başçılığı ilə Səfəvi dövlətinə qarşı üsyana başladı. Şirvan bəylərbəyi Abdulla xan Təmişli-Ustaclı iki-



10446

minlik qoşunun gücü ilə ayaqlanmanı yatırtdı. Əliqulu bəy Qacar bu işdə ona yardımçı oldu.

1555-ci ildə Səfəvi elçisi Şahqulu bəy Qacar əsir Sinan bəyi də götürüb Sultan Süleyman Osmanlının yanına elçi getmişdi. Şahqulu bəy Qacar Qarabağlı idi.

1575-ci ildə I Şah Təhmasib xəstələnir. Qızılbaşlar iki tirəyə ayrılır. Qacar eli İsmayıl mirzəni dəsəkləyirdi.

1576-cı ildə I Şah Təhmasib yenidən yorğan-döşəyə düşdü. Ədavət təzədən qızışdı. Hər kəs, hər tayfa öz namizədini dəstəklədi. Şah vəfat etdi. Mirzəli sultan Qacarın meyli Heydər mirzəyə tərəf idi.Sonradan İsmayıl mirzənin tərəfinə keçdi. Çünki bütün qacarlar onun tərəfində idilər.

1576-cı ildə taxta çıxan II Şah İsmayıl Mirzəli bəy Qacarı ali ədalət divanının üzvi təyin etdi. Bu divan ölkəni idarə edən 4 nəfərdən ibarət idi. Həmin ərəfədə İmamqulu xan Yıva-Qacar Qarabağ bəylərbəyi, Peykər sultan Ziyadoğlu-Qacar isə Şirvan bəylərbəyisi təyin edildi.

1577-ci ildə II Şah İsmayıl vəfat etdi. Əmirlər ayaqlandılar, üsyana başladılar. Araya girən Xəlil xan Avşar qızılbaşları sakitləşdirdi. Türkman tayfasının qocaman ağsaqqalı Əmir xan Mosullu ilə Ustaclı elinin cavan ağsaqqalı Pirə Məhəmməd xan arasında «ata-oğul» müqaviləsi bağlandı. Qacarlar barış tərəfdarı oldular.

Şah öləndən sonra məmləkəti müvəqqəti idarə etmək üçün «ağsaqqalar şurası» yarandı. Şuraya Ustaclı elindən, Pirə Məhəmməd xan Çavuşlu, Türkman elindən Əmir xan Mosullu, Şamlı elindən Sultan Hüseyn xan Bəydili, Təkəli elindən Müseyib xan Şərəfəddinli, Avşar elindən Məhəmmədqulu xan daxil idi. Qacar elinin nümayəndələri bu quruma qoşulmadılar.

1578-ci ildə Sultan Məhəmməd Xudabəndə şah elan edildi. Yeni şah gözdən qarav, koruş olduğu üçün dövləti arvadı Xeyrənnisə bəyim Məhdi Ulya, oğlu Həmzə mirzə və vəziri Mirzə Salman Cabiri idarə edirdi. Şah taxta əyləşən kimi yeni təyinatlara başladı. İmamqulu xan yenidən Qarabağ bəylərbəyi təyin edildi.

Azerbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

1578-ci ildə osmanlı sultanı III Murad (1574–1585) Amasiya sülh müqaviləsini pozub, Qızılbaşlar məmləkətinə yürüş etdi. Çuxur Səd əyalətinin bəylərbəyi Məhəmmədi xan Ustaclı bu olay haqqında paytaxta, qonşu Azərbaycan və Qarabağ bəylərbəyinə xəbər verdi və ordunun önünə çıxdı. Qarabağ bəylərbəyi İmamqulu xan Yıva-Qacar köməyə gəldi. Azərbaycan bəylərbəyi Əmir xan Mosullu-Turkman isə əski düşmənçilikləri ucundan yerindən tərpənmədi. Fikirləşdi ki, ustaclılardan nə qədər çox qırılsa, o qədər yaxşıdır. Bir müddət yubanandan sonra onminlik qoşun toplayıb Məhəmmədi xanın yardımına getdi. İş işdən keçmişdi. Ustaclı və Qacar elləri düşmən önündə tək qalmışdılar. Zəif bir durumda idilər.

1578-ci miladi/ 986-cı hicri ilində avqust ayının 11-də Səfəvi ordusu Osmanlılar tərəfindən məğlub edildi və Qafqaz osmanlıların tabeliyinə keçdi. Bir il sonra Xeyransa bəyim-şahın anası özünün böyük oğlu-vəliəhd Həmzə mirzə ilə Qafqaza yollandı. Osmanlı qoşunu geriyə oturmağa məcbur oldular. Bu zaman Şirvanda güclü hakim olmadığına görə əmir və sərdarlar şaha təklif etdilər ki, Şirvanın mühafizəsini Qacar və Otuziki tayfaları öhdələrinə götürsünlər. Qarabağ elləri Şirvanı qorumalı oldular.

1579-cu ildə Şirvana yenidən soxulan tatarlara qarşı vuruşan bəylərbəyi Məhəmməd xəlifə Hacılar-Zülqədər Əmir xan Mosullu-Türkmandan kömək istəmişdi. Əmir xan köməyə gəlsə də, döyüşə candan atılmamışdı. Bu dəfə Şahrux xan Zülqədər onu suçlayaraq özü vuruşmağa getmək istədiyini bildirdi. Ustaclılar da onun tərəfini tutub, Əmir xanı mühakimə etdilər. Təfriqə yenidən başlandı. Öncə türkmanlara tərəf duran zülqədərlər və şamlılar bu dəfə ustaclılara qahmar çıxdılar. Şahrux xan Zülqədər açıq-açığa Əmir xanla düşmənçilik edirdi. Məhəmmədqulu xan Avşar araya girərək barışıq yaratdı. İmamqulu xan Qacar, Məhəmmədqulu xan Avşar, Şahrux xan Zülqədər, Məhəmməd xan Türkman, Pirməhəmməd xan Ustaclı, Museyib xan Təkəli, Həmzə xan Ustaclı və başqalarının başçılığı altında ordu toplanıb tatarların üzərinə hücuma keçdilər. Tatarlar yenildilər.



1581 (hicri 989)-ci ilin yazında Qazi Girey və Səfi Gireyin başçılığı ilə Krım tatarları dördüncü dəfə Şirvana hücüm etdilər. Bundan bir qədər əvvəl İmamqulu xan Qacar qızılbaşların güclü dəstəsini Peykər xanın köməyinə göndərmişdi. Şamaxıya hərəkət edən tatarlar başda Şirvan bəylərbəyi Peykər xan olmaqla qacar, çəkirli, qaramanlı və başqa tayfaların əmirləri ilə qarşılaşdılar. Döyüş Şamaxı ilə Şabran arasında baş verdi. «Tatarların əvvəlki uğurlarının təsiri altında özünə güvənən Qazi girey at belində döyüşün ən qızğın yerinə yeridi və qacarlar tərəfindən əsir alındı. Tatarların və türklərin birləşmiş qoşunu yenidən ağır məğlubiyyətə uğradı. Səadət Girey də az qala əsir düşəcəkdi. Sağ qalan tatarlar və türklər döyüş meydanından qaçdılar. Əbubəkr mirzə də aradan çıxdı.

1581-ci ildə Peykər xan vəfat etdi və onun yerinə Xəlifə Ənsar Qaradağlı Şirvan hakimi təyin olundu.

Tarixçi Şərəf xan Bidlisi yazır: «Bu ildə (995/1586/87) sərdar Fərhad paşa Bərdəni və Gəncəni tutmaq məqsədilə hücuma keçdi. O, vilayəti tutduqdan sonra qacar və iyirmidörd tayfasını qovdu və Gəncə qalasının tikintisini başa çatdırdı.

Fərhad paşa Heydar paşanı bu vilayətə gözətçi qoydu və müzəffər qoşunu ilə Arazbarda olan qacarların üzərinə hücuma keçdi. Qacarların və başqa tayfaların qalıqlarını, mal-mülklərini qarət etdi və Ərzuruma qışlamağa getdi…»[1].

1586-cı ildə sarayda olan Zülqədər, Avşar və Qacar ellərinin nümayəndələri şahzadə Həmzə mirzənin tərsliyindən narazı olduqlarını bildirdilər. Həmzə mirzə qisasçılığa meyl edirdi. Orduya birlik gərək idi. Birləşən əmirlər Həmzə mirzənin güzəştə getməsini dilədilər. Həmin ellərin nümayəndələri olan qorçular, qvadiyaçılar Əliqulu xanın Təbrizdəki evini yağmaladılar. Harda ustaclı evi vardısa viran qaldı.

1589-1589-ci illərdə demək olar ki, bütün Azərbaycan tədricən III Sultan Muradın orduları tərəfindən tutuldu. Qacar və Qarabağ elləri öncə Qaradağa, ordan da İranın içinə doğru çəkildilər.

---

[1] Шереф хан Битлиси, Шерефнаме, Москва, 1976, ст.260.

Qızılbaşlar arasına qarğaşa, məğşuşluq düşmüşdü. Qəzvində hakimiyyətə gələn Səfəvi şahı I Abbas islahatlara başladı. Qızılbaşların hökmüranlığı məhdudlaşdı.

I Şah Abbas Hüseyn xan Ziyadoğlu-Qacarı Qarabağı azad etməyə təhkim etdi. 1603-cü ildə Gəncə bəylərbəyi Davud paşa yeddi min nəfərlik qoşunu ilə I Şah Abbas tərəfindən Qarabağa göndərilən Hüseyn xan Ziyadoğlu-Qacarı Qozluçay ətrafında məğlub edərək onu geri çəkilməyə məcbur etmişdi.

I Şah Abbas Hüseyn xanın iş aşırmadığını görüb Allahqulu bəy Qapanaoğlu-Qacarı Qarabağa göndərdi. O, I Şah Abbasın qorçubaşısı idi. 1604-cü ildə 15.000 nəfərlik qoşunla Qarabağa gələn Allahqulu bəy bol qənimətlə və xeyli sayda əsirlə geri dönmüşdü.

Allahqulu bəy 1605-ci ildə İrəvana hücum edən qızılbaşlar ordusunun sol cinahına başçılıq edirdi. Bu savaşda ünlü osmanlı sərkərdələrinin bir çoxu öldürülüb, bir neçəsi isə əsir edildi. Əsirlərin içində Raziyə xatun oğlu Mustafa paşa, Qars bəylərbəyisi Şir Əhməd paşa, ölənlərin arasında Zəncirqıran Əli paşa, Şam bəylərbəyi Osman paşa vardı.

I Şah Abbas Səfəvi 1606-cı ildə Qarabağı yenidən ələ keçirəndən sonra dönüklərə divan tutulmasını əmr etdi. Əhmədli elinin başçıları cəzalandı. Qorçubaşı Allahqulu bəy Qacar dönükləri talan və tarac etdi.

I Şah Abbas Məhəmməd xan Ziyadoğlu-Qacarı Qarabağ bəylərbəyi təyin etdi. Əslində o, 1587-ci ildən idarə edirdi. Məhəmməd xan 1616-cı ilə kimi, həlak olduğu çağa qədər Qarabağın bəylərbəyi olmuşdu.

Mürşüdqulu xan Ziyadoğlu-Qacar atası Məhəmməd xanın ölümündən sonra Qarabağın bəylərbəyi oldu. Onun hakimliyi çox çəkmədi. Qardaşı Məhəmmədqulu xan onu əvəz edib Qarabağı idarə etməyə başladı.

Məhəmmədqulu xan bir müddət bəylərbəyi olduqdan sonra I Şah Abbasın qəzəbinə tuş gəldi. Şah 1625-ci ildə onu çıxarıb Tiflis hakimi Davud xan Allahverdi xan oğlunu bəylərbəyi təyin etdi. Davud xan qulam olduğuna baxmayaraq, özündən çox razı idi.



Məclisdə ədəb-ərkan tanımadığından Şah Səfinin (1629–1642) acığına səbəb oldu. Şah onu saraydan qovdu. O da Qarabağı yağmalayıb, Osmanlı dövlətinə pənahlandı. Şah yenidən Məhəmmədqulu xanı bəylərbəyi təyin etdi.

Murtuzaqulu xan atası Məhəmmədqulu xanın vəfatından sonra Qarabağın bəylərbəyi təyin edildi. Gəncə-Qarabağ onun hakimiyyəti illərində özünün çiçəklənmə dönəmini yaşadı.

Murtuzaqulu xan həm də Kaxetiyanın da valisi idi.

Murtuzaqulu xan 1664-cü ildə varis qoymadan vəfat etdi.

Uğurlu xan qardaşının vəfatından sonra, 1664-cü ildə Qarabağa bəylərbəyi təyin edildi.

Uğurlu xan Ziyadoğlu-Qacar 1666-cı ildə vəfat etdi. Onun vəfatından sonra oğlu Abbasqulu xan Qarabağı idarə etməyə başladı.

Abbasqulu xan II Şah Səfinin (Süleymanın) yaxın adamlarından sayılırdı. Bir müddət Bərdənin hakimi olmuşdu. Gürcüstan valisi Georgiyə mehmandarlıq etmişdi. Atasının vəfatından sonra Qarabağın və 1688-ci ildən 1694-cü ilədək Kaxetiyanın hakimi oldu. Şah Sultan Hüseyn Səfəvi onu Qarabağ və Kaxetiyadan çağırıb, İsfahana gətirtdi.

Abbasqulu xan Şah Sultan Hüseynin hakimiyyəti dönəmində bütün Qızılbaşlar ordusunun başında durmuşdu.

Abbasqulu xan ordu komandanı kimi Süleyman paşanı məğlub etmişdi. Üsyançı Baban kürdlərini cəzalandırmışdı. Qasım sultan Avramini öldürmüşdü.

Uğurlu xanın ikinci oğlu Kəlbəli xan II Şah Abbasın (1642–1666) yaxın adamları cərgəsində idi. İstanbula, Osmanlı sarayına elçi getmişdi. Şah Sultan Hüseyn Səfəvinin hakimiyyəti dönəmində Gəncə-Qarabağın və 1694-cü ildən 1702-ci ilədək Kaxetiyanın bəylərbəyi olmuşdu.

XVIII yüzildə Gəncə-Qarabağı növbə ilə Kəlbəli xanın oğulları idarə etmişdilər.

II Uğurlu xan atası Kəlbəli xandan sonra Gəncə-Qarabağın bəylərbəyi təyin edilmişdi.

1722-ci ildə qiyamçı əfqan qoşunu hücum edib Səfəvi dövlətinin paytaxtını tutur. Osmanlı sultanı III Əhməd də Qızılbaş məmləkətindən ərazi qoparmaq məqsədilə yürüşə hazırlaşır. Tutarlı bəhanə tapan kimi orduya hücuma keçməyi əmr edir.

1724-cü ildə çoxsaylı Osmanlı ordusu Qarabağa girdi. Gəncə-Qarabağ bəylərbəyi azsaylı qoşunla sərhədi savuna bilmədi. Osmanlılar bir-iki həmlə-hücumla Gəncəni alıb Qarabağa yiyələndilər.

Osmanlı şairi İzzət Rumi bu münasibətlə «Tarixi-fəthi-Gəncə» adlı bir mənzum tarixçə yazıb. Tarixçədə deyilir:

Mən bu fəthü nüsrətin İzzət, dedim tarixini:
«Aldı əcəmdən Gəncəni Xan Əhmədi-valihiməm»

Qarabağ bir sürə Osmanlıların əlində qaldı. Qarabağın valisi İbrahim paşa idi. İbrahim paşadan sonra Gəncə-Qarabağın valisi Əli paşa olmuşdu.

II Uğurlu xan II Şah Təhmasibin yanına qaçmışdı. 1730-cu ildə şah onu 700 nəfərlik dəstə ilə Qarabağa qoşun toplamağa göndərmişdi. Uğurlu xan Bərgüşad və Bərdə qəzalarından 12 min nəfərlik qoşun yığmışdı. İbrahim paşanın yanında olan Qarabağ qoşunu Qara bəyin başçılığı altında qaçıb, Uğurlu xana qoşuldu.

II Təhmasibin hakimiyyəti (1722-1734) dönəmində Qacar elindən bir çox əmirlər onun tərəfini tutmuşdular. Tarixçi Ələsgər Şəmim yazır: «II Şah Təhmasib qızılbaşların dağılmış ordusunun əsgərlərindən, Xəmsə əyalətində yaşayan Avşar və başqa ellərdən bir ordu yaratdı. Azərbaycanı, Qəzvini, Gilanı ələ keçirdi. Qacar elini özünə birləşdirmək üçün Gürgana getdi. Qacar elinin Aşağıbaşlı camaatının başçısı Fətəli xan yuxarıbaşlıları da toplayıb, ona qatıldı. Şah Tehranı almaq üçün Fətəli xanı ora göndərdi. Fətəli xan Əşrəf Əfqanı orda məğlub etdiyindən şan-şöhrət qazandı, bütün səfəviyyə ordusunun baş komandanı oldu. Qacar elindən ilk adam idi ki, bütün ordunun komandanı təyin edilmişdi»[1].

---

[1] Ə. Şəmim, İran dər dövreyi-səltənəti-Qacar, «Elm» nəşriyyatı, II çapı, 1370 hicri, səh.22-23. farsca.



II Təhmasibin 500 nəfər qacar qorçusu vardı. Baş sərkərdəsi Fətəli xan Şahqulu xan oğlu II Şah Təhmasibin hakimiyyəti (1722-1734) dönəmində Qacar Qovanlı-Qacar idi. Fətəli xanı öldürəndən sonra, 1726-cı ildə Qacar elinin başçılarını-Yusif bəyi, Rəhim xan Gəraylını, Şərəfəddin bəyi, Niyazqulu bəy və Qasım ağanın həbs etdirmişdi.

Nadir şah Qırxlı-Avşarın hakimiyyəti dönəmində Qacar elindən Məhəmmədhüseyn xan, Məhəmmədəli xan, Məhəmmədqasım bəy, Məhəmməd xan İrəvani və başqaları orduda xidmət etmişdilər.

Xorasanda işğalçı əfqanlara qarşı mübarizəyə başlayan Nadirqulu xan Qırxlı-Avşar qələbə qazanıb, tez bir zamanda İranı, Azərbaycanı istilaçılardan təmizlədi.

1734-cü ildə Qarabağa hücuma keçdi. Aşağı hissəsini bir hücumda alıb, paytaxt Gəncəyə irəlilədi. Şəhəri səkkiz ay yarımlıq bir mühasirədən sonra aldı.

Nadirqulu xan parlaq zəfərlərdən sonra Muğana gəlib oturaq elədi. Seçkin əmirlər qurultay çağırıb Nadirqulu xanı şah seçdilər. Nadir şah adı ilə taxta əyləşən Avşar oğluna xəbər çatdırdılar ki, Qarabağ bəylərbəyi Uğurlu xan Ziyadoğlu-Qacar sənin şah olmağını istəmirmiş. Bu xəbərdən qəzəblənən şah öncə Uğurlu xanı öldürmək istədisə, ulu uruq olduğunu düşünüb fikrindən daşındı. Lakin yamanlıq etməyi ağlından çıxarmadı.

Nadir şah dövlətində yeni inzibati-ərazi sisteminin əsasını qoydu. Səfəvilərdən qalma bəylərbəyiliyi ləğv edib 3 əyalət yaratdı. Bu əyalətlərdən biri Dərbənddən başlayıb, Qaplankuhda bitən Azərbaycan idi. Azərbaycana qardaşı İbrahimzaman xanı başçı qoydu.

Bununla ürəyi soyumayan Nadir şah Xəmsə məliklərini saraya tabe etdi. Qapanat, Çulundur mahallarını Qarabağdan ayırdı. Cavanşir, Otuziki və Kəbirli ellərini Xorasana sürdü. Uğurlu xanın idarə meydanı daraldı.

II Uğurlu xan 1738-ci ildə dağıstanlılara qarşı vuruşda həlak oldu.

Kəlbəli xanın ikinci oğlu Həsənəli xan Bərdədə hakim idi.

Hüseynqulu xan, Rzaqulu xan, Məhəmmədqulu xan və Şahverdi xan «hərənin növbəsi beş gündür»,-deyib xanlığa yiyələnməyə başladılar.

Uğurlu xandan sonra Gəncəni bir müddət qardaşı Hüseynqulu xan idarə etdi. Hüseynqulu xan dağıstanlılara qarşı hərəkatda yaxından iştirakçı olmuşdu.

XVIII yüzilin ikinci yarısından sonra Qarabağ iki xanlığa parçalandı. Gəncə və Qarabağ xanlığına. Tarixi Qarabağda yaşayan qacarlar da ayrıldılar.

## Qacar elinin yerləşməsi, yerdəyişməsi, coğrafiyası

Azərbaycanda yerləşən Qacar eli bir neçə oymaqdan ibarət idi. 1593-cü ilə bağlı Osmanlı «təhrir dəftəri»nə görə Qarabağda Qacar elinin Qaraca-Sevgülən, Qaytaq, Qolsuzlu, Ağcaqoyunlu, Gəngəldili, Əglənli, Şambayatı və Yıva oymaqları yerləşmişlər[1].

Oymaqların yerləşdiyi ərazilər:

1. Qaraca-Sevgülən Sir nahiyəsində
2. Qaytaq Sir və Xaçın sancağının (qəzasının) Çalaberd nahiyəsində
3. Qolsuzlu Sir nahiyəsində, Ağcaqoyunlu Xaçının Çalaberd nahiyəsində
4. Ağcaqoyunlu Xaçının Çalaberd nahiyəsində
5. Gəngəldili Ağcaqoyunlu oymağı ilə eyni yerdə
6. Əglənli Ağcaqoyunlu oymağı ilə bir arada
7. Şam-Bayatı Ağcaqoyunlu oymağı ilə eyni yerdə
8. Yıva-Qacar Qaraağac qəzasında

Qarabağda bu oymaqlardan başqa Ziyadoğlu və ya Ziyadlı oymağı da qərar tutmuşdu. Bu oymağın əmirləri uzun müddət Gəncə-Qarabağ bəylərbəyiliyini idarə etmişlər.

---

[1] Qırzıoğlu. M. Fəxrəddin. 1593 (h.1001) yılı Osmanlı vilayət tahrir defterinde anılan Gence-Karabaq sancakları «ulus» ve «oymak»ları, Ahmet Caferoğlu. Ankara.1979.səh. 206.



Çuxursəd (İrəvan) əyalətində Qacar elinin Ağcaqoyunlu, Ziyadlı, Dəvəli oymaqları məskunlaşmışdı.

Astrabadda (Əstərabad da deyilir), Qorqançayı (Gürgançayı) ətrafında Qacar elinin iki qrupu Aşağıbaşlı və Yuxarıbaşlı camaatları yerləşirdi. Yuxarıbaşlı camaatının qolları: dəvəli, köhnəli, xəzinədarlı, qıyaxlı, kürlü, sapanlı.

Aşağıbaşlı camaatının qolları: qovanlı, izzətdinli, ziyadlı, şambayatı, qaradonlu, qaramusanlı, daşlı.

1593-cü ilə bağlı Osmanlı qaynağında Füzuli bölgəsindəki Qacar kəndi Şeyx Qaybi-Tatar kimi qeyd olunur. Bundan başqa həmin ərazidə Tatar-Eliriz adlı kənd də mövcud imiş. Bərdə ərazisindəki Qacar kəndi isə XIX yüzilin ortalarınadək sənədlərdə Qaraqoyunlu obası kimi qeyd olunmuşdu.

Qacar elinin bir oymağı indiki Mingəçevir şəhərinin ərazisində məskunlaşmışdı.

Qacar elinin obalarına Şirvan vilayətində də rast gəlinir.

## Qacar elinin oymaqları

Qacar eli ağcaqoyunlu, qovanlı (qoyunlu da deyilir), qaradonlu, qaramusanlı, dəvəli, ziyadlı (ziyadoğlu da adlanır), qaracasevgülən, qaytaq, qolsuzlu, qıyaqlı, gəngəldili, gəraylı, əglənli, şambayatı, yıva, izzəddinli, xəzinədarlı, teymurtaş, köhnəli, kürlü, sepanlı, daşlı və başqa oymaqlardan ibarətdir.

### Qovanlı oymağı

Qovanlı oymağı Qacar elinin Aşağıbaşlı qrupuna daxildir.

Qovanlı oymağının tarixindən və nümayəndələrindən danışmazdan öncə adaçımına diqqətimizi yönəldək.

Qacarlar haqqında rəvayətlərə əsasən, bu tayfa öz köklərini Çingiz xanın oğlu Kaan Lunun nəslindən götürmüşdür. Qacarların əcdadlarından biri öz oğluna Kaan Lunun qızını almış və bundan sonra həmin nəsli Kavan Lu Qacar adlanmağa başlamışlar. Bu

versiya kökündən yalnışdır. Çingiz xanın Kaan Lu adlı oğlu olmayıb. Cuçi, Cığatay, Ügədey, Tulu (anaları Burqu ucin) və Külkan (anası Qulan xatun) adlı oğulları vardı.

Qacarların başçılarının öz nəsillərinin monqollara çatmasını sübut etməyə çalışması iki ictimai-psixoloji prinsiplə bağlıdır. Bu iki prinsipdən biri «Türklərin qanunu»dur ki, qədim zamanlardan cah-cəlallı, cəsur tayfa kimi ad qazandıqları üçün insanlardan çoxu özünü o tayfaya mənsub etməklə onların hesabına məşhurlaşdılar.

İkinci prinsip isə bəzi İran sülalərinin qohumluq əlaqələri yaratma prinsipidir ki, bunun da tarixdə uzun bir keçmişi var. Həmin prinsipə uyğun olaraq İran sülalərinin əksəriyyəti ərəblərin hücumundan sonra öz növbələrini islamdan əvvəlki şahlara nisbət etdilər. Monqollardan sonrakı şahlar da özlərini Çingiz xana, yaxud da onun övladlarına yapışdırmağa çalışırdılar[1].

Hadisəyazarlardan (tarixçilər) bəzilərinə tapşırıldı ki, Fətəli şahdan qabaq yazılmış bir neçə tarixi kitabda düzəliş edib, Fətəli şahın nəslini Sultan Hüseyn Səfəviyə çatdırsınlar. Hadisəyazarlardan biri Məhəmməd Haşim Asəfdir ki, yazılmış dastanı belə rəvayət edir: «Məhəmmədhəsən xan (Qacar) sırf şahənşah cənnətməkan şah Sultan Hüseyn Musəvi Səfəvi oğlu... Şah Sultan Hüseynin bəndində olmuş və mərhum Fətəli xan Qacar Əfqan müharibəsində məzkur şaha böyük xidmət göstərmişdir. O, uca mənsəbli (şah Sultan Hüseyn) öz hamilə qadının o ali mənsəblinin (Fətəli xan Qacar) xidmət mükafatı olaraq şəriət yolu ilə o nura bağışladı. Bu yəqin və dəqiqdir və bu sözə şəkk yoxdur».

«Elə ki, bu yalançı münasibət öz cazibəsini itirdi, belə qərara gəldi ki, öz nəslini monqol Çingiz xana çatdırsın. Bu vəzifə «Mürkül-kəlam» risaləsinin müəllifi Mirzə Tağı Əliabadi və «Şəmayili-Xaqan» risaləsinin yazarı Mirzə Əbülqasım qayimməqama həvalə olundu. Onlar da qacarları Çingiz xanın nəsli kimi təqdim etdilər». Bu fikirlər İran tarixçilərinə məxsusdur.

Anadoluda yaşayan iki qrup tatar camaatı, ulusu vardı. Birincisi ağtatar (monqolca saqan tatar), ikincisi qaratatar (monqolca kain tatar) adlanırdı. Kaintatarların Sutay (sutaylıların barambay adlı oymağı mövcud idi), Samqar, Mulay, Kuytay, ağtatarların isə Kiray, Doladay adlı ulusları vardı.

[1] Pənahi Semnani, Fətəli şah Qacar, Bakı, 2006, «Şuşa» nəşriyyatı, səh.8-9.



Əmir Teymur qaratatarları (sonralar qacar adlandılar), caunqarları (sonralar cavanşir adlandılar) yığıb, İravana və Qarabağa gətirdi. Qarabağda yerləşən qaratatarlar qacar adlanmazdan öncə tatar çağrıldı. Füzuli bölgəsindəki Qacar kəndi XVI yüzilədək dəftərlərdə Tatar kimi qeyd olunurdu. Qaratatarların bir qolu el içində Kainli-qaralı adlanırdı. Kainli oymağı Astarabada, Gürgan ətrafına köçürüləndən sonra yerli ləhcədə Kovanlu şəklində işlənməyə başladı. Kainlilər isə özlərini qoyunlu adlandırdılar.

Tarixçi Ələsgər Şəmim yazır: «Səfəviyyə dövründə yazılan tarixdən belə görünür ki, Səfəviyyə şahlarının anaları Qacar elindən olublar. Bu el Araz çayının sahillərində yaşayıb. Səfəvilər İran sərhədlərini özbəklərdən qorumaq üçün bunları Astrabada köçürüblər. Bu köçürülmə və seçim onu göstərir ki, el döyüşkən olub. Qacar eli Səfəviyyə şahlarına həmişə vəfalı qalıb. Qacar eli tərəfindən heç vaxt Səfəvi şahlarına qarşı etiraz, üsyan, yağılıq olmayıb. Səfəvi dövrünün bütün əhmiyyətli savaşlarında, qərbdə, şərqdə baş verən osmanlı və özbəklərə qarşı müharibələrdə Qacar elinin başçıları və döyüşçüləri iştirak ediblər. O elin səfəvilərə bağlılığının iki səbəbi vardı. Birincisi yazdığımız kimi qohumluq əlaqələri, ikincisi elin arasında olan ikitirəlik idi. Hər tirə özünü dövlətə yaxın göstərmək istədiyindən savaşlarda can-başla iştirak edirdi. Qacar eli İranın şərq hissəsində yerləşəndən sonra, heyvandarlıqla məşğul olduğundan Gürgan və Ətrək çaylarının sahillərini seçdi. Bu yer onların sabiq yurdlarına çox bənzəyirdi. Orda otlaqlar bol idi.Bu çayların kənarında hansı tarixdən yaşadıqları dəqiq deyil. Amma belə məlum olur ki, Qacar elinin qrupları arasında ixtilaflar baş verib. Bu ixtilafların ilkin səbəbi yerləşmə üstündə əmələ gəlmişdi. Onlar Gürgan çayının aşağı və yuxarı başına əyləşmişdilər. Yuxarı başda əyləşənlərə yuxarıbaşlılar, aşağı başda əyləşənlərə aşağıbaşlılar deyiblər. Türk-

lər arasında yuxarıbaşlılar dəvəli, aşağıbaşlılar qoyunlu adlanıblar»[1].

Tarixçi Nasir Nəcmi kitabında qacarların Qarabağ bölgəsindən, Araz kənarından köçürülməsi haqqında yazır: «Türk irqinin bir qolu kimi sayılan Qacar tayfası tarixi hadisələrin və şahların siyasəti nəticəsində bir yerdən başqa yerə köçürülmüşdür. Səfəviyyə şahları zamanında Qacar tayfası birdəfəlik Araz çayının ətrafından Gürgan çayı dərəsinə köçürülmüş orada İran hüdudlarını, sərhəd şəhərlərini qorumaq işilə məşğul olmuşdu. Get-gedə tayfa içərisində ixtilaf törənmiş, bu isə tayfanın iki hissəyə parçalanmasına səbəb olmuşdur. Beləliklə, tayfanın bir hissəsi Qoyunlu, yaxud «Aşağıbaş» qacarları, ikinci hissəsi isə «Yuxarıbaş» qacarları adını almışdır»[2].

I Şah Abbas Qarabağ qacarlarının bir hissəsini, əsasən Qovanlı, Dəvəli, Şambayatı, Ziyadlı oymaqlarını Astrabada köçürmüşdü. Onlar Gürgançay boyunca məskunlaşmışdılar.

Bu oymaqlar yerləşdikləri əraziyə görə, iki qola ayrılırdı. Yuxarıbaşlı və Aşağıbaşlı qruplarına. Ayrıntılar:

Yuxarıbaşlı qolu: dəvəli, köhnəli, xəzinədarlı, qıyaxlı, kürlü, sepanlı.

Aşağıbaşlı qolu: qovanlı, izzətdinli, şambayatı, ziyadlı, qaradonlu, qaramusanlı, daşlı.

Petruşevski qeyd edir ki, Qacar elinin soy-kökündə dayanan tayfalardan biri də Cəlairdir. Biz bilirik ki, Cəlair ulusu Azərbaycana monqol-tatarların fütuhatı dönəmində gəlmişdir. Cəlair ulusunun cadaran, cat, orlat, tukaraun, karavun və başqa oymaqları vardı. Cadaran oymağının Kumun kovan, Mukali kovan, Buğa kovan, Boqol kovan adlı noyonları Çingiz xanın silahdaşları, özləri isə atabala, qohum əqraba idilər. Monqol qurumunda kovan ünvan, rütbə sayılırdı. Ola bilsin ki, Qovanlı oymağı öz adını bu ünvandan alıb.

---

[1] Ə. Şəmim, İran dər dövreyi-səltənəti-Qacar, «Elm» nəşriyyatı, II çapı, 1370 hicri, səh.20-21.farsca.
[2] N. Nəcmi, Abbas mirzə, Bakı, «Yazıçı», 1993, səh.5-6



Qaçar ağa Sərtaq ağanın oğlu, Sapa ağanın nəvəsi idi. Onun noyon ünvanı, rütbəsi yoxudu. Cəlair ulusunun Karavun oymağından idi. Qacarların Yuxarıbaşlı qrupunda Sapanlı adlı oymağı ola bilsin ki, öz adını Sapa ağadan alıb.

Tarixçi Ələsgər Şəmim yazır: «Tarixdə qoyunlu adı ilə tanınan aşağıbaşlılar Səfəvi şahlarına xidmət etdikləri üçün çox güclənibləр və nüfuz sahibi olublar. Səfəvi şahları Qacar elinin arasında olan ixtilaflardan istifadə edirdilər. Onların birləşməyinə mane olurdular. Bilirdilər ki, birləşib güclənən el mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçıracaq. Beləliklə, hər qrup öz arasında canfəşanlıqla, şahlara vəfadarlıqla çalışdığından onların xətrini əziz tuturdular.

Aşağıbaşlılar Şah Süleyman Səfəvi zamanında İranın şimal hissəsindəki ellərin içində çox nüfuz qazandıqlarından hakimiyyətin hörmətinə səbəb olmuşdular. Elin bəzi başçıları həm məqam-mənsəb sahibi, həm də Gürgan və Dəşt ətrafında tiyul-soyurqal yiyəsi oldular. Bu şan-şöhrət yuxarıbaşlıların kin-küdurətinə səbəb oldu. Sonralar nifaqın qızışmasına görə, tayfa-tirələrin arasında qanlı döyüşlər baş verdi»[1].

**Qovanlı (Qoyunlu) oymağının nümayəndələri**

Qovanlı oymağının nəsil şəcərəsi Qara Piri bəylə başlayır. Qara Piri bəy I Şah İsmayıl Səfəviyə xidmət etmişdi. Şah onu zarafatla «Tozqoparan» adlandırmışdı.

Qara Piri bəy balaca İsmayılın sədaqətli xidmətçilərindən idi. 1493-cü ildə onu Sultan Rüstəm bəy Bayandur-Ağqoyunlunun təqiblərindən qurtarmışdı.

I Şah İsmayıl Qara Piri bəyin qəhrəmanlığını, qoçaqlığını yüksək dəyərləndirirdi. Xorasan döyüşündə ona demişdi: «İndi mən bilirəm ki, Xəlil (*Xəlil sultan Zülqədər - Ə. Ç.*) və Div (*Əli sultan*

---

[1] Ə. Şəmim, İran dər dövreyi-səltənəti-Qacar, «Elm» nəşriyyatı, II çapı, 1370 hicri, səh.21.farsca

*Rumlu* - *Ə. Ç.*) heç nə bacarmırlar. Özünlə 6 min əsgər götür Herata get. Məhəmməd Teymur və Übeydi zəncirlə, orda məni gözlə».

1513-cü ildə Nəcmi-sani ləqəbli Yarəhməd Xuzani ilə birlikdə öldürüldü.

Qara Piri bəyin Rüstəm bəy, Mehdi bəy adlı oğulları vardı.

Rüstəm bəy I Şah İsmayıl tərəfindən Qarabağın bəylərbəyi təyin edilmişdi.

Qara Piri bəyin ikinci oğlu Mehdi bəy I Şah İsmayıla xidmət etmişdi. Müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Mehdi bəyin Şahqulu bəy adlı oğlu vardı.

Şahqulu bəy I Şah Təhmasibə xidmət etmişdi.

Şahqulu bəyin Məhəmmədvəli bəy adlı oğlu vardı.

Məhəmmədvəli bəy I Şah Təhmasibə xidmət etmişdi.

Məhəmmədvəli bəyin Mehdi bəy adlı oğlu vardı.

Mehdi bəy Qarabağ ətrafında yaşayırdı.

Mehdi bəyin Şahqulu bəy adlı oğlu vardı.

II Şahqulu bəy Qorqan və Mazandaranda hakim olmuşdu. Osmanlı sarayına elçi getmişdi.

Şahqulu bəyin Məhəmmədqulu bəy adlı oğlu vardı.

Məhəmmədqulu bəy şahdan öncə sultan, sonra xan ünvanı almışdı.

Məhəmmədqulu xanın Vəli xan adlı oğlu vardı.

Vəli xan Qacar elinin Qovanlı oymağına başçılıq etmişdi.

Vəli xanın Mehdi xan adlı oğlu vardı.

Mehdi xan Qacar elinin Qovanlı oymağına başçılıq etmişdi. Tarixçi Abbasqulu ağa Bakıxanov yazır ki, onun əsli Şəmkir şəhərindəndir. Şəmkir şəhərinin aşağı tərəfində, çayın sol sahilində, onların yurdları, ev və səkillərinin yeri Mehdibəyli adı ilə indi də görünməkdədir[1].

Mehdi xanın Şahqulu xan adlı oğlu vardı.

III Şahqulu xan Qarabağ yörəsində dünyaya boy göstərmişdi. Əvvəlcə oymaqlarının, sonra ellərinin başçısı olmuşdu. Mötəmədəddövlə Fərhad mirzə yazır ki, qacarların Astarabada ilk gəlişi

---

[1] A. Bakıxanov, Gülüstani-İrəm, Bakı, 2001, səh.204, 205.



Şahqulu xanla bağlıdır. Şah Süleyman Səfəvinin (1611-1642) hakimiyyəti dönəmində Şahqulu xan Gəncə yörəsindən Astrabada gəlir.

Şahqulu xan Şəhribanu xanımla ailə qurmuşdu. Fətəli bəy, Fəzləli bəy, Mehrəli bəy adlı oğulları vardı.

Fətəli bəy Astarabad civarında doğulmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Oymaqlarına başçılıq etmişdi.

Fətəli bəy Şah Sultan Hüseyndən öncə sultan, sonra xan ünvanı almışdı.

Fətəli xan Mübarəkabad qalasının hakimi olmuşdu. Qəzvin hakimi Məhəmməd xan Türkman və vəziri Əhməd sultan onu tutmaq üçün ora gəlir. Fətəli xan yomut türkmənlərinin yanına qaçır. Orda evlənir. Eşidir ki, qardaşlarını qalada öldürüblər. Türkmən və qacarlardan yığdığı qoşunla Mübarəkabada gəlir. Məhəmməd xanı, Əhməd sultanı və Əsləməş xanı öldürüb, qalaya yiyələnir.

Şəkər bəy Cahanbəyli-Kürd səs yayır ki, Fətəli xanı öldürmüşəm. Bu hayı eşidən qacar başçıları Məhəmmədhüseyn xan, Fəzləli bəy, Məhəmmədtağı bəy qalaya gəlirlər. Baxırlar ki, bu səs-küy kürdün hiyləsidir. Aralanıb gedirlər.

Fətəli xan əfqanların paytaxta basqın xəbərini eşidib, dəstəsinin başında köməyə tələsdi. Şəhərin qarışıq vəziyyətdə olduğunu görüb, geri qayıtdı. II Şah Təhmasib Səfəvi Tehran ətrafında əfqanlara məğlub olub, Mazandarana, Buşəhrə Fətəli xanın yanına qaçmışdı. Fətəli xan Gürganın hakimi idi. Onun tabeliyində qacarlardan başqa türkmən döyüşçüləri vardı. Onlar II Təhmasibə qulluq etməyə başladılar. Tarixçi Ələsgər Şəmim yazır: "Şah II Təhmasib qızılbaşların dağılmış ordusunun əsgərlərindən, Xəmsə əyalətində yaşayan Avşar və başqa ellərdən bir ordu yaratdı. Azərbaycanı, Qəzvini, Gilanı ələ keçirdi. Qacar elini özünə birləşdirmək üçün Gürgana getdi. Qacar elinin Aşağıbaşlı camaatının başçısı Fətəli xan yuxarıbaşlıları da toplayıb, ona qatıldı. Şah Tehranı almaq üçün Fətəli xanı ora göndərdi. Fətəli xan Əşrəf Əfqanı orda məğlub etdiyindən şan-şöhrət qazandı, bütün səfəviyyə ordusunun baş komandanı oldu.

Qacar elindən ilk adam idi ki, bütün ordunun komandanı təyin edilmişdi»[1].

II Şah Təhmasib Semnanın hakimiyyətini də Fətəli xana vermişdi.

Həmin arada Fətəli xan II Şah Təhmasibin baş sərkərdəsi olmuşdu. Nadirqulu xanın rəqibi olduğundan şahı öyrədib, onu aradan götürtdü.

Fətəli xan (hicri 1139-cu ilin səfər ayının 14-də) 12 oktyabr 1726-cı ildə öldürüldü.

Fətəli xan Türkmənlərin Yomut tayfasından bir qızla, Əminə bəyimlə, Hüseynqulu ağa Qacarın qızı ilə evlənmişdi. Məmmədhüseyn xan, Məhəmmədhəsən xan adlı oğulları, Xədicə bəyim adlı qızı vardı.

Məhəmmədhüseyn xan Astarabad yörəsində dünyaya göz açmışdı.

Məhəmmədhüseyn xan 12 yaşında vəfat etdi.

Fətəli xanın ikinci oğlu Məhəmmədhəsən xan (bəzən onu ölmüş qardaşının şərəfinə Məhəmmədhüseyn də adlandırırdılar) 1714-cü ildə Astrabad yörəsində dünyaya gəlmişdi. Mükəmməl mədrəsə təhsili almışdı. Atasının ölümündən sonra oymaqlarına başçılıq etmişdi.

1746-cı ildə türkmənlərlə birləşib, iki min qacarın başında Nadir şaha qarşı qiyam qaldırmışdı. Ona ən çox kömək edən dayısı Bəgəncəli bəy Yomut idi. Məhəmmədhəsən xan Astarabadın valisi Məhəmmədzaman bəyi qovub çıxarmışdı.

Nadir şah onun qiyamını yatırmış, Məhəmmədhəsən xan yenidən yomutların yanına qaçmışdı.

Məhəmmədhəsən xan Nadir şahın ölümündən sonra Astarabadı, Gilanı, Mazandaranı almışdı. Azad xan Əfqanı məğlub etmişdi.

Pənahəli xan Məhəmmədhəsən xan Qacara Azad xan Əfqanı yenmək üçün kömək etdi. Məhəmmədhəsən xanın 18 min nəfərlik qoşununda Pənahəli xanın oğlu Mehrəli bəyin başçılığı ilə 3 min

---

[1] Ə. Şəmim, İran dər dövreyi-səltənəti-Qacar, «Elm» nəşriyyatı, II çapı, 1370 hicri, səh.22-23. (farsca)



Qarabağ süvarisi iştirak edirdi. Lakin Məhəmmədhəsən xan Qacar işi həyata keçirə bilmədi və Astrabada geri çəkildi.

Məhəmmədhəsən xan Gəncə hakimi Şahverdi xanla eldaş olduğunan ona yardım göstərirdi. Şahverdi xan tez-tez Məhəmmədhəsən xana elçi göndərib Qarabağa hücum etməyə təhrik edirdi.

1757-ci ildə Məhəmmədhəsən xan ağır bir qoşunla Şuşaya yürüş edir. Xatunarxı adlanan yerdə düşərgə salır. Elə birinci gecədə düşərgəsi qarabağlılar tərəfindən talan olunur. Bu cür təpkidən sarsılan Məhəmmədhəsən xan geri dönür. Üstəlik də Fətəli xan Avşarın və Kərim xan Zəndin baş qaldırdığını eşitmişdi. Qayıdarkən düşərgədə xeyli ağır top buraxır...

1757-ci ildə Məhəmmədhəsən xan Urmiyaya hücum etdi. Əhalinin mərdliklə müqavimət göstərməsinə baxmayaraq, lazımi miqdarda qoşun və döyüş vəsaiti olmadığından şəhər Məhəmmədhəsən xanın zərbələrinə uzun müddət davam gətirə bilmədi.

Urmiya şəhəri alınar-alınmaz Fətəli xan oraya yaxınlaşdı. Lakin Məhəmmədhəsən xan uzaq səfərdən qayıdan döyüşçülərə istirahət etmək, hərbi düşərgə yaratmaq imkanı vermədi və dərhal hücuma keçdi. Bir neçə gün davam edən qanlı döyüşdə hər iki tərəfdən çoxlu adam tələf oldu. Müharibənin uzanmasından və Məhəmmədhəsən xanın qalib gələcəyini ehtimal edən bir sıra sərkərdələr xəyanət edərək Fətəli xanı tərk etdilər. O cümlədən əfqanlı Azad xan Əfqanlı döyüşçülərlə birlikdə Bağdada qaçdı. Şahbaz xan Dünbülü Xoy qoşunları ilə düşmən tərəfinə keçdi. Belə bir xəyanətkarlıq Fətəli xanın sarsılmasına və Məhəmmədhəsən xan Qacardan asılı vəziyyətə düşməsinə səbəb oldu.

Urmiya şəhərinə girən Məhəmmədhəsən xan illərdən bəri burada toplaşan xəzinəni ələ keçirdi. Lakin o, Kərim xan Zəndlə qarşılaşmağa tələsdiyi üçün burada uzun müddət qalmadı. Məhəmmədhəsən xan Azərbaycan xanlarını və onlara mənsub olan qoşunları öz döyüşçüləri tərkibinə daxil edərək cənuba doğru yola düşdü.

Onun Azərbaycandakı qələbəsini eşidən Kərim xan Zənd öz qardaşı Şeyxəli xan və sərkərdəsi Məhəmməd xanın başçılığı ilə öhdəsindəki bütün qoşunu Məhəmmədhəsən xana qarşı göndərdi.

Iki ordu Astarabad vilayətində üz-üzə gəldi. Məhəmmədhəsən xan ordusunun əsas cinahlarını azərbaycanlı döyüşçülər təşkil edirdi. Baş verən müharibədə Zənd qoşunları darmadağın edildi. Şeyxəli xan çətinliklə xilas olaraq qaçdı.

Vəziyyəti belə görən Kərim xan artıq Məhəmmədhəsən xanla döyüşməyə cəsarət etmədi. O, Şiraza çəkilərək şəhər darvazalarını bağladı və müdafiəyə hazırlaşdı. Məhəmmədhəsən xan Fətəli xan Araşlı-Avşarla birləşib Şiraza Kərim xan Zəndin üstünə hücuma keçdi. Şirazın yaxınlığında Fətəli xan Məhəmmədhəsən xanla mübahisə edib geri qayıtdı. Sonra əfqanların bir hissəsi də ayrıldı.

Təklənən Qacar sərkərdəsi savaşdan əl çəkməyə və yenidən qoşun toplamaq məqsədilə Mazandarana qayıtmağa məcbur oldu. Qəzvin ətrafında onları izləyən Zənd qoşunu ilə təkrar savaş baş verdi. Sərkərdə Məhəmməd xan öldürüldü.

Çox keçmədi ki, Dəvəli oymağı da xəyanət yolunu tutdu. Məhəmmədvəli xan qardaşı Hüseyn xanı öyrətdi ki, Məhəmmədhəsən xanı Mazandarana buraxmasın. Hüseyn xan da Məhəmmədhəsən xanla vuruşa bilməyəcəyini düşünüb Damğana qaçdı. Burda bir neçə xanla birləşdi. Onlar da (İbrahim xan Buğayiri və başqaları) Məhəmmədhəsən xandan yanıqlı idilər.

Məhəmmədhəsən xan Damğanı mühasirə etdi. Şeyxəli xan Zəndin Firuzkuha çatdığını eşidib mühasirəni buraxdı. Qorxdu ki, Şeyxəli xan Astrabadı tutar, onun ev-eşiyinə, qohum-qəbiləsinə ziyanlıq vurar. Əmisioğlu Məhəmməd xanı Astarabada hakim təyin etmişdi. Astarabada getdiyini görüb ətrafındakı qoşun yenidən qaçıb-dağıldı. Yanında qalanlar aşağıbaşlılar idilər. Astarabada gəlib qoşun yığmağa, müdafini möhkəmlətməyə girişdi. Hüseyn xan Dəvəli Sariyə gəlib, Şeyxəli xanla birləşdi. Birlikdə Astrabada hücuma keçdilər. İlk vuruşmada tərəflər itki vermədən ayrıldılar. Şeyxəli xan sahil tərəfdən hücuma keçməyi planlaşdırdı. Məhəmmədhəsən xan da Astrabadın içindən sahilə getdi. Dənizin sahilində, Gülabad adlı yerdə savaş olmuşdu. Fərli bir sonuc, nəticə alınmamışdı. Şeyxəli xan Sariyə çəkilmiş, Məhəmmədhəsən xan Astarabada qayıtmışdı.



Məhəmmədhəsən xan Astrabad ətrafından, Gəraylı, Hacılar, Kəfşilər, Kətul və başqa oymaqlardan 18 min nəfərlik qoşun topladı. Sonra Astarabadda bütün Qacar elinin ağsaqqalarını məşvərətə çağırmış, Hüseyn xanı da dəvət etmişdi. Dəvəli başçılarının hamısı məşvərətdən sonra, Məhəmmədhəsən xanın göstərişi ilə Səbzəli xanın adamları tərəfindən öldürülmüşdü.

Məhəmmədhəsən xan Mazandaranda Şeyxəli xan Zəndlə döyüşdə məğlub oldu. Astrabada qaçarkən, Sınıqkörpü ətrafında, 1758-ci ildə öldürdülər. Məhəmmədəli xan Dəvəli onun başını kəsib, nökəri Səbzəli Kürd ilə Kərim xan Zəndə göndərdi.

Məhəmmədhəsən xan Fatimə (Ceyran) xanım İskəndər xan qızı Qovanlı-Qacarla, Zəhra xanım Hüseyn xan qızı Dəvəli-Qacarla, Asiya xanım Məhəmməd xan qızı İzzədinli-Qacarla, Kürd qızı, İsfahanlı qızı ilə ailə qurmuşdu. Ağaməhəmməd xan, Hüseynqulu xan, Murtuzaqulu xan, Mustafaqulu xan, Cəfərqulu xan, Mehdiqulu xan, Abbasqulu xan, Rzaqulu xan, Əliqulu xan adlı oğulları, Bibixanım xanım (Şahcahan) və Zibeydə xanım adlı qızları vardı.

# II FƏSIL

## MUSAXANLI-QOVANLI TAYFASI

Qovanlı oymağının ünlü əmirlərindən biri də Musa xandır. Musa xanın törəmələri sonralar Musaxanlı kimi tanınmağa başladı.

Musa xanın İskəndər xan adlı oğlu vardı.

İskəndər xan Astrabad civarında doğulmuşdu. Hərb sənəti məşğul idi.

İskəndər xanın İsa xan, Musa xan, Məhəmməd xan adlı oğulları, Fatimə (Ceyran) xanım adlı qızı vardı.

İsa xan Astrabad yörəsində dünyaya gəlmişdi. Hərb sənətilə məşğul idi.

İskəndər xanın ikinci oğlu Musa xan Astarabad ətrafında dünyaya göz açmışdı.

İskəndər xanın üçüncü oğlu Məhəmməd xan Astrabad civarında doğulmuşdu. Əmirkəbir-böyük əmir ləqəbi daşıyırdı. Hərb sənəti məşğul idi.

Əmir Məhəmməd xan bir neçə arvadla ailə qurmuşdu. Hüseynqulu xan, Həsənqulu xan, Süleyman xan adlı oğlanları, Asiya xanım və Mürəssə xanım adlı qızları vardı.

Hüseynqulu xan 1740-cı ildə Astrabad civarında anadan olmuşdu. Onun haqqında III fəsildə ətraflı söhbət açacağıq.

* * *

Əmir Məhəmməd xanın ikinci oğlu Həsən xan Astrabad civarında dünyaya gəlmişdi. Ailə təlim-tərbiyəsi, təhsili almışdı. Fətəli şahın qulami-xas qvardiyasında xidmət etmişdi. Rus-İran savaşlarında iştirak etmişdi. Sarı Aslan ləqəbi ilə tanınırdı.

Həsən xan İran ordusunda şərəflə xidmət edib, igidlik göstərdiyinə görə Əmir Teymurun şəxsi qılıncı ilə təltif edilmişdir.



Qardaşı Sərdar Hüseynqulu xan Qacar İranın fəxri sayılırdı. Hər iki qardaş 1828-ci il fevralın 10-da Türkmənçayda bağlanmış mənhus sülh müqaviləsinin on ikinci maddəsinə əsasən rus çarı I Nikolayın əmrilə bütün əmlak və var dövlətdən məhrum edilib. Bu maddəyə əsasən İrəvanın sabiq sərdarı Hüseynqulu xan, onun qardaşı Həsən xanın və Naxçıvanın sabiq hakimi Kərim xanın Arazın hər iki kənarındakı yerləri, var - dövləti Rusiya imperiyasının ixtiyarına keçdi.

1804-cü ildə ruslar İrəvanı istila etmək fikrinə düşərkən Cəfərqulu xan Dünbüli də onlara qoşuldu. On min piyada və süvarini İran ordusu ilə birləşdirdi. O vaxt yüzbaşı olan Həsən xan ordusunu yüksəklikdə yerləşdirib, böyük şücaətlər göstərərək rus ordusunu geriyə qovdu və təqib etdi.

1807-ci ildə Həsən xan qardaşının yerinə Fətəli şahın qullar ağasıbaşı (rəisi-qulaman) idi.

1808-ci ildə ruslar İrəvan üzərinə yenidən yürüş etdilər. Həsən xan İranın digər sərkərdələri ilə birləşərək şəhəri qoruyurdu.

Möhkəm vuruşma oldu. Sentyabr və dekabr aylarında olan hərbi əməliyyatlarda feldmarşal İ.B.Qudoviçin qoşunları darmadağın edildi. Rusların on üç minlik qoşunu pərən-pərən düşdü. Həmin il noyabrın 17-də olan döyüşdə isə rus qoşunlarından 289 nəfər qılıncdan keçirildi, 574 nəfər ağır, 285 nəfər yüngül yaralandı. Yeddi nəfər yüksək rütbəli rus zabitindən biri öldürüldü, dörd nəfəri isə ağır yaralandı. Rus çarı bu rüsvayçı məğlubiyyətdən sonra feldmarşal İ.B.Qudoviçi hörmətsiz vəziyyətdə geri çağırıb, istefaya göndərdi. İrəvan döyüşlərində heç bir müvəffəqiyyət əldə edə bilməyən rus qoşunu Gürcüstana qayıtdı.

1820-ci ildə Həsən xan İranda Çehriçini tutmaq istəyən osmanlı hakimlərinə qarşı vuruşa getdi və osmanlıların bir neçə şəhərini tutdu, onlara böyük tələfat verdi.

Bir ildən sonra, 1821-cı ildə türklər alınmış şəhər və kəndləri geri qaytarmaq üçün 70 min ordu ilə İran sərhədinə yeridilər. Azərbaycan valisi şahzadə Abbas mirzə Naibəssəltənə ordunu təşkil edib hücuma keçdi və bu döyüşdə İran ordusu qələbə qazandı.

Sərdar Həsən xan Qacar İranın ən yaxşı sərkərdəsi kimi özünü göstərdi və Sarı Aslan ləqəbini aldı.

1825-ci ildə ruslar Balıqlı - Güney və İrəvan hüdudunda olan Göyçə dəryasının guya onların zəbt etdikləri yerlər olduğunu iddia edirdilər. Hər iki dövlət arasında bu məsələ müzakirə olundu və sərdar Sarı Aslan Həsən xanı İrəvandan çağırdılar ki, həqiqəti aşkar etsin. O, bu danışıqlarda Rusiyanın iddiasına qarşı kəskin çıxış edib, onların bəhanələrini rədd etdi. Lakin ruslar müzakirənin nəticələrini gözləmədilər, həmin yerlərə yiyələndilər. Həsən xan Rusiya – İran müharibəsində (1826-1828) o sərdarlardan idi ki, öz əsgəri vəzifəsinə əməl etdi, son saata qədər ruslarla vuruşdu və düşmənə təslim olmadı. 1826-cı ilin yay hücum əməliyyatında general Həsən xan Qacar Pənbək və Şoragöl ərazisini tutdu, rus qoşunlarına hücum edib, onları məğlubiyyətə uğratdı. İyun ayında müharibə başlananda qoşun başçısı kimi əsgərlərin qarşısında qısa nitq söyləyən sərdar Sarı Aslan Həsən xan and içmişdi ki, Qafqazda yaşayan din və dil qardaşlarını kafir ruslardan təmizləyəcəkdir. O, Rusiyaya qarşı bu savaşı qəzavat- "müqəddəs müharibə" adlandırmışdı.

1827-ci ildə Sarı Aslan Həsən xan Mustafa xan Şirvani və şəkili Hüseyn xanla birlikdə Tiflisin yaxınlığınadək rus qoşununu məhv etmək üçün hücuma keçdilər. Bu cəbhədə güclü müqavimətə rast gələrək ruslarla vuruşdular və ağır döyüşlərdən sonra geri çəkilməyə məcbur oldular. Rus qoşun başçılarından general Doyq 1827-ci ildə Rusiya–İran müharibəsində Sərdarabadı tutmaq üçün İrəvana hücum etdi və Həsən xanın güclü müqaviməti ilə rastlaşdı, çarəsiz qalıb, İrəvanın otuz altı kilometrliyində olan Talinə qayıtdı. Bir az sonra ruslar Üçkilsədən Həsən xanın ordusuna hücum etdilər. Bu döyüşdə xeyli rus döyüşçüsü qırıldı və əsir düşdü. Bu dəfə də Sərdar Həsən xanın qəhrəmanlığı və şücaəti onların öz məqsədlərinə çatmasına mane oldu. Onlar İrəvanın mühasirəsindən əl çəkib, Naxçıvana getməyə məcbur oldular.

1828-ci ilin sentyabrında Naibəssəltənə Abbas mirzə Həsən xanı İrəvana Sərdarabad qalasının mühafizəsi üçün göndərdi. General İ. V. Paskeviç onu mühasirəyə aldı və qala şərq tərəfdən



süquta uğradı. Həsən xan düşmənə əsir olmamaq üçün qala divarlarından kənara çıxıb, İrəvana hücum edib, düşməni qovdu. General İ. V. Paskeviç Sərdarabadı zəbt etdikdən sonra İrəvana tələsdi, on iki gün gecə - gündüz aramsız döyüşdən sonra İrəvanı tutdu. Yenilməz sərkərdə Sarı Aslan Həsən xan bu dəfə əsir düşdü. General İ.V Paskeviç Qasım xanı, Fətəli xanı, Sübhanqulu xanı, Sarı Aslanı, Mirzə Mahmud Maqsudlu Astarabadı və Həmzə xan Əzanini özü ilə Tiflisə gətirdi. Feldmarşal İ. V. Paskeviç onlarla əsir kimi yox, sərkərdələrə layiq hörmət və ehtiramla davrandı. 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsi bağlandı və onun on üçüncü maddəsinə əsasən hər iki tərəfdən olan əsirlər öz ölkələrinə qaytarıldı. O cümlədən Sərdar Həsən xan Sarı Aslan azad edildi. Sərdar Həsən xan İrana gəlib, mühüm işlərlə məşğul olmağa başladı.

1828-ci ildə Fətəli şah Qacar Sərdar Həsən xanı Xorasanda baş vermiş ixtişaşları yatırmaq üçün göndərdi. Əyalətdə ciddi nizam - intizam yaradan Sərdar Həsən xan 1830-cu ilədək orada hökuməti idarə etdi. Sonra Fətəli şah general Həsən xanı Tehrana çağırdı. Yolda Həsən xan müqəddəs yerlər olan Ətbata (İraq) getdi. Bir müddət sonra o, Tehrana gəldi.

Həsən xan 1848-ci ildən Yəzd, Kirman və Bəlucistanda hakim olur.

Rusların qənimi, məşhur Azərbaycan sərkərdəsi Həsən xan Qacar 1855-ci ildə Kirmanda ürək xəstəliyindən vəfat edib. Müqəddəs Nəcəf şəhərində dəfn olunub.

Həsən xanın Yusif xan adlı oğlu vardı.

Yusif xan İravan şəhərində dünyaya göz açmışdı. Ailə təlim-tərbiyəsi, təhsili almışdı. Orduda xidmət etmişdi. Sərtip-polkovnik rütbəsinədək yüksəlmişdi. Bir müddət Yəzdin valisi olmuşdu.

Yusif xanın Əhməd xan adlı oğlu vardı.

Əhməd xan Tehran şəhərində dünyaya pənah gətirmişdi. Ailə təlim-tərbiyəsi, təhsili almışdı. Orduda xidmət etmişdi. Muşirhüzur ləqəbi daşıyırdı.

# III FƏSIL

# HÜSEYNQULU XAN QOVANLI-QACAR

Hüseynqulu xan Əmir Məhəmməd xan oğlu 1740-cı ildə Astrabad civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Fətəli şahın qulami-xas qvardiyasının yüzbaşısı olmuşdu. Sadıq xan Şəqaqinin, Məhəmməd xan Zəndin, Nadir Mirzə Avşarın qiyamlarının yatırılmasında iştirak etmişdi. Tarixi ədəbiyyatda Hüseyn xan kimi tanınır.

Hüseynqulu xan Qovanlı-Qacar ziddiyətli şəxsiyyət kimi tanınıb. Bir çox müəlliflər onu təkəbbürli adam kimi göstərirlər. Onun bu şəxsi keyfiyyətinə toxunan A.Y.Sokolov yazırdı ki, «O, özünün təkəbbürlüyü ilə şahdan aşağı heç kimin qarşısında ayağa durmurdu, ancaq salam verməklə yaxud baş əyməklə kifayətlənirdi»[1].

Hüseynqulu xan Qovanlı-Qacar ailə təlim-tərbiyəsi, mədrəsə təhsili görsə də, rus müəllifləri onu savadslz adlandırırlar. Lakin rus mənbələri xanı savadsız adlandırsalar da, onun dövlət xadimi kimi bacarığını etiraf etmişdilər. Hüseynqulu xan savadsız olmasına baxmayaraq, ağıllı, idarəçilik bacarığı olan, hiyləgər, işgüzar bir şəxs olmuşdu[2].

Hüseynqulu xan 1800-1802-ci illərdə Qəzvinin, 1802-1807-ci illərdə Xorasanın, 1807-1827-ci illərdə İrəvanın valisi olmuşdu.

[1] Соколов А.Е. Дневные записки о путешества Российско-императорскаго посольства в Персии в 1816 и 1817 годах. Москва, 1910, 48 с.,37; Грибоедов А.С. Полное собрание сочинений А.С.Грибоедова (прозаическия статьи и переписка). Т.1, СПб, 1889, 476 с., 42.

[2] Шопен И. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,450; Кавказский сборник, т.XXVIII, Тифлис, 1908.,448.



## Hüseynqulu xan Qovanlı-Qacar 1807-1827-ci illərdə

Hüseynqulu xan Qovanlı-Qacar əldə etdiyi bütün vəzifələri bilik və bacarığına görə almışdı. Bir çox keyfiyyətlərinə görə, tez bir zamanda şahın rəğbətini qazana bilmişdi. İ.Şopen yazır ki, «nəhayət şah sarayı İrəvana sərhəd qoşun başçılarından biri Hüseynqulu xan Qacarı ildə 600 tümən, eyni zamanda xərcləri üçün xanlığın vergisindən 6000 tümən məvacib verərək onu sərdar təyin etdi. Hüseynqulu xan özünün bacarığı və cəsurluğu ilə aşağı rütbədən bu vəzifəyə yüksəlmişdi. Oxuya və yaza bilməyən bu şəxs şahın ona olan inamını qazana bilmiş və az bir vaxtda ona həvalə edilmiş əyaləti (*xanlığı - Ə.Ç.*) çiçəkləndirmişdi[1].

Əminə Pakrəvan yazır: "1807-ci ilin payızından etibarən İrəvanın elbayı (hakimi) olan Sərdar Hüseyn xan belə düşünmürdü. Çünkü İrəvan valisi üçün Osmanlı ilə savaş daha faydalı idi. Sonralar bəlli olur ki, Rusiya da İrəvan elbayını bu savaşın böyüməsinə təhrik etmiş, vədlərdə bulunmuşdur. Bu illər ərzində İrəvan elbayının imkanları böyümüşdü. Özəl strateji önəmi olan İrəvan üçün Fətəli şah da diqqət yetirməkdə idi. İrəvanın güclü olması Rusiyaya qarşı çox əhəmiyətli idi. Ruslar İrəvanda birikmiş bu savaş imkanlarını Osmanlıya qarşı kullanıb, ortadan qaldırmaq istəyirdilər. Çünkü Rusiyanın sonrakı planlarına qarşı İrəvandakı hərbi üslər təhdid ünsürü kimi görünürdü.

Hüseyn xan Qəzvində yaşayan Qacar soyunun bir boyuna mənsub idi. Lakin zəngin bir soydan deyildi. Ancaq savaş qabiliyəti yüksək olduğu üçün Ağaməhəmməd xan zamanından müxtəlif postlarda olmuş, tərəqqi etmiş və nəhayət İrəvan elbaylığına (*valiliyinə - Ə.Ç.*) qədər yüksəlmişdi. İşini qulluqçuluqdan başlayaraq genişlətmişdi"[2].

Hüseynqulu xan şah tərəfindən bu vəzifəyə təyin olunmasına baxmayaraq, özünün bacarıqlı siyasəti ilə xanlığın müstəqilliyinə

[1] Шопен И. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,167

[2] Əminə Pakrəvan, Abbas Mirzə və Azərbaycan, Bakı, "Qanun", səh. 87.

nail ola bilmişdi. «Sərdar Hüseynqulu xan (indi şahlıq edən Qacarlar nəslindəndir) bu xanlıqda (*İrəvan - Ə.Ç.*) birinci, (*İranda - Ə.Ç.*) isə üçüncü adamdır. Onun hakimiyyəti türk paşasının hakimiyyətindən daha möhkəmdir. O, çoxdan hakimiyyətdədir. Hər il bir neçə min çervon təşkil edən dövlət gəlirindən deyil, müxtəlif miqdarda hədiyyə formasında (*şah xəzinəsinə - Ə.Ç.*) bayramlıq verirdi. Torpağın yetişdirdiyi hər şeyin 1/3-ni, zarafat etsə hər uçünü almaq ixtiyarına malik idi... Nəinki daxili, eyni zamanda xarici ticarət də onun əlində idi... Məhkəmə işlərində əgər iddiaçı və cavabdehin şikayəti peyğənbərin hədisləri ilə əlaqələndirilmirdisə onun şifahi əmrləri qanun idi»[1].

Hüseynqulu xanın hakimiyyətə gəlməsi ilə İrəvan xanlığı tarixində yeni bir dövr başlamışdı. Rusiya-Qacar İranı arasında müharibənin qızışdığı bir dövrdə hakimiyyətə gəlməsinə baxmayaraq, Hüseynqulu xan tez bir zamanda görkəmli dövlət xadimi kimi özünü göstərə bilmişdi. Onun yeritdiyi daxili və xarici siyasət xanlığın möhkəmlənməsinə yönəlmişdi.

Şah tərəfindən İrəvan xanlığına hakim təyin olunmasına baxmayaraq, tezliklə, Hüseynqulu xan müstəqil daxili və xarici siyasət yeritməyə başladı. Digər tərəfdən, şah hökuməti İrəvan xanlığının geo-siyasi əhəmiyyətini gözəl anladığından onun daxili işinə qarışmırdı. Bunu təsdiq edən İ.Şopen yazır ki, «Şah hökuməti İrəvana İranı Rusiyadan ayıran həmsərhəd əyalət kimi baxdığına və müharibə olacağı təqdirdə ilk hücumun qarşısını almağı özünə borclu bildiyinə görə, bu əyana (*Hüseynqulu xan - Ə.Ç.*) tamamilə inanırdı və onun heç bir işinə qarışmırdı»[2].

Hüseynqulu xan dövlət idarəçiliyində mütləq hakim idi. Bütün feodal dövlətlərində olduğu kimi, müstəqil qanun-qərarlar verirdi və bütün hakimiyyət onun iradəsindən asılı idi. İstər dünyəvi, istərsə də dini hakimiyyətə nəzarət edir və bütün hakimləri özü

[1] Грибоедов А.С. Полное собрание сочинений А.С.Грибоедова (прозаическия статьи и переписка). Т.1, СПб, 1889, 476 с.,42.
[2] Шопен И. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,449.



təyin edirdi. O, siyasətində imtiyazlı təbəqənin mənafeyini qorusa da, xanlığın vəziyyətini nəzərə alaraq, onlarla aşağı təbəqnin arasında tarazlıq yarada bilmişdi. O, hesabat vermədən vergi toplayır, pulkəsir, öz qərarı ilə cinayətkarları gözündən, digər bədən üzvündən məhrum etməklə və öldürməklə cəzalandırır, bir sözlə mütləq hakim kimi hərəkət edirdi»[1].

Hakimiyyətdə olduğu illərdə İrəvan xanlığı tez-tez müdaxiləyə məruz qaldığından Hüseynqulu xan xanlığın müdafiə sistemini gücləndirmək üçün güclü qoşun saxlayırdı. Bunun üçün çoxlu xərc tələb olunurdu. Bu xərcin bir hissəsi daxili imkanlar hesabına olsa da, hərbi əməliyyatlar zamanı xərcin bir hissəsini şah sarayından alırdı. Bu məqama toxunan A.S.Qriboyedov yazırdı ki, «O, öz hesabına qoşun saxlayır, lakin müharibə dövründə şah sarayından pul tələb edirdi»[2].

Eyni fikiri İ.Şopen də təsdiq edərək yazırdı: «şah sarayı nəinki sərdardan vergi tələb etmirdi, sərhəd qoşunlarını, artilleriyanı, qalanı, azuqə və hərbi sursat saxlamaq üçün ona tez-tez pul buraxırdı»[3].

Əminə Pakrəvan yazır: "Hüseyn xan savaşdan yana idi. Savaşın başlaması üçün əlindən gələni edirdi. Cahangir mirzə açıqca yazır ki, "atamdan eşitdim deyirdi ki, savaşın başlamasının və torpaqlarımızın itirilməsinin səbəbkarı Hüseyn xan oldu"[4].

Müharibə dövründə Hüseynqulu xan sərkərdəlik qabliyyətinə görə xüsusilə seçilmişdi. Onun uzaqgörənliyi və tədbirliyi uzun müddət İrəvan xanlığını rus qoşunlarının işğalından qoruya bilmişdi. Onun hərbi əməliyyatlar zamanı «yandırılmış torpaq» taktikasından istifadə etməsi, ayrı-ayrı çevik dəstələr təşkil etməsi, bu dəstələrin müxtəlif istiqamətlərdən qəflətən döyüşə atılması və meydanı tərk etməsi rus qoşununda həmişə qarışıqlığa səbəb olmuşdu. Xan

[1] Шопен И. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,449
[2] Грибоедов А.С. Полное собрание сочинений А.С.Грибоедова (прозаическия статьи и переписка). Т.1, СПб, 1889, 476 с.,403
[3] Шопен И. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,449
[4] Əminə Pakrəvan, Abbas mirzə və Azərbaycan, Bakı, "Qanun", səh. 96.

dinclik dövründə isə İrəvan sərhədlərinin təhlükəsizliyindən arxayın olmaq üçün müdafiə tədbirləri görmüşdü. O, bu məqsədlə ayrı-ayrı tayfaları səhədə yaxın ərazilərə köçürərək burada hərbi məskənlər yaratmışdı. Məsələn, Hüseynqulu xan Qars paşalığı tərəfdən Şuragöl sərhəddində Qafar xanın başçılığı ilə ayrumları və taşanlıları yerləşdirmiş, Abaran sərhədini isə İsmayıl xanın başçılığı ilə seyidli və ağsaqqallılara tapşırmışdı. Pəmbək əyaləti və Qazax distansiyası ilə sərhəd xəttini İsmayıl xan və Mərdan xanın başçılığı ilə qarapapaq tayfası, Şəmşəddil distansiyası, Gəncə xanlığı və Qarabağ xanlıqları tərəfdən Göyçə mahalını Nağı xanın başçılığı ilə digər qarapapaqlılar qoruyurdu[1].

1808-ci ildə Rusiya İrəvana ikinci yürüşə başladı. Lakin yazda nəzərdə tutulmuş yürüş müəyyən səbəblərə görə bir qədər gecikdi. Nəhayət, 1808-ci ilin sentyabrın əvvəllərində rus qoşunu İrəvan sərhəddinə doğru hərəkət edərək Pəmbəkdə düşərgə saldı. Bu xəbər yerli əhalini bərk təşvişə salmışdı. Qorxuya düşən irəvanlılar kəndlərini başlıbaşına buraxaraq qalalara, əlçatmaz dağlara və Araz çayının cənubuna çəkildilər[2]. S.A.Portnyaginin 1808-ci ilin martında İ.V.Qudoviçə göndərdiyi məktubda rus qoşunlarının hücumu ərəfəsində xanlıqda baş verən hadisələri daha ətraflı təsvir etmişdi. O, əhalinin qala və dağlarda gizləndiyini qeyd edərək açıq yazırdı ki, sərhəddə yaşayan əhali İrəvan qalasına, Zəngibasar əhalisi Qaraqala qalasına, Gərnibasar əhalisi isə isə İmamverdi qalasına sığınmışdı[3]. Öz növbəsində İrəvan hakimi Hüseynqulu xan müəyyən müdafiyə tədbiri görə bilmişdi. O, İrəvanda hakimiyyətə gələn kimi, qalanın müdafiəsini gücləndirərək, Zəngi çayından başlayan qala ətrafında olan xəndəyi daha da dərinləşdirmiş və

[1] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,449-450
[2] Письмо гр. Гудовича коменданту Эриванской крепости Хасан хану, от 17-го октября 1808 года, №458, А.К.А.К, т.III, д.447, стр. 40
[3] Присоединение восточной Армении к России, сборник документов, т.1, (1801-813). Из-во Академии наук Армянской ССР. Ереван 1972, 715 с., 453-454



qalanın qarnizonunu əlavə qoşunla artırmışdı[1]. Fransız mühəndisləri buraya gəldikdən sonra İrəvan qalası Avropa qaydasılə möhkəmləndirilmişdi. Bunun şahidi olan qraf Qudoviç yazırdı: «İrəvan qalası Avropa hərbi qaydaları üzrə möhkəmləndirilmiş, iki divarı, xəndəyi və torpaqdan düzəldilmiş səddi vardı. Təpənin üstünə əvvəllər burada yerli hərbiçilər tərəfindən tətbiq edilməyən karteçlə işləyən toplar qoyulmuşdu. İrəvanlılar fuqas bombalarından istifadə edirdilər ki, bu da fransız mühəndislərinin fəaliyyətinin bəhrəsidir»[2]. İrəvan qalasının hərbi cəhətdən möhkəmləndirilməsində fransız mühəndislərindən başqa rus qoşunundan qaçmış podpolkovnik Koçnev də fəal iştirak etmişdi[3].

Bundan əlavə, Hüseynqulu xan öz əmlakının təhlükəsizliyinin də qayğısına qalmışdı. Xan mülkiyyətinin böyük və qiymətli hissəsini Xoya göndərmiş, az bir hissəsini arvadı ilə birlikdə İrəvanda saxlamışdı[4]. Bu vaxt şah qoşununun bir hissəsi İrəvan yaxınlığında Şorlu kəndində düşərgə salmışdı. Xanın əmri ilə rus qoşununun hərəkətini izləmək üçün 600 nəfərlik İrəvan süvari dəstəsi Abaran düzündə, 15 nəfərdən ibarət süvari dəstə isə Sudakənd kəndində keşik çəkirdi. Əli silah tutan yerli əhali orduya cəlb olunurdu. Hüseynqulu xan kəndlərə adamlar göndərərək silahlı qüvvə toplamağa başlamışdı. Onun 6000 silahlı süvari dəstəsi vardı. Xan maldarlıqla məşğul olan kürdləri də öz tərəfinə çəkməyə cəhd göstərdi. Lakin onların rəisi Hüseyn ağa əvvəl razılıq versə də, sonradan gözləmək mövqeyində qaldı. O, qalib gələn tərəfə qoşulmaq niyyətində idi[5]. Hətta Abbas mirzə 4000 süvari dəstə ilə Xoydan Naxçıvana gələrək burada duşərgə salmışdı. Hüseynqulu xan şahzadə ilə əlaqə yarada-

[1] Рапорть ген. л. Розена гр. Гудовичу, от 4-го декабря 1806 года, №1381. А.К.А.К., т.III, д.424, стр. 232., 326,456
[2] Всеподданнейшее донесение гр. Гудовича, от 11 декабря 1808 года, № 13. АКАК, т. III, д.467, стр, 253-256.,254
[3] Рапорть ген. л. Розена гр. Гудовичу, от 4-го декабря 1806 года, №1381. А.К.А.К., т.III, д.424, стр. 463.
[4] Рапорть ген. л. Розена гр. Гудовичу, от 4-го декабря 1806 года, №1381. А.К.А.К., т.III, д.424, стр. 462-463
[5] Рапорть ген. л. Розена гр. Гудовичу, от 4-го декабря 1806 года, №1381. А.К.А.К., т.III, д.424, стр. 453-454

raq rus qoşununun Pəmbəyə gəlməsi haqqında onu məlumatlandırmışdı[1].

Qraf Qudoviç Pəmbək və Şuragöldə lazımi qədər qüvvə saxlayaraq sentyabrın 25-də 6 minlik qoşun və 12 top ilə İrəvan qalasına doğru hərəkət etdi[2]. Başqa bir məlumata görə, rus qoşunu 240 zabit heyətindən və 7506 sıravi əsgərdən ibarət olmuşdu[3]. Rus komandanlığı şah qoşunun diqqətini İrəvandan yayındırmaq üçün Naxçıvana da hücum planı hazırlamışdı. Bu planı Qarabağda Tərtər çayı sahilində dayanmış general Nebolsin icra etməli idi. Onun sərəncamında 78 zabit və 3062 əsgər vardı.

Sentyabrın 26-da rus qoşunu dağıdılmış Abaran kəndinə gəlib çatdı. Onların hərəkətini izləyən 500 nəfərlik İrəvan dəstəsi əkin sahələrini və bir neçə kəndi yandıraraq döyüşsüz geri çəkildi. Düşmən qüvvələrinin yaxınlaşdığını eşidən Hüseynqulu xan 5000 qoşunla onları sərhəddə qarşılamağı qərara aldı. Sentyabrın 29-da Əştərək (*Qarababa - Ə.Ç.*) kəndində irəvanlılarla rus qoşununun ön dəstəsi arasında döyüş baş verdi. Döyüşdə Hüseynqulu xan məğlub olaraq qoşunu ilə geri çəkildi. Səhəri günü rus qoşunu Eçmiədzinə doğru hərəkət edərək müqavimətsiz onu ələ keçirdi. Rus qoşununa rəğbət bəsləyən ermənilər onları təntənə ilə qarşıladı[4].

Rus qoşuni ilə ilk döyüşdə məğlub olan Hüseynqulu xan İrəvan qalasına çəkilmişdi. Lakin o, burada çox ləngimədi. Rus qoşunu gələnə qədər qardaşı Həsən xanı iki minlik İrəvan qoşunu və şahzadə tərəfindən burada saxlanmış bir dəstə şah qoşunu ilə qalada saxlayaraq, qalan qoşunla Gərni çayını keçərək Vedi dərəsinə çəkildi[5].

---

[1] Рапортъ ген. л. Розена гр. Гудовичу, от 4-го декабря 1806 года, №1381. А.К.А.К., т.III, д.424, стр. 453-454

[2] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,412

[3] Дубровин Н. История войны и владычества русских на Кавказе, т.В, СПб, 1888.,20

[4] Всеподданнейшее донесение гр. Гудовича, от 29-го октября 1808 года, № 12. АКАК, т. III, д.453, стр, 243.

[5] Всеподданнейшее донесение гр. Гудовича, от 29-го октября 1808 года, № 12. АКАК, т. III, д.453, стр, 244.



Hüseynqulu xan geri çəkilərkən qoşunun sayı 2000 nəfərdən ibarət olmuşdu. O, İrəvandan 30 verst aralıda yerləşən Kiçik Vedi qalasında düşərgə salmışdı. Həmin vaxt gürcü şahzadəsi Aleksandr mirzə də da burada idi[1]. Xanın məqsədi kənardan qəfl hücumlarla rus qoşununu çaşbaş salmaqla, onların məqsədini qalanın mühasirəsindən yayındırmaq idi. Belə bir planın rus qoşunu üçün çox qorxulu olduğunu dərk edən Qudoviç general mayor Portnyagini bir dəstə qoşunla Hüseynqulu xanı təqib etməyə göndərdi. Lakin Hüseynqulu xan döyüşdən yayınaraq Arazın cənubuna çəkildi[2].

Araz çayının cənubuna çəkilən Hüseynqulu xan heç də sakit dayanmaq fikirində deyildi. O, dəstəsi ilə rus qoşununun diqqətini qaladan yayındırmaq üçün onlara qəflətən hücumlar təşkil etməkdə davam edirdi. Hətta xanın dəstəsi qalanın 10 vertliyinə qədər gəlib çatmışdı. Onun qoşunu rusların yem tədarük edən dəstələrini tez-tez narahat edirdi. Hüseynqulu xanın qəfl və ehtiyatlı hücumları rus qoşununu təngə gətirmişdi. Qraf Qudoviçin əmrinə əsasən, 15-ci yeger alayından 200 nəfər, dörd Narva draqun eskadronu və kazak dəstəsi podpolkovnik Podlutskinin başçılığı ilə Hüseynqulu xanın qoşununu təqib etməyə göndərildi. Onlara general-mayor knyaz Orbeliyaninin başçılığı ilə Qazax, Şəmşəddil və Pəmbəkdən olan azərbaycanlılardan ibarət dəstə də qoşulmuşdu. Oktyabrın 16-da səhər tezdən rus qoşunu qəflətən Gərni çayı sahilində yerləşən Avşar kəndində mövqe tutmuş Hüseynqulu xanın dəstəsinə və onunla birlikdə olan gürcü şahzadəsi Aleksandr mirzənin başçılıq etdiyi 2000 nəfərlik şah qoşununa hücum etdi. Qəflətən yaxalanmış Hüseynqulu xan qoşunu ilə vaxtında aradan çıxaraq Arazın cənubuna çəkildi. Podpolkovnik Podlutskinin qraf Qudoviçə göndərdiyi məlumatda bildirirdi ki, bu döyüşdə xanın bütün düşərgəsi, özünün mindiyi atı və yüklə dolu 50-dən çox qatırı rus qoşunun əlinə keçmişdi. Döyüşdə xanın qoşunundan 30 nəfər ölmüş, 5 nəfərə yaxın

---

[1] Рапортъ ген. л. Розена гр. Гудовичу, от 4-го декабря 1806 года, №1381. А.К.А.К., т.III, д.424, стр. 463

[2] Предложение гр. Гудовича ген. м. Ахвердову, от 25-го октября 1808 года, №464. А.К.А.К. т.III, д.450, стр.244.

adamı isə əsir düşmüşdü[1]. Lakin qraf Qudoviç Həsən xana göndərdiyi məktubda bu döyüşdə Hüseynqulu xanın qoşunundan çoxlu ölən olduğunu bildirərək, 60 qatır və 600 qiymətli yükdən ibarət qənimət ələ keçirildiyini yazırdı[2].

Hüseynqulu xanın məğlub olduqunu eşidən Fətəli şah Qacar Fərəculla xanın başçılığı ilə 5000 nəfərlik qoşunu irəvanlıların köməyinə göndərdi. Vəziyyət rus qoşunu üçün qorxulu xarakter almışdı. Qraf Qudoviç bu təhlükənin qarşısını almaq üçün general mayor Portnyagini əlavə qoşunla Podlutskinin dəstəsinə köməyə göndərdi. Qoşuna ümumi rəhbərlik etməyi Portnyaginə tapşırıldı. Lakin rus qoşunu İrəvan xanını açıq döyüşə cəlb edə bilmədi. Hüseynqulu xan rusların əsəbləri ilə oynayaraq hər dəfə açıq döyüşdən qaçırdı. Heç bir yerdə müqavimətə rast gəlməyən general-mayor Portnyagin Arazın sol sahilinə keçərək Şadlı kəndində düşərgə saldı[3].

İrəvan qalasını mühasirəyə alan rus qoşununun vəziyyəti də acınacaqlı idi. Havaların soyuması, ərzaq ehtiyatının tükənməsi və irəvanlıların güclü müqaviməti qraf Qudoviçi son dəfə qalaya irimiqyaslı hücuma keçməyə məcbur etdi. Bu hücum noyabrın 17-si saat 5-ə planlaşdırılmışdı. Baş komandanlıq qoşunu beş dəstəyə bölmüşdü. Dörd dəstə müxtəlif istiqamətlərdən qalaya qəflətən hücum etməli, Qudoviçin özünün rəhbərlik etdiyi beşinci dəstə isə ehtiyatda dayanmalı idi. Bu hücuma 4645 nəfər rus qoşunu cəlb olunmuşdu[4]. Lakin qala müdafiəçiləri rus qoşununun bu planının qarşısını vaxtında ala bildilər.

Hücuma keçən rus qoşununu güclü top atəşi ilə qarşılayan irəvanlılar onlara xeyli itki verərək geri çəkilməyə məcbur etdi.

[1] Рапортъ подполк. Подлуцкого гр. Гудовичу, от 17-го октября 1808 года. А.К.А.К., т.III, д.874, стр. 496.
[2] Письмо гр. Гудовича коменданту Эриванской крепости Хасан хану, от 17-го октября 1808 года, №458, А.К.А.К, т.III, д.447, стр. 239.
[3] Всеподданнейшее донесение гр. Гудовича, от 29-го октября 1808 года, № 12. АКАК, т. III, д.453, стр, 245.
[4] Всеподданнейшее донесение гр. Гудовича, от 11 декабря 1808 года, № 13. АКАК, т. III, д.467, стр, 253-256.



Rusların qalaya daxil olmaq üçün düzəltdikləri nərdivanlar da onların işinə yaramadı. Rus qoşununun güclü itki verdiyini görən qraf Qudoviç hücumu dayandırdı. Bu əməliyyat rus qoşunu üçün biabırçılıqla sona çatdı. Təkcə bu hücum zamanı rus qoşunundan 17 zabit və 269 əsgər olmüş, 64 zabit və 829 əsgər isə yaralanmışdı[1]. P.Butkov isə bu əməliyyat zamanı rus qoşununun 1000 nəfərə yaxın itki verdiyini qeyd etmişdi[2]. Hücumun boşa çıxması rusları ruhdan salmışdı. Çıxılmaz vəziyyətdə qalan Qudoviç İrəvandan geri çəkilməyə məcbur oldu. Noyabrın 30-da səhər tezdən rus qoşunu İrəvanın mühasirəsindən əl çəkərək geri qayıtdı. Qraf Qudoviç geri çəkilərkən general mayor Nebolsinə Naxçıvandan Gəncəyə geri çəkilməsi haqqında göstəriş verdi. Dekabrın 1-də Naxçıvanda möhkəmlənən rus qoşunu da Naxçıvanı tərk etdi[3]. Beləliklə, ikinci İrəvan yürüşü də rus qoşunu üçün müvəffəqiyyətsizliklə başa çatdı.

1809-cu ildə başlanan hərbi kompaniyada İrəvan xanlığının Qacar dövləti üçün özünəməxsus yeri vardı. Xanlığın nəinki hərbi meydan kimi, eyni zamanda şah qoşununu əlavə qüvvələrlə və ərzaqla təmin edilməsində əhəmiyyəti misilsiz idi. Bacarıqlı dövlət xadimi, sərkərdə olan Hüseynqulu xan və qardaşı Həsən xan şah qoşunu ilə birləşərək rusların sərhəd məntəqələrinə qəflətən hücumlar təşkil edərək, onlara böyük itkilər verirdi. 1809-cu il iyunun axırlarında şahın böyük oğlu Məhəmmədəli mirzə Dövlətşahın başçılığı ilə 15.000 Qacar qoşunu İrəvana gəldi. Bu qoşunun məqsədi irəvanlılarla birləşərək Pəmbək və Şuragöldə yerləşən rus sərhəd məntəqələrinə hücum etmək idi. İrəvanda bu qoşun üçün 1000 xalvar, digər xanlıqlardan isə 7000 xalvar ərzaq tədarük edilmişdi. Bundan əlavə, Hüseynqulu xan xanlığın taxıl ehtiyatını qorumaq üçün onun qonşu dövlətlərə satışını qadağan etmişdi. O, əhali

[1] Всеподданнейшее донесение гр. Гудовича, от 11 декабря 1808 года, № 13. АКАК, т. III, д.467, стр, 256.
[2] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г.г. в 3-х т. СПб., 1869., с.3,səh.390/
[3] Потто В. Утверждение русского владычества на Кавказе, т.1, Тифлис, 1901. Стр. 304-305

arasında yayılan xəstəliyi bəhanə gətirərək rusların nəzarəti altında olan Şuragöl əyalətinə taxıl ixracını dayandırdi[1].

Məğlubiyyətə baxmayaraq, Hüseynqulu xanın dəstələri tez-tez rus qoşununun işğalı altında olan ərazilərə hücumlar təşkil edirdi. Onun göstərişinə əsasən 1810-cu il iyunun əvvəllərində Nağı bəyin başçılığı altında iki minlik İrəvan qoşunu Qazax sultanlığına göndərildi. Bu yürüşdə İrəvan qoşunu çoxlu xırda və iribuynuzlu mal-qara və atlar qənimət ələ keçirməyə nail oldu. Lakin irəvanlılar bu qələbədən faydalana bilmədi. Belə ki, Qazax süvarilərinin köməyi ilə mayor Corayevin başçılığı altında bir dəstə rus qoşunu yolda ikən irəvanlılara hücum edərək qənimətin böyük əksəriyyətini geri qaytarmağa nail oldu. Qəflətən hücuma məruz qalan irəvanlılar bu toqquşmada Nağı bəyin qardaşı Həsən ağa ilə birlikdə 40 nəfərə qədər adam itirmiş, 1 nəfər isə əsir duşmuşdu[2]. Qazax yuruşundən geri qayıdan Nağı bəy tezliklə, Huseynqulu xandan Pəmbək və Şuragolə hucum etmək ucun yeni gostəriş aldı. Lakin İrəvanda naməlum səbəbdən ərzaq ambarı və artilleriyanın yerləşdiyi saray yandığına gorə bu hucum baş tutmamışdı[3].

Rus qoşununa qarşı bütün qüvvələr İrəvan xanlığı ərazisində-Abaran düzündə düşərgə salmışdı. Qoşun iki dəstəyə ayrılmışdı. Səkkiz minlik süvaridən ibarət olan birinci dəstəyə İrəvan xanı Hüseynqulu xan rəhbərlik edirdi. Şahın böyük oğlu Məhəmmədəli mirzənin rəhbərlik etdiyi ikinci dəstə isə 10.000 nəfərdən ibarət idi. Lakin şah hökumətinin planlarından xəbərdar olan rus komandanlığı bu yürüşü qabaqlamağı qərara aldı. Həmin vaxt Pəmbək və Şuragöldə yerləşən rus qoşunlarının sayı isə 18 topu olan 3889 nəfərə çatırdı[4]. Bütün qoşuna general mayor Portnyagin rəhbərlik

[1] Рапортъ полк. кн. Уракова ген. Тормасову, от 2-го июня 1809 года, №2. А.К.А.К., т.IV, д.1184, стр. 779.

[2] Предписание ген. Тормасова майору Джораеву, от 9 июля 1810 года, №553, А.К.А.К. т.IV, д.666, стр.478., 367,496

[3] Рапортъ полк. кн. Уракова, ген.м. Портнягина, от 12-го июня 1810 года, №59. А.К.А.К., т. IV, д.714, стр. 496

[4] Рапортъ ген.м. Портнягина ген. Тормасову, от 28-го июля 1810 года, №256 А.К.А.К., т.IV, д.1109, стр. 724.



edirdi. Baş komandan A.P.Tormasov şah qoşununun irimiqyaslı hücumunun qarşısını almaq üçün general mayor Portnyaginə birbaşa Abarana hücum etməyi əmr etdi. Lakin Portnyagin qüvvələrin qeyri-bərabərliyini nəzərə alaraq buna cəsarət etmədi[1].

1810-cu il avqustun əvvəllərində İrəvan xanı Hüseynqulu xan 5.000 qoşunla Osmanlı sərhəddinə doğru hərəkət etdi. Bu əməliyyatda gürcü kürd və Qara bəyin başçılığı ilə iki yüz qarapapaq dəstəsi ona qoşuldu.

Birləşmiş qüvvələr avqustun 11-də Qarsdan 20 verst aralı, Zərişad deyilən yerdə düşərgə saldı. Vədləşdikləri kimi, burada Hüseynqulu xanın dəstəsinə Qars, Bəyazid və Axalsıx paşalıqlarının qoşunları qoşulmalı idi. Lakin xan gözlənilən köməyi ala bilmədi. Burada bir neçə gün qaldıqdan sonra avqustun ortalarında onun dəstəsi Axalsıx qalasına doğru hərəkət edərək, onun yaxınlığında düşərgə saldı. Bu xəbəri eşidən general-mayor Portnyagin Şuragölü hücumdan qorumaq üçün 4 topa malik 140 draqun dəstəsi, 400 nəfərdən ibarət Saratov atıcı alayı, 100 kazak və qazaxlılardan ibarət azarbaycanlı süvari dəstəsi ilə Hamamlıdan hərəkət edərək Pəmbəklə Gümrü arasında mövqe tutdu. Lakin onun dəstəsi burada çox qala bilmədi.

Hüseynqulu xanın İmeretiya çarı Solomona kömək üçün qoşun göndərəcəyini eşidən general-mayor Portnyagin Pəmbəyi qorumağı polkovnik knyaz Urakova tapşıraraq öz dəstəsilə Arpa çayını keçərək yenidən Hamamlıya qayıdır[2].

Bu yerdəyişmədən Qacar komandanlığı istifadə etmək fikirinə düşdü. 1810-cu il avqustun axırlarında Abbas mirzə 15 topa malik 15 minlik qoşunla Naxçıvandan İrəvana gəldi[3]. Osmanlı paşalarını ruhlandırmaq və rusların diqqətini Hüseynqulu xanın qoşunundan yayındırmaq üçün şahzadənin əmrinə əsasən, Abaranda dayanmış

[1] Потто В. Утверждение русского владычества на Кавказе, т.2, Тифлис, 1902., стр.192-193

[2] Рапортъ ген.м. Портнягина ген. Тормасову, от 12-го августа 1810 года, №314. А.К.А.К., т.IV, д.1112, стр. 725. 372,736.

[3] Рапортъ полк. Асеева ген. м. маркиза Паулуччи, от 4-го сентября 1810 года, №407. А.К.А.К., т.IV, д.1127, стр. 736.

Məhəmmədəli mirzənin dəstəsi Pəmbəyə hücum etdi. Lakin knyaz Urakovun dəstəsi bu hücumun qarşısını ala bildi. Məğlub edilmiş şah qoşunu bir neçə taxıl zəmisini məhv edərək, çoxlu mal-qara qənimət ələ keçirərək yenidən Abaran düzünə qayıdır. General mayor Portnyagin öz dəstəsilə rus qoşununa köməyə gələndə, artıq şah qoşunu bu yerləri tərk etmişdi[1].

Lakin Hüseynqulu xan rus komandanlığını narahat edirdi və onun hər bir hərəkəti daima izlənilirdi. İrəvan xanı osmanlı paşalarından kömək ala bilməsə də, ruslar onun şah qoşunundan əlavə kömək almaqla daha da güclənəyəcəyindən ehtiyat edirdi. Rus komandanlığı bunun qarşısını almaq üçün oraya qoşun göndərməyi qərara aldı. Markiz Pauluççinin rəhbərliyi altında 9 və 15-ci yeger alaylarından ibarət 5 topu olan iki batalion, 200 piyada kazak dəstəsi, 100 kazak və 50 azərbaycanlı süvarisi ilə Axalsıxa göndərildi[2]. Sentyabrın 1-də markiz Pauluççu dəstəsi ilə Dmanisidən hərəkət edərək sentyabrın 3-də Axalsıx qalasından 26 verst aralı Qansu deyilən yerdə düşərgə saldı. O, tezliklə məlumat alır ki, Hüseynqulu xan buranı tərk etmək niyyətindədir. Buna imkan verməmək üçün rus qoşunu sentyabrın 5-i gecə saat 3-də polkovniklər Lisaneviçin və Peçerskinin başçılığı ilə iki dəstəyə bölünmüş rus qoşunu qəflətən Hüseynqulu xanın qoşununun yerləşdiyi düşərgəyə hücuma keçir. Yuxuda ikən yaxalanmış birləşmiş qoşunlar bu hücumdan özünü itirdi. Hüseynqulu xan və gürcü şahzadəsi Aleksandr mirzə qaranlıqdan istifadə edərək aradan çıxa bildi. Özünü itirmiş qoşunun bəzisi öldürüldü, bəzisi isə güclə qaçaraq canını qurtardı.

Lakin səhər açılanda məlum olur ki, rus qoşununun özünün vəziyyəti daha qorxuludur. Çünki gecə hücumundan qaçan qoşun bir yerə toplaşmağa başlamışdı. Onların niyyəti geri qayıdıb rus qoşununa hücum etmək idi.

---

[1] Рапортъ полк. Асеева ген. м. Портнягина, от 10-го сентября 1810 года, №427. А.К.А.К., т.IV, д.1129, стр. 738.

[2] Рапортъ полк. Асеева ген. м. маркиза Паулуччи, от 4-го сентября 1810 года, №407. А.К.А.К., т.IV, д.1127, стр. 737.



Digər tərəfdən, Axalsıx qalasından atılan top atəşləri də rus qoşununa təlafat verirdi. Buna görə də, markiz Pauliççi dəstəsi ilə Axalsıx qalasından 10 verst aralıda olan Qurma körpüyə doğru geri çəkilməli oldu. Bu döyüşdə Hüseynqulu xanın dəstəsindən 700 nəfər öldürülmüş, minə qədər at və saysız hesabsız silah, 4 bayraq ruslar tərəfindən qənimət ələ keçirildi. Rus qoşunundan isə 4 nəfər öldürülmüş, 17 nəfər isə yaralanmışdı[1].

Osmalı ərazisidən keçməklə Pəmbək və Şuragölə hücum planı boşa çıxdıqdan sora Hüseynqulu xan Abbas mirzənin qorxusundan İrəvana qayıtmağa ehtiyat etdi. O, dəstəsilə Arpaçayın Araza töküldüyü yerdə yerləşən Hacıbayramlı kəndində düşərgə saldı. Hüseynqulu xan buradan Koroğlu qalasına getmək niyyətində idi[2].

Bu vaxt Hamamlı döyüşündə məğlub olan şah qoşunu Abbas mirzənin komandanlığı altında İrəvanda mövqe tutmuşdu. Şahzadə qardaşı Məmmədəli mirzəyə qışı burada gözləməyə təklif etsə də, o bununla razılaşmır və qoşunu ilə Arazın cənubuna çəkildi. Abbas mirzə isə rus qoşununun başsız qalmış İrəvana hücum edəcəyindən ehtiyat edərək bir müddət burada qalmalı oldu. O, burada mövqe tutmasından istifadə edərək müdafiə tədbirlərinə başladı. Şahzadə ingilis mühəndislərinin köməyi ilə İrəvan qalasının müdafiəsini möhkəmlədirdi. Qalanın müdafiəsi üçün 5.000 qoşun saxladı. Hətta onların ərzaq tədarükü ilə də məşğul oldu[3]. Bundan əlavə, Abbas mirzə ehtiyat tədbirlərinə əl atdı. O, ingilis mühəndislərinin təhriki ilə İrəvana hücum edərkən qus qoşunlarının sığındıqları Eçmiədzin kilsəsinin ətraf hasarlarının sökülməsini əmr etdi. Hasarın böyük hissəsi şah qoşunu tərəfindən dağıdıldı. Lakin qışın yaxılaşması, rus

---

[1] Рапортъ полк. Асеева ген. м. маркиза Паулуччи, от 4-го сентября 1810 года, №407. А.К.А.К., т.IV, д.1127, стр. 736-737.

[2] Рапортъ ген. м. Неболъсина ген. м. Портнягина, от 28-го сентября 1810 года, №526. А.К.А.К., т.IV, д.1137, стр. 743-744.

[3] Рапортъ ген. м. Неболъсина от 7-го октября 1810 года, №526. А.К.А.К., т.IV, д.1138, стр. 744.

qoşunlarının İrəvana hücum etməyəcəyinə əmin olan şahzadə burada qalmağı məsləhət bilmədi[1].

Abbas mirzə İrəvanı tərk etməmişdən əvvəl, Hacıbayramlı kəndində dayanmış Hüseynqulu xana geri qayıtmasına icazə verdi. Ona üç dəfə xəbər yollandıqdan sonra xan İrəvana qayıtmışdı[2].

Şah qoşunları cənub istiqamətində geri çəkilsə də, İrəvan xanı rus qoşununa qarşı mübarizəni davam etdirdi. Hüseynqulu xan İrəvana qayıtdıqdan sonra da, osmanlı paşaları ilə birlikdə Şuragölə və Pəmbəyə hücum planından əl çəkmədi. O, tezliklə, Ərzurum hakimi Əmin paşa ilə əlaqə yarada bildi. Hücum planını müzakirə etmək üçün onlar arasında görüş təyin edildi. Bu görüş 1811-ci il avqustun 30-da Arpaçayın sağ sahilində yerləşən Maqizberd qalasının yaxınlığında olmalı idi. Lakin Əmin paşa buraya yaxınlaşarkən sui-qəsd nəticəsində öldürüldüyündən görüş baş tutmadı. Nəticədə Hüseynqulu xan əliboş İrəvana qayıdır[3].

1811-ci il noyabrın əvvəllərində general-mayor Lisaneviçin başçılığı altında 4 batalyon və 200 süvaridən ibarət rus qoşunu yürüşə başladı. Yürüş gizli həyata keçirilməsinə baxmayaraq, irəvanlılar bundan vaxtında xəbər tuta bildi. Bu xəbər əhali arasında bərk vahimə yaratdı. Yerli əhalinin bir hissəsi kəndlərini buraxaraq əlçatmaz dağlara sığındı, bir hissəsi isə Arazın cənubuna çəkildi. Rus qoşunu heç bir maneəyə rast gəlmədən 10 gündən sonra Abarana gəlib çatdı. Yerli İrəvan qoşunu Qarasu çayı sahilində rus qoşunu ilə kiçik toqquşmadan sonra qalaya çəkildi. Lakin general-mayor Lisaneviç yürüşü davam etdirə bilmədi. Şah qoşununun və eyni zamanda Hüseynqulu xanın dəstəsinin açıq döyüşdən qaçması general-mayor Lisaneviçi ehtiyatlı olmağa məcbur etdi. Digər tərəfdən, Hüseynqulu xan vaxt qazanmaq və xanlığı rus qoşunlarının qarətindən qurtarmaq üçün general-mayor Lisaneviçin yanına sülh

[1] Рапортъ ген. м. Неболъсина ген. м. Портнягина, от 28-го сентября 1810 года, №526. А.К.А.К., т.IV, д.1137, стр. 743-744.
[2] Рапортъ ген. м. Неболъсина от 7-го октября 1810 года, №526. А.К.А.К., т.IV, д.1138, стр. 744.
[3] Потто В. Утверждение русского владычества на Кавказе, т.2, Тифлис, 1902., стр 289



xahişi ilə adam göndərdi. Lakin qışın yaxınlaşması, yolların qarla örtülməsi, digər tərəfdən irəvanlıların güclü müqaviməti rus qoşununun geri qayıtmasına səbəb oldu. Bu yürüşdə İrəvan qoşunundan xeyli adam ölmüş və 17 nəfər əsir götürülmüşdü. Əhalinin 2 minə qədər iri və xırda buynuzlu mal-qarası qarət olunmuşdu. Bundan əlavə, rus qoşunu tərəfindən çoxlu pambıq parça, duz, düyü və digər kəndli məmulatları ələ keçirilmişdi. Rus qoşunundan da ölənlər var idi[1].

Rus qoşununun İrəvan xanlığına hücum etməklə əhali arasında vahimə yaratmaq istəyi heç bir nəticə vermədi. Çox keçmir ki, Hüseynqulu xan Şuragölə iki dəstə göndərdi. 1500 nəfərdən ibarət birinci dəstə 1812-ci il oktyabrın 6-sı səhər saat 8-də Bəykəndinə hücum etdi. Bu dəstənin məqsədi burada yerləşən rus məntəqəsinə hücum etməklə bərabər, tarlalarda işləyən əhalini əsir olmaq və mal-qaranı sürüb aparmaq idi. Lakin bundan vaxtında xəbər tutan Bəykəndində yerləşən tiflis piyada alayının mayoru Filipoviçin başçılığı ilə rus qoşunu bu hücumun qarşısını ala bildi. Güclü atəşlə qarşılanan İrəvan qoşunu 20 nəfər itki verərək geriyə çəkildi[2].

500 nəfərdən ibarət ikinci dəstə isə rus qoşunun at sürüsünün və yerli əhalinin mal-qarasının örüş yeri olan Hamamlıq yaxınlığında yerləşən dərəyə hücum etdi. Sonra həmin dəstə Saraylı dağında gizlənərək, günorta Hamamlıdan Qarakilsəyə ərzaq dalınca gedən rus dəstəsinə qəflətən hücum etdi. Lakin top atəşi nəticəsində onlar geriyə çəkildi. Bu hücumda irəvanlılar 5 nəfər itki verdi. İrəvan qoşunun tez-tez hücumlarından ehtiyat edən rus komandanlığı Şuragöl və Pəmbəkdə yerləşən rus qoşununu əlavə 1000 nəfər dəstə göndərməklə möhkəmləndirdi[3].

[1] Отношение маркиза Паулуччи к военному министру, 7-го ноября 1811 года, №41, А.К.А.К., т. V, д.172. стр.121-122., Предписание маркиза Паулуччи ген.м. Лисаневичу, от 27-го октября 1811 года, №30, А.К.А.К. т.V, д.170, стр.120.
[2] Рапортъ ген. м. Лисаневича ген. Ртищеву, от 7-го октября 1812, №1265. А.К.А.К., т.В, д.827, стр. 676.
[3] Рапортъ ген. м. Лисаневича ген. Ртищеву, от 7-го октября 1812, №1265. А.К.А.К., т.В, д.827, стр. 676.

Qacar hökumətinin yerli xanlarla birləşərək rus qoşununu Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq planı boşa çıxdı. Rusiya 1812-ci il mayın 16-da Buxarestdə Osmanlı Türkiyəsilə sülh müqaviləsi bağladıqdan sonra əsas diqqətini Cənubi Qafqaza yönəltdi[1]. Bölgədə üstünlüyü ələ keçirən rus qoşununun zərbələri altında Qacar qoşunu cənuba doğru sıxışdırıldı. 1812-ci il oktyabrın 19-20 günü baş vermiş Aslandüz döyüşü rus qoşunlarının cənuba doğru yolunu açdı[2]. Məğlubiyyətə baxmayaraq, Qacar İran dövləti itirilmiş torpaqların geri qaytarılmasına ümid edirdi. Vaxt qazanmaq üçün şah hökuməti rus komandanlığı ilə sülh danışıqlarına hazır olduğunu bildirdi. Bu danışıqlarda İrəvan xanı xüsusilə fəal idi. Şahın göstərişi ilə Hüseynqulu xan general Rtişşevə sülh xahişi ilə müraciət etmişdi. Hətta o, bu işə erməni katolikosu Yefremi də qoşmuşdu.

1812-ci ilin noyabrında Hüseynqulu xan rus qoşunlarının baş komandanı Rtişşevə (1812-ci ilin fevralı-1816) yazdığı məktubda əsirlərin dəyişdirilməsi, ticarət karvanlarının maneəsiz gediş-gəlişi şərtilə sülh danışıqlarının başlanmasını təklif etdi. Lakin rus komandanlığı Hüseynqulu xanın şah hökuməti tərəfindən sülh danışıqlarında səlahiyyətli nümayəndə təyin edilməsinə şübhə ilə yanaşırdı. Ona görə də, İrəvan xanı general Rtişşevi inandırmaq üçün ona bir neçə dəfə məktubla müraciət etmişdi.

Hüseynqulu xan eyni zamanda şah sarayı ilə də əlaqə yaradırdı. Şahın səfiri Məhəmmədvəli bəy bu məqsədlə həm İrəvanda, həm də Tiflisdə olmuşdu[3]. Lakin danışıqlar heç bir nəticə vermədi.

1813-cü il yanvarın axırlarında şahın nümayəndəsi Mirzə Şəfi Qacar İran dövlətinin sülh danışıqlarına hazır olduğunu bəyan etdi.

[1] Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории). Москва, «Наука», 1969, 287с., стр. 137-138

[2] Потто В. Утверждение русского владычества на Кавказе, т.2, Тифлис, 1902., стр. 465-467

[3] Письмо ген. Ртищева к Эриванскому сердарю Хусейн-Кули хану, от 15-го ноября 1812 года, №542, А.К.А.К, т.V, д.648, стр. 546; Письмо Хусейн хана сардар Эриванского к ген. Ртищеву, А.К.А.К, т.V, д.650, стр. 547; Письмо Хусейн хана сардаря Эриванского к ген.Ртищеву, А.К.А.К, т.V, д.651, стр. 548; Письмо Хусейн хана сардаря Эреванского к ген.Ртищеву, А.К.А.К, т.V, д.652, стр. 548; Письмо Хусейн хана сардаря Эриванского к ген.Ртищеву, А.К.А.К, т.В, д.653, стр. 548-549.



Uzun danışıqlardan sonra 1813-cü il sentyabrın 27-də Qarabağ xanlığı ərazisində, Zeyvə çayı sahilində yerləşən Gülüstan kəndində Qacar dövləti ilə Rusiya arasında sülh danışıqları başladı. Danışıqlarda şah hökuməti Mirzə Əbdülhəsən xan Şirazlı başda olmaqla

354 nəfərlə təmsil olunmuşdu. Rusiya hökuməti tərəfindən isə baş komandan Rtişşev bir qrup nümayəndə ilə iştirak edirdi. İki həftədən bir qədər çox davam edən danışıqlardan sonra oktyabrın 12-də Gülüstanda sülh müqaviləsi bağlandı[1]. Bu müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqlarından başqa bütün Şimali Azərbaycan xanlıqları Rusiya imperiyasının ərazisinə daxil edilirdi. Lakin İrəvan xanlığı müstəqil olsa da, onun bəzi əraziləri-Pəmbək, Şuragöl və vaxtilə Qarabağ xanlığı tərəfindən işğal edilmiş Göyçə gölünün şimal-şərq sahilləri Rusiyaya ilhaq edildi[2].

İrəvan xanı Hüseynqulu xan bu ərazilərin rus qoşununun işğalı altında olmasilə barışmaq istəmirdi.

1914-cü ildə Hüseynqulu xan gizlincə döyüşə hazırlaşırdı. Ona ən çox mane olan Abbas mirzə idi. Əminə Pakrəvan yazır: "Morier onu 1814-ci ildə görmüşdür. Bu zaman çox yaşlı olan İrəvan elbayı (hakimi) hələ də gənclik duyğusundan məhrum deylmiş. Hüseynqulu xan kəsinliklə Abbas mirzədən xoşlanmırdı. Şahzadənin reformları onu çox əsəbləşdirirdi. Çünkü Azərbaycandakı həyat tərzinin yaxşılaşması bir gün Fətəli şahı təhrik edə bilərdi ki, İrəvanın da yönətimini Azərbaycanla bir yerdə Abbas mirzəyə tapşırsın. Bu üzdən də Abbas mirzəyə qarşı için-için düşmənlik duyğusu bəsləməkdə idi və intiqam almaq üçün münasib fürsət axtarırdı"[3].

Əminə Pakrəvanın kitabında yanlışlıqlar olduqca çoxdur və görünür ki, şəxsiyyətləri qaralamaqdan xoşlanırmış.

Əminə Pakrəvan yazır: "Hüseynqulu xan bütün kuralları (qaydaları) görməzlikdən gələrək İrəvana gələn şahzadəni qarşılamaq yerinə xəstəliyini bəhanə edərək Arana istirahətə getmiş və əqrə-

[1] Юзефович Т. Договоры России с Востоком, политические и торговые. СПб, 1869,298 с., стр. 208-214.

[2] Потто В. Утвеждение русского владычества на Кавказе, т.2, Тифлис, 1902., стр. 507

[3] Əminə Pakrəvan, Abbas mirzə və Azərbaycan, Bakı, "Qanun", səh.67.

balarını qarşılamaya göndərmişdi. Şahzadə bu davranışın açıq bir xəyanət olduğunun fərqində idi. Lakin bu kəz də həyatın ona öyrətdiyi səbir və dözümlə məsələni böyütməmək istədi. Böyütməmək istədi, çünkü böyük bir savaş ərəfəsində qarşı durmaları basdırmaq istəyirdi. Savaşın başlanacağını Hüseyn xan da bilirdi. Hüseyn xan, Abbas mirzənin savaşdan yana olmadığını da bilirdi. Hüseyn xan çox şeyi bilirdi və bu üzdən bu şəkildə ədəbsiz davranmağa cəsarət edə bilmişdi.

Şahzadə durumu bir şəkildə düzəltmək zorunda idi. Bu üzdən də Hüseyn xanla rastlandığında öncə onun əhvalını çox ciddi şəkildə sordu. Sonra da Hüseyn xanın gözləmədiyi bir mövzudan söz açdı. Abbas mirzə bu ziyarətin səbəbini bir xeyir iş olaraq açıqladı. Vəliəhd, Hüseyn xanın qızını qardaşı oğullarından biri olan Mustafaqulu mirzəyə istədi. Şah soyu ilə qohum olmaq Hüseyn xan üçün bir imtiyaz idi. Hüseyn xan bu olaydan çox mutlu olmuşdu. Bu məsələdən sonra Azərbaycanın güvənliyi haqqında danışmağa başladılar"[1].

A.P.Yermolov 1816-cı il oktyabrın 10-da Tiflisə gəldi[2]. Tiflisə gələn A.P.Yermolov ilk növbədə hər iki ölkə arasında sərhəd xəttindəki vəziyyəti öyrənmək üçün baxış keçirmək qərarına gəldi. O, 1816-cı ilin noyabr ayında ober kvartirmeyster (*qoşunu ərzaqla təchiz edən hərbi xidmətçi - Ə.Ç.*) polkovnik İvanovu Lənkəran xanlığına, baş ştabın ştab-skapitanı Muravyovu Borçalı, Pəmbək, Şuragöl, Şəmşəddil və Qazağa göndərdi. Özü isə noyabrın 19-da əsas sərhəd məntəqələri olan Gəncə və Qarabağa yollandı. A.P.Yermolov 1816-ci il dekabrın 12-də, İvanov dekabrın 20-də, Muravyov isə 1817-ci il yanvarın 7-də Tiflisə qayıtdı[3]. Yeni baş komandanın və səlahiyyətli səfirin ilk niyyəti bu səfərdən sonra məlum oldu. A.P.Yermolov bu baxışdan sonra çara göndərdiyi məlumatda Qacar İranının tələb etdiyi əraziləri heç cür güzəştə getməyin mümkün

[1] Əminə Pakrəvan, Abbas mirzə və Azərbaycan, Bakı, "Qanun", səh. 96-97.
[2] Соколов А.Е. Дневные записки о путешества Российско- императорскаго посольства в Персии в 1816 и 1817 годах. Москва, 1910, 48 с., стр.6
[3] Соколов А.Е. Дневные записки о путешества Российско- императорскаго посольства в Персии в 1816 и 1817 годах. Москва, 1910, 48 с., стр.7



olmadığını bildirirdi. Bu məlumat feldeqerol (*hərbi və ya hökumət kuryeri - Ə.Ç.*) Lanqom tərəfindən Peterburqa göndərildi[1].

Vəziyyəti aydınlaşdırdıqdan sonra nümayəndə heyəti 1817-ci il aprel ayında Tiflisdən Tehrana yola düşdü. Səfir cənub istiqamətində-İrəvan, Naxçıvan istiqamətində getməyi qərara almışdı. Əsas məqsəd bu yerlər haqqında kəşfiyyat məlumatları toplamaq idi. «Beləliklə, Tiflisdən hərəkət edən nümayəndə heyəti aprelin 22-də Qarakilsəyə gəlib çatdı. İki gün 26-da oraya daxil oldu. Burada dincələn A.P.Yermolov Arpa çayı boyunca keçən sərhəddi müşahidə etmiş və burada yerləşən hərbi hissənin vəziyyəti ilə tanış olmuşdu. Bir neçə gün burada qaldıqdan sonra nümayəndə heyəti İrəvana doğru hərəkət edərək aprelin 30-da sərhəddi keçir. İrəvan ərazisində səfiri Təbriz sarayının pişxidməti Qulaməli bəy, Nəzərəli bəy, onun dayısı Urmiya sərkərdəsi Əsgər xan Əbdülməliki-Avşar qarşıladı. Səfarətliyi mərkəzə qədər müşayət etmək üçün onlar şah tərəfindən göndərilmişdi. Tezliklə, onlara kiçik süvari dəstəsilə İrəvan xanının kürəkəni Sübhanqulu xan da qoşuldu. O, Hüseynqulu xanın məktubunu Talında A.P.Yermolova təqdim etdi. Buradan Eçmiədzinə hərəkət edən səfir mayın 3-də İrəvan qalasına doğru hərəkət edir. Yolun yarısında İrəvan xanının qardaşı Həsən xan 6 minlik qoşunla onların qarşısına çıxdı və irəvanlılar tərəfindən təmtaraqla, müsiqi ilə qarşılandı. Beləliklə, İrəvan qoşunlarının müşayəti ilə ruslar İrəvana doğru hərəkət edirlər. Hüseynqulu xan bir neçə yaxın adamı və mühafizəçilərin müşayətilə A.P.Yermolovu qaladan 1,5 verst aralıda qarşıladı. Mayın 5-də xan şəxsən A.P.Yermolovun şərəfinə nahar da təşkil etdi[2]. Bir neçə gün İrəvanda qaldıqdan sonra mayın 7-si səhər saat 9-da nümayəndə heyəti buradan cənuba doğru hərəkət edir. Müxtəlif şəhər və kəndlərdən keçən nümayəndə heyəti iyulun 26-da şahın dincəldiyi Sültaniyə şəhərinə gəlib çatır. 1817-ci il iyulun 31-də və avqustun 3-də şahın

[1] Соколов А.Е. Дневные записки о путешества Российско- императорскаго посольства в Персии в 1816 и 1817 годах. Москва, 1910, 48 с., стр.7
[2] Соколов А.Е. Дневные записки о путешества Российско- императорскаго посольства в Персии в 1816 и 1817 годах. Москва, 1910, 48 с., стр.12-13.

qəbulunda olan səfir, avqustun 29-da geri qayıdır. O, geri qayıdarkən Təbrizdə Abbas mirzənin qonağı olmuşdu. Burada İrəvan xanı Hüseynqulu xan da iştirak etmişdi. Sentyabrın 29-da Təbrizi tərk edən səfir yenidən gəldiyi istiqamətlə hərəkət edərək Tiflisə qayıdır[1].

A.P.Yermolovun başçılığı ilə Tehrana göndərilən nümayəndə heyəti mübahisəli məsələlərin həllində şahla razılığa gələ bilmədi. Rus qoşunları Göysə gölünün şimal və şimal-şərq hissəsindəki əraziləri işğal altında saxlamaqda davam edirdi. Onlar inad göstərərək bu əraziləri boşaltmaq istəmirdi. Rus komandanlığının İrəvana məxsus torpaqların geri qaytarmaması Hüseynqulu xanın onlarla münasibətlərini pisləşdirmişdi. O, İrəvan qoşunları ilə tez-tez rus gözətçi məntəqələrinə hücumlar təşkil etməklə onlara təzyiq göstərmək istəyirdi. Ümumiyyətlə, Hüseynqulu xanın rus komandanlığı ilə münasibətləri həmişə gərgin olmuşdu. Bu gərginliyin saxlanılmasında ermənilərin də böyük rolu vardı. Onlar rus komandanlığının diqqətini İrəvan xanlığına cəlb etmək üçün müxtəlif hiylələrlə aranı qızışdırırdı. Belə ki, 1822-ci ilin yanvarında Eçmiədzin katolikosu Yefrem Hüseyinqulu xanın ağır vergi siyasətini bəhanə gətirərək Qarabağda yerləşən Gülüstana gəldi. O, burada dincələn A.P.Yermolovun qəbuluna düşməklə xandan şikayət etmək qərarına gəlmişdi. Bu ermənilərin növbəti kələyi idi. Ermənilər katolikosun vasitəsilə baş komandanın diqqətini İrəvan xanlığına yönəltmək istəyirdi. Lakin baş komandan şah hökumət ilə münasibətləri gərginləşdirməkdən ehtiyat edərək katolikosu qəbul etmədi, kilsənin pis vəziyyətə düşməsində onun özünü günahlandıraraq geri qayıtmasını məsləhət gördü. Lakin Yefrem xanın qorxusundan Eçmiədzinə qayıtmadı və 1822-ci il iyunun 20-də katolikosluqdan əl çəkdi. Bu xəbər Hüseynqulu xanı bərk qəzəbləndirdi və katolikosun geri qayıtmasını tələb etdi. Onun geri qayıtmadığını görən Hüseynqulu xan həm Eçmiədzinə, həm də sərhəddə yerləşən rus qoşunlarının gözətçi məntəqələrinə hücumlar təşkil etməyə başladı. Rus

---

[1] Соколов А.Е. Дневные записки о путешества Российско- императорскаго посольства в Персии в 1816 и 1817 годах. Москва, 1910, 48 с., стр.32-35.



komandanlığı Abbas mirzədən bu cür halların dayandırılmasını tələb etdi. Şahzadə isə cavabında bildirir ki, əksinə bizim təbəələr rus qoşunu tərəfindən talana məruz qalır. O, bunun səbəbini dəqiq sərhəddin təyin olunmamasında görürdü[1].

Hüseynqulu xanın geri çəkilməməsi və sərhəddə yerləşən rus gözətçi məntəqələrinə təzyiqlərin güclənməsi rus komandanlığını güzəştə getməyə məcbur etdi. Nəticədə, 1821-ci ildə İrəvan əhalisinə Göyçənin onlara məxsus örüş yerində mal-qara otarmağa icazə verildi[2]. Bundan əlavə, A.P.Yermolov İrəvan xanlığı tərəfindən sərhəd xəttinin təyin edilməsinə razılıq verdi. Bu məqsədlə danışıqlar aparmaq üçün Təbriz hakimi Fətəli xan şah tərəfindən Tiflisə göndərildi. Danışıqlar zamanı Rusiya tərəfi bəzi ərazilərə iddiasından əl çəkməli olmuşdu. Belə ki, rus komandanlığı nəinki Göyçə ətrafını, həmçinin Arpa çayı tərəfdən Abarana məxsus Karvansara kəndindən Şuragölə uzanan əraziləri də tələb edirdi. Fətəli xanın birinci misiyyası zamanı ruslar ikinci tələbdən əl çəkməyə məcbur olmuşdu[3].

1823-cü ildə hər iki dövlətin nümayəndələridən ibarət komissiya təşkil edildi. Rusiya tərəfindən bu komissiyaya general-mayor Yermolov və polkovnik Ağa bəy Sadıqov, İran tərəfindən isə Mirzə Məhəmmədəli Mustovfi, Hüseynqulu xan daxil idi[4]. Sərhəd xəttinin təyin edilməsində Hüseynqulu xan, onun qardaşı oğlu və kürəkəni Sübhanqulu xan xüsusilə fəallıq göstərmişdi. Bu məsələni həll etmək üçün nümayəndələr Qarakilsə kəndində və Göyçə ətrafında görüşmüşdülər. Lakin beş ay davam edən bu əməliyyat müvəffəqiyyətsizliklə başa çatdı. Rusiyanın Göyçə gölünün şimal və şimal-şərq

---

[1] Дубровин Н. История войны и владычества русских на Кавказе, т.VI, СПб, 1888., стр. 555-557

[2] Письмо ген Вельяминова к Аббас Мирзе, от 21-го октября 1825г. Кавказский сборник, т. XXI, Тифлис,1900. стр.65

[3] Письмо от сардаря эриванского к князю Севарсамидзе (к рапорту №358). Кавказский сборник, т. XXI, Тифлис,1900. стр.41-42

[4] Кавказский сборник, т.XXIV, Тифлис, 1903., стр. 1

hissələrini güzəştə getməməsi üzündən sərhəd xəttinin təyin olunması yarımçıq qaldı[1].

Qacar hökuməti birinci sərhəd xəttinin çəkilməsində mübahisəyə səbəb olan əraziləri Rusiyaya güzəştə getmişdi. Bu sənəd Hüseynqulu xanı bərk qəzəbləndirdi. O, bu ərazilərin İrəvan xanlığına məxsus olması haqqında baş komandana xüsusi məktub yazaraq narazılığını bildirmişdi. İrəvan xanı narazılığını məktubda belə ifadə edirdi: «Hər şeydən əvvəl, Rusiya hökumətinin mühəndisləri göstərirlər ki, guya Göyçə gölünün şərq sahilləri Gəncə və Qarabağ xanlıqlarının sərhədindədir.

Bilməlisiniz ki, Dərələyəzdən Eşşəkmeydana qədər ərazi, həmçinin İrəvan sərhədi sülh müqaviləsində Gəncə və Qarabağ xanlıqları ilə qarışdırılıb. Lakin əldə olunan sənədlərdə (qəbalə), həmçinin əvvəlki şahların fərman və əmrlərinə görə, Göyçənin ətrafında yerləşən torpaqlar İrəvan ağaları tərəfindən alınıb-satılırdı. Vəziyyət belədir və siz göstərirsiniz ki, guya Göyçə və Abaran sərhədinə heç bir iddianız yoxdur, Mehri və Qapanı əldə etmək istəyirsiniz. Bu məqsədlə siz bəylərbəyi Fətəli xana elan etmisiniz ki, «əgər Abbas mirzə Göyçənin şərq tərəfini bizə güzəştə gedərsə, biz də Mehri və Qapandan imtina edəcəyik». Bu məsələ həll edilməmiş qaldı.

Fətəli xan ikinci dəfə sizin yanınızda olanda, danışıqlarda Şeytanağacdan Gədikbarata qədər ərazini tələb etməklə, Gil ərazisinin bir hissəsini güzəşt edərək burada siz məntəqə yaratmaq istəyirsiniz[2]. Hüseynqulu xan nəinki, rus komandanlığına etiraz etmiş, eyni zamanda bu ərazilərin İrəvana məxsusluğu barədə şah hökumətini inandıra bilmişdi. Rus sərhəd qoşunlarının başçısı knyaz Sevarsamidze 1825-ci il avqustun 26-da general-leytenant Velyaminova göndərdiyi raportda yazırdı ki, «Sərdar İrəvana gedib, şahın razılığı ilə Abbas mirzədən Göyçənin şimal şərq sahillərinin Gildən Meydana qədər onlara qalması haqqında raqam alıb və yazır ki,

[1] Письмо от сардаря эриванского к князю Севарсамидзе (к рапорту №358). Кавказский сборник, т. XXI, Тифлис,1900. стр.7-46
[2] Письмо Хусейн хана к ген Ермолову, А.К.А.К., т.VI, ч. 1, д.1370, стр.891.



sərdar burada əhalini məskunlaşdırmağa tələssin. Sərdar oraya köçkünlər göndərməyi əmr etmişdi.

Hüseynqulu xan xüsusi təliqə verməklə mübahisəli ərazilər olan Gildən Satanağaca qədər ərazini Nağı xana, Eşşəkmeydandan Balıqçay çayına qədər ərazini İsmayıl ağaya bağışlamışdı[1]. Bu tədbirləri ilə Hüseynqulu xan sərhəd xəttində hərbi məskənlər yaratmış və bu məskənlərin rus qoşununa qarşı mübarizədə böyük köməyi olmuşdu. İrəvan xanlığı ilə bağlı məsələlərdə Hüseynqulu xan şah sarayına da təsir göstərə bilirdi. İrəvan xanı Gülüstan sülh müqaviləsindən sonra mübahisəli ərazilər məsələsində prinsipiallığı ilə fərqlənmişdi. Rusiyanın İrəvana məxsus Göyçə gölünün şimal-şərq torpaqlarını qeyri-qanuni işğal altında saxlamasına qarşı amansız mübarizsi, onun vətənpərvər şəxs olmasını bir daha sübut edir.

Hüseynqulu xan İrəvan torpaqlarının bir qarışının da güzəştə getmək fikirində olmadığını 1825-ci il martın 28-də general leytenant Velyaminovla Fətəli xan arasında sərhəd məsələlərinə dair bağladıqları akta münasibətində görmək olar[2]. Hüseynqulu xan bu akta qarşı çıxmış və rus komandanlığına məktub göndərərək bu ərazilərin İrəvan torpaqları olduğunu bildirmişdi[3]. Xan nəinki məktub göndərmiş və hətta bu əraziləri rus qoşunundan təmizləmək üçün tədbirlərə əl atmışdı. Bundan əlavə, Hüseynqulu xan şah yanında fəaliyyət göstərən müşavirələrdə həlledici səsə malik idi. O, qardaşı ilə birlikdə sülh müqaviləsinin əleyhinə çıxmış, ruslara qarşı mübarizənin tərəfdarı olmuşdu[4].

Knyaz Menşikov Tehrana göndərilməsinə baxmayaraq, müharibə labüd idi. Mirəkın rus qoşunu tərəfindən işğalı vəziyyəti daha da gərginləşdirmişdi. Rus qoşunlarının Göyçə ətrafı ərazilərdə möhkəmlənməsi Hüseynqulu xanı bərk qəzəbləndirmişdi. İrəvan xanı qoşunlarını sərhəddə cəmləşdirməyə başladı. Hətta xan səfirin xahişi ilə şahzadənin İrəvan qoşununu gölün ətrafından geri çəkmək

[1] Кавказский сборник, т.XXI, Тифлис, 1900.,52
[2] Кавказский сборник, т.XXII, Тифлис, 1901.,53-56
[3] Письмо Хусейн хана к ген Ермолову, А.К.А.К., т.VI, ч. 1, д.1370, стр.891-892.
[4] Грибоедов А.С. Полное собрание сочинений А.С.Грибоедова (прозаическия статьи и переписка). Т.1, СПб, 1889, 476 с.,562

göstərişinə də məhəl qoymamışdı. Hüseynqulu xanın Menşikov missiyasının tərkibinə daxil olan və əslən erməni Yefrem Kovalevə verdiyi cavab onun bu məsələdə qəti mövqeyinin bariz nümunəsidir. Hüseyinqulu xan demişdi: «Mən təəccüb edirəm ki, rus səfiri bir tərəfdən Nikolay Pavloviçi imperator kimi tanımasını xahiş edərək özü ilə çoxlu hədiyyə aparır, digər tərəfdən isə rus qoşunu bizim sərhəddi işğal edib. Mən şahzadənin göstərişini eşitmək istəmirəm. Əgər ruslar qoşunu geri çəkməsələr, burada duran qulluqçularımdan birini Tiflis qubernatoru, ikincisini komendant, üçüncüsünü isə polismeyester təyin edərəm»[1].

Beləliklə, Menşikovun missiyası da heç bir nəticə vermədi. Hər iki tərəfin güzətə getməməsi müharibənin qaçılmaz olduğunu bir daha göstərdi. Digər tərəfdən belə gərgin vəziyyətdə rus qoşununun Mirək kəndini işğal etməsi hər iki tərəf arasında olan münasibəti daha da ağırlaşdırmışdı. Rusların hiyləgər hərəkətindən bezmiş şah sarayı ilk olaraq hərbi əməliyyatlara başladı. 1826-cı il iyulun 19-da Abbas mirzənin komandanlığı ilə 60 minlik şah ordusu Rusiya işğalı altında olan Azərbaycanın şimal hissəsinə hücum etdi[2]. Beləliklə, ikinci Rusiya-İran müharibəsi başladı.

İrəvan torpaqlarını geri qaytarmaq üçün Hüseynqulu xan Rusiya ilə Qacar İranı arasında başlayan hərbi əməliyyatlardan yararlanmaq qərarına gəldi. 1826-cı il iyulun ortalarında İrəvan qoşunu dörd istiqamətdə Şuragöl və Pəmbəyə yürüşə başladı. Bu zaman İrəvan qoşunlarının sərhəddə düzümü belə idi: Hüseynqulu xanın başçılığı ilə 6 topa malik 2 batalion, 3000 süvari dəstə Mirəkdə, İrəvan xanının qardaşı Həsən xanın başçılığı ilə 5000 nəfərlik qoşun Gümrü istiqamətində, 1000 nəfərə yaxın digər dəstə isə Göyçə gölü ətrafında cəmləşmişdi[3].

---

[1] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,23

[2] Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории). Москва, «Наука», 1969, 287с.,165-166.

[3] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 1795 (3), vər. 470



İlk yürüş 1826-cı il iyulun 16-da səhər tezdən başladı. Hüseynqulu xanın başçılığı ilə 5 min nəfərlik İrəvan qoşunu Mirək kəndində yerləşən rus gözətçi məntəqəsinə hücum etdi. Həmin vaxt kənddə polkovnik knyaz Sevarsamidzenin başçılığı ilə 3 topa malik 650 nəfərdən ibarət rus qoşunu var idi. İrəvanlıların qəfl hücumu polkovniki çaşdırdı. O, vaxt qazanmaq üçün bir ermənini məktubla xanın yanına göndərərək, ondan bu hücumu dayandırmağı xahiş etdi. Lakin elçiyə xəbər verilir ki, xan knyazla danışıq aparmağa ehtiyac bilmir və onun özünü məhv etmək niyyətindədir. Hüseynqulu xan Sevarsamidzeni öldürənə 3 min çervon miqdarında mükafat təyin etmişdi. İrəli atılan İrəvan süvariləri ilk hücumda 9 kazakı əsir götürdü. Hüseynqulu xan rusların Gümrü ilə əlaqəsini kəsməklə onları məhv etmək niyyətində idi. Lakin knyaz xanın bu niyyətini başa düşərək düşərgəni tərk etmək qərarına gəldi. Beləliklə, o, İrəvan qoşununun təqibi altında qoşunla Gümrüyə gəlib çatdı[1]. Bu hücumda xeyli rus əsgəri öldürüldü, rus alayına məxsus 450 at və ruslara sığınmış 200 erməni ailəsi irəvanlılar tərəfindən ələ keçirildi[2].

Çox qısa vaxt ərzində Hüseynqulu xanın qoşunu Gümrü və Böyük Qarakilsəni çıxmaqla, sərhəd boyu bütün rus gözətçi məntəqələrini ələ keçirdi. Lakin Hüseynqulu xan bu qələbəni axıra çatdıra bilmədi. Belə ki, İrəvan xanı Göyçə ətrafında dayanaraq Abbas mirzəni gözləməyə başladı. Şahzadə 1826-cı il iyulun 19-da güclü qoşunla Cənubi Qafqaza hücum etmişdi. O, Gəncəni geri alacağı təqdirdə Hüseynqulu xan qoşunu ilə onunla birləşərək Tiflisə yürüş etməli idi. Göyçə ətrafında şah qoşununu gözləmək xanın bağışlanılmaz səhvi idi. Digər tərəfdən rus gözətçi məntəqələrini mühasirəyə alan ayrı-ayrı İrəvan qoşunu arasında əlaqə yox idi. Bundan istifadə edən rus dəstələri isə itki verməsinə baxmayaraq birləşə bilmişdi.

---

[1] Всеподданнейший рапортъ ген. Ермолова, от 22-го июля 1826 года, АКАК, т. VI, ч.2 д.648, стр, 355.

[2] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 1795 (3), vər. 470

İrəvan qoşununun bütün sərhəd boyu hücuma keçməsi sərhəddə yerləşən rus qoşununu pis vəziyyətə saldı. Bu xəbəri alan A.P.Yermolov knyaz Sevarsamidzeyə nəyin bahasına olur olsun Pəmbək və Göyçəyə gedən yol üzərində yerləşən Böyük Qarakilsə kəndini əldə saxlamasını əmr etdi. Bu əmri alan knyaz iyulun 18-də Gümrüdə polkovnik baron Fridriksin başçılığı ilə 4 topa malik 700 nəfər dəstə, bundan əlavə Bəykəndində, Hamamlıda, Cəlaloğlunda və Balıqçayda kiçik dəstələr yerləşdirərək Böyük Qarakilsə kəndinə doğru hərəkət etdi. Rus qoşununun bir hissəsinin Gümirüdən getməsi irəvanlıları daha da ruhlandırdı. Onlar Gümrünü sıx mühasirəyə aldılar. İrəvanlılar hər tərəfdən ərzaq gələn yolları bağlamışdı.

İrəvan qoşununun güclü təzyiqi altında acınacaqlı vəziyyətə düşən rus qoşunu baron Fridriksin əmri ilə Böyük Qarakilsəyə geri çəkilməyə məcbur oldu. Geri çəkilərkən Bəykəndində və Hamamlıda yerləşən dəstələr də onlara qoşuldu[1].

1826-cı ildə İrəvan hakimi Hüseynqulu xan Qovanlı-Qacarın başçılığı ilə digər bir dəstə Göyçə gölünü dolanmaqla Şəmşəddil mahalına doğru hərəkət edərək, Zəyəm çayı sahilində yerləşən yüksəklikdə düşərgə salmışdı. İrəvan xanı Carda yerləşən gürcü şahzadəsi Aleksandrın və Şəki xanının qüvvələri ilə birləşərək buradan Kaxetiyaya hücum etmək niyyətində idi[2]. Zəyəm çayı ətrafında dayanan Hüseynqulu xan vəziyyətdən istifadə edərək Şəmşəddil, Borçalı və Qazax əhalisinə məktub göndərərək onları rus qoşununa qarşı mübarizəyə çağırırdı[3].

Rus komandanlığı Hüseynqulu xanın xalq arasında nüfuzunun artmasından qorxaraq və onun hərəkətinin təhlükəli olduğunu başa düşərək əks-tədbirlər görməli oldu. 1826-cı il sentyabrın 12-də A.P.Yermolov 2 bataliyon, 12 top və 400 kazak dəstəsi ilə Qazax və Şəmşəddilə doğru hərəkət etdi. Qeyd etmək lazımdır ki, 1826-cı il

---

[1] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 1795 (3), vər. 470
[2] Всеподданнейший рапортъ ген. Ермолова, от 17-го сентября 1826 года, АКАК, т. VII, ч.2 д.687, стр, 379.
[3] Всеподданнейший рапортъ ген. Ермолова, от 12-го сентября 1826 года, АКАК, т. VI, ч.2 д.681, стр, 375- 376.,375



sentyabrın 13-də Abbas mirzənin başçılığı ilə şah qoşunu və Paskeviçin başçılığı ilə rus qoşunu Gəncə ətrafında üz-üzə gəlmişdi. Bu döyüşdə şahzadə məğlub olaraq cənuba doğru çəkilmişdi[1]. Bu xəbəri və eyni zamanda A.P.Yermolovun güclü qoşunla Həsənsu çayına yaxınlaşdığını eşidən Hüseynqulu xan rus qoşunu ilə toqquşmadan ehtiyat edərək əvvəl Göyçə ətrafına, sonra isə İrəvan qalasına çəkildi.

Hacı Murad İbrahimbəyli əsərində guya rus qoşunu ilə irəvanlılar arasında döyüş olduğunu və bu döyüşdə İrəvan qoşununun məğlubiyyətə uğradığını qeyd edir[2]. Əslində Hüseynqulu xan rus qoşunu ilə qarşılaşmaqdan ehtiyat edərək döyüşsüz geri çəkilmişdi. Lakin A.P.Yermolov İrəvan xanının geri çəkilməsindən və əhalinin qorxmasından istifadə edə bilmədi. O, 1826-cı il sentyabrın 17-də çara yazdığı məlumatda bunun səbəbini belə izah edirdi: «Mən ərzaq və atların çatışmamasından, qışın yaxınlaşmasından, xüsusilə, düşmənin güclü qarnizona malik İrəvan və Sərdarabad kimi möhkəm qalalara sığınmasından ehtiyat edərək bu hadisədən istifadə etmədim..»[3]

Qısa vaxt ərzində Pəmbək və Şuragölün İrəvan qoşunu tərəfindən azad edilməsi, rusların işğalı altında olan ərazilərə müdaxiləsi Rusiya hakim dairələrini ciddi təşvişə salmışdı. Digər tərəfdən, knyaz Menşikovun başçılığı ilə şah sarayına göndərilmiş nümayəndə heyətinin İrəvanda Hüseynqulu xan tərəfindən tutulub saxlanması Rusiya hakim dairələrini qəzəbləndirmişdi. Bu nümayəndə heyəti Rusiya ilə Qacar İran dövləti arasında mübahisəli sərhəd məsələlərini həll etmək üçün 1826-cı ilin aprelində Tehrana göndərilmişdi. Geri qayıdarkən knyaz Menşikov İrəvandan keçməli olmuşdu. Hüseynqulu xan knyazı və onun adamlarını altı həftəyə

---

[1] Всеподданнейший рапортъ ген. Ермолова, от 30-го сентября 1826 года, АКАК, т. VI, ч.2 д.690, стр, 380-381., Mirzə Adıgözəl bəy.Qarabağnamə. Qarabağnamələr, I kitab, Bakı, Yazıçı,1989, səh.5-102., səh.83
[2] Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории). Москва, «Наука», 1969, 287с.,194.
[3] Щербатов. Генерал-фельдмаршал княз Паскевич, его жизнъ и деятелъност. т.II, СПб, 1890.,86-87

qədər İrəvanda tutub saxlamışdı. Səfirin İrəvanda tutulub saxlanılması haqqında müxtəlif səbəblər göstərilirdi. Lakin bu səbəblər arasında ən inandırıcısı, Hüseynqulu xanın İrəvan qoşunları tərəfindən tutulmuş ərazilərin səfir tərəfindən tanınmasına nail olmaq istəyi idi[1]. Səfarətliyin İrəvanda saxlanılması Rusiya hökumətinin ciddi narazılığına səbəb olmuşdu. Səfirin azad edilməsi üçün ingilis nümayəndələri, şahzadə Abbas mirzə və Allahyar xan Dəvəli-Qacar da Hüseyinqulu xana müraciət etmişdi. Məhz onların işə müdaxiləsi nəticəsində Rusiya nümayəndə heyəti azad edilmişdi[2].

Hüseynqulu xanın rus qoşununa qarşı mübarizədə müvəffəqiyyətli addımlarını görən çar I Nikolay İrəvan xanlığını işğal etmək üçün 1826-cı il avqustun 1-də A.P.Yermolova xüsusi fərman göndərdi. O yazırdı ki, «tezliklə sizdən sərdar yoxdur və İrəvan əyalətinin (*xanlığı - Ə.Ç.*) rus qoşunu tərəfindən tutulması xəbərini gözləyirəm»[3]. Lakin baş komandan çarın bu fərmanını icra edə bilmədi. Bunun bir neçə səbəbi var idi. Əvvələ, hərbi kompaniya başlanandan yerli əhalinin köməy ilə şah qoşunları rusları Şimali Azərbaycan xanlıqlarından müvəqqəti sıxışdırıb çıxara bilmişdi. Baş komandan bu xanlıqları geri qaytarmadan İrəvana hücum etmək niyyətində deyildi. O, şah qoşununu qəti zərbə vurmaqla məhv etmək istəyirdi. Mənbənin verdiyi məlumata görə, «Yermolov Abbas mirzənin əsas qüvvələri ilə qəti döyüşə girməyərək, vəziyyətə uyğun hərəkət etmək niyyətində idi. O, şahzadənin diqqətini Şuşadan yayındıraraq onu ölkənin içərilərinə çəkməyə cəhd edirdi və əlavə kömək gəldikdən sonra düşmənə qəti zərbə vurmaq istəyirdi»[4]. Digər tərəfdən, A.P.Yermolov Hüseynqulu xanı özünə ciddi rəqib sayırdı. O yaxşı bilirdi ki, bacarıqlı sərkərdə olan İrəvan xanı

[1] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,26-27

[2] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,26-28

[3] Всеподданнейший рапортъ ген. Ермолова, от 22-го июля 1826 года, АКАК, т. VI, ч.2 д.648, стр, 356; Дубровин Н. История войны и владычества русских на Кавказе, т.VI, СПб, 1888, 642-643

[4] Кавказский сборник, т.1, Тифлис, 1876.,25



İrəvan və Sərdarabad kimi güclü, möhkəmləndirilmiş qalalara malikdir. Onda olan məlumata görə, xan və onun adamları hər iki qalanı güclü qarnizonla, ərzaqla təmin edərək uzunmüddətli mühasirəyə hazırlaşmışdı. Vəziyyəti real qiymətləndirən baş komandan başa düşürdü ki, İrəvan xanlığını işğal etmək üçün sursat və ərzaqla təmin olunmuş güclü qoşun lazımdır. Buna görə də, A.P.Yermolov İrəvan xanlığına hücumu 1827-ci ilin yazına kimi təxirə salmağı qərara almışdı[1].

Müharibənin ilk aylarında ağır məğlubiyyətə uğrayan rus qoşunu çox keçmədi ki, bölgədə hərbi üstünlüyü ələ ala bildi. 1827-ci ilin əvvəllərində Şimali Azərbaycan xanlıqları yenidən rus qoşununun əlinə keçdi. Lakin baş komandan A.P.Yermolov bu qələbələri davam etdirə bilmədi. Çarın fərmanı ilə o, vəzifəsindən uzaqlaşdırıldı. Hadisələrin canlı şahidi olan hərbiçinin yazdığına görə, «Yermolov yüksək rütbəli əyanlarla münasibətdə güzəştə getmirdi və kobud idi. Öz inamını onlara sərt yazır və deyirdi, tez-tez çar sarayı baxışları ilə fikir ayrılığı olurdu[2]. Çarın göstərişlərini ləng yerinə yetirməsi, hərbi əməliyyatlar üçün mərkəzdə tərtib olunmuş layihələri qəbul etməməsi, general-adyutant Paskeviç və baş qərargah rəisi general-adyutant Dibiç kimi sərkərdələrlə yola getməməsi onun baş komandan fəaliyyətinə son qoydu[3].

1827-ci ilin aprelin əvvəllərində Paskeviçin əmri ilə rus qoşunlarının ön dəstəsi general Benkendorfun komandanlığı altında erməni arxiyepiskopu Nersesin müşayəti ilə Borçalıdan İrəvana doğru hərəkətə başladı[4]. Beləliklə, rus qoşunları İrəvan xanlığına üçüncü dəfə genişmiqyaslı hücuma keçdi. Aprelin 13-də heç bir müqavimətə rast gəlməyən rus qoşunu Eçmiədzin kilsəsinə gəlib

[1] Всеподданнейший рапортъ ген. Ермолова, от 17-го сентября 1826 года, АКАК, т. VI, ч.2 д.687, стр, 379.,379

[2] Кавказский сборник, т.1, Тифлис, 1876.,8

[3] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,274-281

[4] Отношение ген. Паскевича к гр. Нессельроде, от 27-го июн 1827 года. А.К.А.К., т. VII, д. 511, стр.547.

çatdı. Onlar burada ermənilər tərəfindən təntənə ilə qarşılandı və şərəflərinə ziyafət verildi[1].

Bacarıqlı, uzaqgörən sərkərdə olan Hüseynqulu xan rus qoşunlarının tezliklə İrəvan xanlığına hücum edəcəyini bildiyindən əvvəldən müdafiə hazırlığı görmüşdü. İrəvan qalası daha da möhkəmləndirilmişdi. Bu məqsədlə ingilis mühəndislərinin məsləhətlərindən də istifadə edilmişdi[2]. Xanın əmri ilə bütün taxıl ehtiyatı kəndlərdən qalaya daşınmışdı. Qala qarnizonu daha da gücləndirilmişdi. Dövrün məlumatına görə, təkcə İrəvan qalasında olan qarnizonun sayı 5000-ə çatırdı. Qalada 26 top yerləşdirilmişdi[3]. Yerli əhalinin bir hissəsi Arazın cənubuna köçürülmüş, bir hissəsi əlçatmaz dağlara çəkilmiş, digər hissəsi isə qalalara sığınmışdı. Xüsusilə, Qırxbulaq və Göyçə mahallarının əhalisi kütləvi surətdə Arazın cənubuna köçmüşdülər[4]. Məlumata görə, təkcə İrəvan qalasına 18 min sakin köçürülmüşdü[5].

Məhz bu səbəbdən rus qoşununun kəndlərdən ərzaq toplamaq cəhdi heç bir nəticə vermədi. Digər tərəfdən ayrı-ayrı çevik dəstələrə bölünmüş İrəvan qoşunu Benkendorfun dəstəsinə qəfl hücumlar edərək onlara itkilər verirdi[6].

Erməni əhalisinin xəyanətini dərk edən Hüseynqulu xan Eçmiədzin kilsəsinə qarşı müəyyən tədbirlər görmüşdü. Rus qoşunu gələnə qədər kilsədə 400 nəfərdən ibarət qarnizon yerləşdirilmişdi. Lakin bu qüvvələr sonradan geri çəkilmişdi. Digər tərəfdən kilsədə bir neçə nəfər arximandr və rahib saxlanılmış, qalanları qalaya

[1] Грибоедов А.С. Полное собрание сочинений А.С.Грибоедова (прозаическия статьи и переписка). Т.1, СПб, 1889, 476 с.,113.
[2] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 7747 (1), vər. 173
[3] Коцебу М.Е. Записки. Описание в Грузию в 1826г. «Кавказский сборник», т.XXII, стр.28
[4] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 7747 (1), vər. 176
[5] Щербатов. Генерал-фельдмаршал княз Паскевич, его жизнь и деятельност. т.II, СПб, 1890., 322
[6] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,300-301



göndərilmişdı. Erməni din xadimlərindən çox az hissəsi qaça bilmişdi. Kilsədə olan bütün ərzaq ehtiyatı qalaya daşınmış, ətrafda yerləşən erməni kəndləri isə tamamilə qarət olunmuşdu[1]. Bundan əlavə, Hüseynqulu xan kömək üçün şah sarayına da müraciət etmişdi. Əvvəlcə şah hökuməti İrəvan qalasını müdafiə etmək üçün hərbi qüvvə göndərməyi qərara almışdı. Lakin Qacar komandanlığının rus qoşunlarının hücum istiqaməti haqqında məlumatı olmadığından, bütün qüvvələrin bir istiqamətdə cəmləşməsinin əleyhinə olaraq kömək göndərməmişdi[2]. Beləliklə, irəvanlılar xanlığı öz qüvvələri hesabına qorumağa qərara aldı.

General Benkendorfun dəstəsi İrəvan qalasına hücum etməyi qərara aldı. Qalanı mühasirə etmək niyyətində olan rus qoşunu müxtəlif dəstələrə bölünüb, aprelin 24-də Zəngi çayını keçərək cənub şərq istiqamətində yürüşə başladı. Bu xəbəri eşidən irəvanlılar rus qoşununun hücumunun qarşısını yolda ikən kəsməyi qərara aldı. Aprelin 24-də qaladan çıxan 500 nəfərlik süvari dəstə rus qoşununa doğru hərəkətə başlayır. Tərəflər İrəvana yaxın kəndlərdə üz-üzə gəldi. İrəvan süvarilərinin inadla döyüşməsinə baxmayaraq, daha yaxşı silahlanmış iki gürcü qrenadyor alayı onları geri çəkilməyə məcbur etdi. Qalaya yaxınlaşan bu alay onun cənub şərqində yerləşən «Müxənnət təpə» adlanan kurqanı ələ keçirdi. Lakin qala müdafiəçiləri onları güclü top atəşinə tutmaqda davam edirdi.

Hüseynqulu xan rus qoşunlarının irəlilədiyini görərək qalanın cənub və şərq qapıları tərəfində yerləşən bağları əldə saxlamaq üçün piyada və süvarilərdən ibarət iki sərbaz bataliyonunu oraya göndərdi. Əhalinin mülkləri burada yerləşdiyindən bu bağları əldə saxlamaq İrəvan qoşunu üçün çox vacib idi. Lakin rus qoşunu irəvanlıları buradan sıxışdırıb çıxarmaq üçün hücuma keçdi. Döyüş nəticəsində bağlar İrəvan qoşunundan təmizləndi. Məğlub olmuş piyada qoşun yenidən İrəvan qalasına sığınır, süvarilər isə Naxçıvan

[1] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 7747 (1), vər. 216-217; Щербатов. Генерал-фельдмаршал княз Паскевич, его жизнь и деятельност. т.II, СПб, 1890., 233
[2] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 7747 (1), vər. 616

yolu ilə geri çəkildi. General Benkendorf iki karabiner alayını «Müxənnət təpə»sində, gürcü alayını isə bağlarda yerləşdirərək, özü digər dəstələrlə qalanın cənub hissəsində düşərgə saldı[1].

İrəvan qalası hər tərəfdən mühasirəyə alınmasına baxmayaraq, irəvanlılar güclü müdafiə olunurdu. Onların inadkarlığını görən general Benkendorf Hüseynqulu xanla və qala rəisi Sübhanqulu xanla danışıqlara girməyə məcbur oldu. V. Umudlu əsərində danışıqların Həsən xanla getdiyini qeyd edir[2]. Lakin bu vaxt Həsən xan qalada deyildi və qalanın rəisi Hüseynqulu xanın qardaşı oğlu və kürəkəni Sübhanqulu xan idi[3]. Əvvəlcə general Benkendorf xanı pulla ələ almaq niyyətində idi. Lakin bunun mənasız olduğunu başa düşən general ona şirnikləndirici təklif etdi. O, rus komandanlığı adından söz verirdi ki, əgər Hüseynqulu xan qalanı könüllü təslim etsə, Rusiya hökuməti onu vəzifəsində saxlayacaq və əvvəlki gəliri özündə qalacaqdır. Lakin İrəvan xanı rus qoşununu ağır vəziyyətdən çıxarmaq üçün generalın danışıqlar aparmaqla vaxt qazanmaq niyyətində olduğunu başa düşürdü. Xan qalanı mühasirəyə alan rus qoşununun aclıqdan əziyyət çəkdiyindən xəbərdar idi. Onda olan məlumata görə, qoşun ərzaqsız idi və bitki kökləri ilə dolanırdı. Belə bir vəziyyətdə, Hüseynqulu xan rusların heç bir təklifini qəbul etmədi. Hətta qala rəisi ilə danışıqlar da nəticəsiz qaldı[4]. Mühasirə uzansa da, qala müdafiəçiləri rus gözətçi məntəqəsinə tez-tez hücumlar təşkil etməkdə davam edirdi. Aprelin 29-dan 30-a keçən gecə İrəvan süvari dəstəsi Zəngi çayından keçən körpünü qoruyan rus gözətçi dəstəsinə qəflətən hücum etdi. Lakin rus toplarının

---

[1] Щербатов. Генерал-фельдмаршал княз Паскевич, его жизнъ и деятелъност. т.II, СПб, 1890.,,,256; Потто В. Кавказская война в отделъных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,308

[2] Umudlu V. Şimali Azərbaycanın car Rusiyası tərəfindən işğalı və mustəmləkəcilik əleyhinə mubarizə (1801-1828). Bakı, «Elm», 2004, 184 səh.,166

[3] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA): f.288, siyahı 1, İş 1,2; Потто В. Кавказская война в отделъных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,309

[4] Потто В. Кавказская война в отделъных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,311



köməyi ilə hücum müvəffəqiyyətsizliyə uğradı və irəvanlılar yenidən qalaya qayıtdı[1].

İrəvana gələn baş komandan Paskeviç Benkendorfun dəstəsini ağır vəziyyətdə gördü. O, bütün artilleriyanı İrəvan qalası ətrafına göndərdi. Sonra qala rəisi ilə danışıqlara cəhd etdi. Lakin Hüseynqulu xan qala rəisilə danışıqların mənasız olduğunu bildirərək Paskeviçə yazırdı: «Əgər Paskeviç rəislə qalanı təslim etmək məqsədilə danışıq aparırsa bu mənasızdır, belə ki, buranın xanı olan mən qərara almışam ki, (*qalanı - Ə.Ç.*) təslim etməyim»[2].

İrəvan xanı kiçik qarnizonla müdafiə olunan Eçmiədzin kilsəsini ələ keçirmək niyyətinə düşdü. İyulun 2-də xanın başçılığı ilə 4 min süvari, 2 piyada sərbaz batalyonu, 6 topla Eçmiədzinə doğru hərəkət edərək onu mühasirəyə aldı[3].

Hüseynqulu xan ilk əvvəl kilsəni könüllü təslim etmək üçün qarnizon rəisi Lindenfeldə məktub göndərərək bildirir ki, rus qoşunu artıq Gürcüstana geri qayıdıb və qarnizon heç bir yerdən kömək gözləməsin. Arxiyepiskop Nersesə inanmasınlar, çünki o, yalançıdır. Xan onların təhlükəsizliyinə zəmanət verir, qarnizonun istənilən tərəfə sərbəst geri çəkilməsini təklif edirdi. Müqavimət göstəriləcəyi halda kilsə güclə tutulacaq, onda heç kimə aman verilməyəcəkdir[4]. Lakin qarnizon rəisi xanın könüllü təslim olmaq tələbini rədd etdi[5].

Mənfi cavab alan Hüseynqulu xan kilsənin ətraf aləmlə əlaqəsini kəsmək üçün bütün yol və cığırları nəzarətə götürdü. Bu xəbəri eşidən general-leytenant Krasovski iyulun 3-də 1200 nəfərdən ibarət Krım batalyonu, 40-cı yeger alayı, 300 kazak dəstəsi və 4

---

[1] Потто В. Кавказская война в отделъных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,311

[2] Потто В. Кавказская война в отделъных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,332

[3] Дневник генерала Красовского. 1826-1828г.г. см. «Кавказский сборник», т.XXII, Тифлис, 1901, стр.7.

[4] Потто В. Кавказская война в отделъных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,454

[5] Дневник генерала Красовского. 1826-1828г.г. см. «Кавказский сборник», т.XXII, Тифлис, 1901, стр.7.

topla Eçmiədzinə doğru hərəkət etdi. Rus qoşununun yaxınlaşdığını eşidən Hyseynqulu xan mühasirəni götürərək yenidən İrəvan qalasına çəkildi. General Krasovski bir gün burada qaldıqdan sonra yenidən Cəngi kəndinə qayıtdı[1].

Hüseynqulu xan mühasirəni götürüb, İrəvan qalasına çəkilsə də, sakit dayanmadı. Avqustun 1-də onun başçılığı ilə süvari və piyadadan ibarət 4 min qoşun, 6 topla Uşaqan kəndi yaxınlığında Eçmiədzindən Cəngi kəndinə hərəkət edən, xəstələrlə dolu rusların yük arabalarına hücum edərək, onlara itki verdi. Lakin o, general-leytenant Krasovskinin əlavə qoşunla köməyə gəldiyini eşidərək yenidən İrəvan qalasına qayıdır[2].

Öz qüvvəsinə arxayın olmayan Hüseynqulu xan Abbas mirzə ilə əlaqə yaratmaq qərarına gəldi. O, şahzadənin diqqətini İrəvana yönəltmək üçün ona şirnikləndirici məktub yazdı. Məktubun məzmunu belə idi: «İrəvan mühasirədən azad edilib, rus qoşunu dağlara sıxışdırılıb. Onların dəstəsi çox az və dağınıqdır. İndi Eçmiədzini tutmaqdan, Bozabdal dağları ilə hərəkət edən mühasirə toplarını əldə etməkdən, Krasovskini məhv edərək Gürcüstana yol açmaqdan asan heç nə yoxdur»[3]. Hüseynqulu xanın məktubu Abbas mirzəyə böyük təsir göstərdi. O, Krasovskinin dəstəsini məğlub edərək Tiflisə yol açmaqla Paskeviçin başçılığı ilə rus qoşunlarının Təbrizə hücum planını pozmaq niyyətinə düşdü. Abbas mirzə 10 min piyada, 15 min süvari və 24 topla qəflətən İrəvan xanlığına doğru hərəkət edərək avqustun 4-də Eçmiədzin kilsəsindən 15 verst aralıda gecələmək üçün dayandı. Bir neçə gün burada qaldıqdan sonra şah qoşunu Qarasu çayını keçərək Alagöz dağının ətəyində

---

[1] Дневник генерала Красовского. 1826-1828г.г. см. «Кавказский сборник», т.XXII, Тифлис, 1901, стр.7.
[2] Дневник генерала Красовского. 1826-1828г.г. см. «Кавказский сборник», т.XXII, Тифлис, 1901, стр.8.
[3] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,456



yerləşən Əştərək kəndindən 5 verst aralıda yerləşən Əkərək kəndində düşərgə saldı[1].

General-adyutant Paskeviç əsas qüvvələri ilə Eçmiədzinə gələn günü çoxdan gözlənilən mühasirə topları da gəlib çatdı. O, məlumat alır ki, Sərdərabad qalasında çoxlu ərzaq ehtiyatı toplanmışdı. Baş komandan gələcək yürüşünü təmin etmək üçün ilk zərbəni bu qalaya vurmağa qərara aldı[2]. Onun bu planı çox gizli saxlanılırdı. Hətta Paskeviç Abbas mirzənin sülh danışıqları üçün göndərdiyi çaparına inanmamış və onu cavabsız qoymuşdu[3]. 1827-ci il sentyabrın 11-də general Paskeviç əsas qüvvələri ilə Sərdərabad qalasına doğru hərəkət edərək, səhəri günü bura gəlib çatdı. Bu xəbəri eşidən Abbas mirzə Makuya çəkilir. Hüseynqulu xan və qardaşı Həsən xan öz qüvvələri ilə yenə də rus qoşunu ilə təkbətək qaldı[4].

Hüseynqulu xan xəstələnmişdi. O, qalanın müdafiəsini qardaşı nəvəsi Fətəli xana tapşırsı. Ümumi rəhbərlik isə Sarı Aslan Həsən xanda idi.

İrəvan xanı Hüseynqulu xan isə şah qoşunu geri çəkildikdən sonra bir dəstə atlı qoşunla ailəsi ilə birlikdə Araz çayını keçərək Maku qalasına sığınmışdı. Lakin o, İrəvan qalasının işğalını eşitdikdən sonra Təbrizə getmişdi[5].

---

[1] Дневник генерала Красовского. 1826-1828г.г. см. «Кавказский сборник», т.XXII, Тифлис, 1901, стр.8-9; Бантыш-Каменский. Биографии российских генералиссимусов и фельдмаршалов. Ч. 3-4, СПб, 1840.,225; Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,457
[2] Кавказский сборник, т.XXVIII, Тифлис, 1908.,138
[3] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886.,493
[4] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 7747 (1), vər. 645-646; 200,561
[5] Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, İş 7747 (1), vər. 649; Кавказский сборник, т.XXVIII, Тифлис, 1908., 68; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 4. Тифлис, 1884,35

## Hüseynqulu xan və Osmanlı dövləti

Çarın əmrinə əsasən, qraf Qudoviç Türkiyənin şərq sərhədlərinə qoşun yeritdi. Lakin rus qoşunu 1807-ci il may ayının əvvəllərində Axalsıx qalasında biabırçı məğlubiyyətə uğrayaraq Tiflisə qayıtdı. Lakin hərbi əməliyyatlar davam edirdi. Bu dəfə onlar arasında döyüş İrəvan xanlığı ərazisində baş verdi. Belə ki, sultan Ərzurum hakimi Yusif paşanı baş komandan təyin edərək rus qoşunlarına qarşı müharibə aparmaq göstərişini verdi. Yeni baş komandan 2 minlik qoşunla Qarsa gəldi. Öz qüvvəsinə arxayın olmayan osmanlı paşaları kənardan müttəfiq axtarmağa başladı. Qars hakimi Osman paşa Abbas mirzəyə və İrəvan sərdarı Hüseynqulu xana məktub yazaraq birlikdə rus qoşununa qarşı çıxmağı təklif etdi. Hüseynqulu xan onun təklifinə müsbət cavab verərək, Nağı bəyin başçılığı ilə 200 nəfərlik İrəvan qoşununu Qarsa göndərdi. Abbas mirzə də bu xəbəri eşidərək oraya tələsdi.[1] Qraf Qudoviç hazırlıq görərək Gümrüyə doğru hərəkət edir. 1807-ci il iyunun 18-də Gümrüdə Arpa çayı sahilində yerləşən Kiçik Qarakilsə kəndində rus qoşunu ilə osmanlı qoşunu üz-üzə gəldi. Döyüş rus qoşununun qələbəsi ilə başa çatdı. Ruslar osmanlı düşərgəsindən 10 top və 2 mortir (*qısalüləli top - Ə.Ç.*) daxil olmaqla çoxlu qənimət ələ keçirdi. Bu döyüşdə rus qoşunundan 82 nəfər ölən və yaralanan olmuşdu[2].

Əminə Pakrəvan yazır: "Abbas mirzə bu dildaş qonşu (Osmanlı) ilə savaşmaq istəmirdi. Bu üzdən də barış yolu ilə məsələnin həllinə çalışırdı. Lakin 1807-ci ilin payızından etibarən İrəvanın elbayı (hakimi) olan Sərdar Hüseyn xan belə düşünmürdü. Çünkü İrəvan valisi üçün Osmanlı ilə savaş daha faydalı idi. Sonralar bəlli olur ki, Rusiya da İrəvan elbayını bu savaşın böyüməsinə təhrik etmiş, vədlərdə bulunmuşdur. Bu illər ərzində İrəvan elbayının

[1] Рапортъ майора Цыренева ген.м. Несветаеву, от 6-го мая 1807 года, №145. А.К.А.К., т.III, д.426, стр. 232.

[2] Присоединение восточной Армении к России, сборник документов, т.1, (1801-813). Из-во Академии наук Армянской ССР. Ереван 1972, 715 с.,440-441



imkanları böyümüşdü. Özəl strateji önəmi olan İrəvan üçün Fətəli şah da diqqət yetirməkdə idi. İrəvanın güclü olması Rusiyaya qarşı çox əhəmiyətli idi. Ruslar İrəvanda birikmiş bu savaş imkanlarını Osmanlıya qarşı kullanıb, ortadan qaldırmaq istəyirdilər. Çünkü Rusiyanın sonrakı planlarına qarşı İrəvandakı hərbi üslər təh-did ünsürü kimi görünürdü"[1].

## Hüseynqulu xanın quruculuğu

Hüseynqulu xanın İrəvan xanlığının iqtisadiyyatının inkişafında da böyük xidmətləri olmuşdu. Rusiya-İran müharibələri dövründə hərbi əməliyyatların qızışdığı bir ərazi olduğundan xanlığın iqtisadi həyatı güclü dağıntıya məruz qalmışdı. Döyüşlər nəticəsində kəndlər dağıdılmış, əhalinin bir hissəsi qonşu ölkələrə qaçdığından, digər hissəsi döyüşlərə cəlb edildiyindən əkin sahələri boş qalmışdı. Lakin dinclik dövründə Hüseynqulu xanın gördüyü tədbirlər xanlığın iqtisadi həyatının dirçəlməsinə səbəb olmuşdu. O, kənd təsərrüfatının inkişafı üçün boş yerlərə əhalini köçürmüş, bağlar, meşələr saldırmış, süni suvarma kanalları çəkdirmiş və müxtəlif xanlıqlardan əhalini öz xanlığına cəlb etmişdi. Bundan əlavə, xan müstəqil torpağı əkmək qabliyyətinə malik olmayan yerli əhalini, xanlıqda məskən salmış qaçqın və köçkünləri, tüfeyli adamları əkinçiliyə cəlb edərək, onlara torpaq sahəsi paylamış, qoşqu heyvanları, əmək aləti və toxumla təchiz etmişdi[2]. Hətta o, xanlıqda meyvəçiliyin inkişafına da diqqət yetirmişdi. Bu məqsədlə İrandan və Hindistandan müxtəlif növ meyvə ağacları gətizdirmişdi[3].

Hüseynqulu xanın hakimiyyəti dövründə vergilər də ədalətlə toplanırdı. O, ilk növbədə torpağın əkilməsinə böyük diqqət yetirərək, vergini əkin sahəsinə, əkinçinin kotanının sayına görə deyil, əldə edilmiş məhsulun keyfiyyətinə və vergi verənin vəziyyətinə

[1] Əminə Pakrəvan, Abbas mirzə və Azərbaycan, Bakı, "Qanun", səh. 59.

[2] Шопен И. Исторический памятник состаяния Армянской областии в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,450

[3] Шопен И. Исторический памятник состаяния Армянской областии в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,950

uyğun tələb edirdi[1]. Onun bu siyasəti şəxsi mənafe güdsə də, kənd təsərrüfatının inkişafına və xalqın güzaranına müsbət təsir göstərmişdi.

İrəvan şəhərinin ticarət və sənətkarlıq mərkəzi kimi məşhurlaşmasında onun rolu əvəzedilməzdir. Məhz onun dövründə İrəvan şəhəri beynəlxalq ticarət mərkəzinə çevrilmişdi. Bu şəhərdə müxtəlif ölkələrdən və xanlıqlardan gələn mallar toplanmışdı. Onun İrəvan şəhəri üçün gördüyü işlərdən biri şəhəri su kəməri ilə təchiz etməsi idi. Bir məlumatda qeyd edilir ki, «Keçmiş İrəvan xanlığının bütün ən vacib suvarma qurğuları sonuncu sərdar Hüseynqulu xanın dövründə tikilmişdiOnun savadsızlığına baxmayaraq, görkəmli hakimlər cərgəsinə qoymaq olar. İrəvan özünün su kəməri kanallarına görə ona borcludur[2].

Arxitektura baxımından İrəvan şəhərinin məşhurlaşmasında da onun böyük xidməti vardı. Xan sarayında «Güzgülü zal» dövrün ən məşhur abidələrindən biri hesab olunurdu. Digər tərəfdən, Zəngi çayının sağ sahilində Hüseynqulu xan tərəfindən salınmış istirahət yeri olan Sərdar bağı şəhərə xüsusi gözəllik vermişdi[3].

Beləliklə, Hüseynqulu xan bacarıqlı idarəçiliyi ilə İrəvan xanlığının yüksək səviyyəyə qaldırmış və onu çiçəkləndirmişdi. Bu keyfiyyətinə görə, Hüseynqulu xan uzun illər xalqın yaddaşında yaşamışdı. Onun şəxsiyyət və fəaliyyətinə ən dəyərli qiyməti müxtəlif illərdə İrəvan şəhərində olmuş səyyah A.Qakstqauzen və rus hərbçisi, knyaz Amilaxvari vermişdi. 1843-cü ilin avqustunda İrəvana gəlmiş A.Qakstqauzen gündəliyində Hüseynqulu xanı əxlaqlı, ədalətli, mərd adlandırmış, ölkənin rifahını düşünən, xalqın savadlanmasına fikir verən bir şəxs kimi onu özündən əvvəlki xanlarla müqayisə etmişdi. O, yazırdı: «Ümumiyyətlə, İrəvan xanları qəddar olublar, lakin axırıncı xan (*Hüseynqulu xan - Ə.Ç.*) özündə əxlaqi keyfiyyətləri birləşdirən ..., ədalətli, güzəştə gedən mərd kişi olub.

---

[1] Рапортъ ген.м. кн. Бебутова гр. Паскевичу , от 18-го апреля 1831 года, №26. А.К.А.К., т.VIII, д.454, стр.501

[2] Кавказскимй календарь на 1852 г. Тифлис, 1851, 718 с.,457

[3] Кавказский календарь на 1852 г. Тифлис, 1851, 718 с.,444-445



O, indi də bütün erməni və azərbaycanlıların dilində və yaddaşında yaşayır. O, hədsiz güc sərf edirdi ki, təhsili genişləndirsin və ölkənin rifahını yüksəltsin.

Dağıdılmış və məhv edilmiş köhnə kanalların yerində müqayisəyəgəlməz gözəl halda yenisini tikdirirdi, onun köməyi ilə İrəvan yaxınlığında yerləşən çoxsaylı bağlar suvarılaraq daha da gözəlləşmişdi. Onlar sonradan əhaliyə paylanmışdı. Bundan əlavə, onun Avropa iqtisadiyyatına böyük marağı vardı, əhalinin sayını çoxaltmaqla ölkənin rifahının yüksəldiləcəyinə güman edirdi və buna çatmaq üçün qeyri-adi vasitələrə əl atırdı»[1]. Daha sonra müəllif gündəlikdə Hüseynqulu xanın əxlaqi keyfiyyətinə, onun qadınlara olan münasibətinə görə qiymət vermişdi. A.Qakstqauzen yazırdı ki, «Əvvəlki İrəvan xanları və yüksək rütbəli şəxslər yerli qız və qadınlarıları görəndə o saat zorla ələ keçirərək öz hərəmxanalarına qatırdılar. O, (*Hüseynqulu xan - Ə.Ç.*) belələrindən ibrət götürmürdü və başqaları belə hərəkət edəndə dözmürdü, qorxudaraq ... kəbin kəsməyə məcbur edirdi»[2]. İşğaldan 50 il sonra- 1876-cı ildə İrəvanda olan rus hərbiçisi knyaz Amilaxvari də Hüseynqulu xanın şəxsiyyətinə yüksək qiymət verərək onun idarəçilik bacarığını Rusiya idarəçilik sistemi ilə müqayisə etmişdi. O, yazırdı: «...Məsələn, onlar (*rus məmurları - Ə.Ç.*) qəbul etmək istəmirdilər ki, bu möhtəşəm sarayın və bağın axırıncı sahibi İrəvan hakimlərindən olan Hüseynqulu xan ağıllı, istedadlı və məşhur olmuşdu. Onun müdrik rəhbərliyi altında qeyri-adi inkişaf nəticəsindəfiravan həyatlarına borclu olduqlarına görə, onun haqqında xatirələr bu illər ərzində xalqın hafizəsində yaşayır. Bizim indiki məmurlar Hüseynqulu xanın idarəçilik fəaliyyətindən heç nə öyrənmək istəmirlər və bütün keçmişi laqeyd surətdə vəhşilik dövrü adlandırırdılar. (*Rusiya idarə orqanları - Ə.Ç.*) İran (*İrəvan xanının - Ə.Ç.*) idarəçilik sisteminə nifrət etməyi öyrədir, 50 il keçməsinə baxmayaraq bu sistemlə tanış olmamış, həmçinin xalqın ehtiyacı üçün öz xüsusi sistemlərini

---

[1] Гакстгаузен А. Закавказский край, СПб, 1857.,232

[2] Гакстгаузен А. Закавказский край, СПб, 1857., 232

yaratmamışdılar»[1] Bu müəlliflərin verdiyi qiymət Hüseynqulu xanın şəxsiyyətinə və fəaliyyətinə verilən ən dəyərli qiymətdir.

Əminə Pakrəvan yazır: "Sərdarabad İrəvan xanı Hüseyn xan tərəfindən tikilmiş geniş hasarları, möhkəm divarları ilə səciyyələnirdi. Bu hasarlar içindəki tarlalarda Bəyaziddən və Qarsdan gələn ermənilər tarım (*əkinçilik - Ə.Ç.*) işləri ilə uğraşırdılar. Hasarların içində həm də buğda anbarları var idi. Bu anbarlar İrəvan xanına məxsus idi. Sərdarabad İrəvana yaxın məsafədə olduğundan dolayı şahzadə üçün önəmli strateji anlam daşımırdı. Abbas mirzə yanındakılarla birgə İrəvana vardı. Bu varış şahzadə üçün çox çətin idi, çünkü İrəvan hakiminin ondan xoşlanmadığını bilirdi. Ancaq bu mərkəzi də yoxlamaq zorunda idi. Digər tərəfdən, fikirləşirdi ki, bəlkə bir şəkildə bu savaş ərəfəsində İrəvan xanı ilə zahirən də olsa münasibətləri normallaşdıra bilər. Hüseyn xan Avropadan gələn hər şeyə nifrət edirdi. Abbas mirzə də Avropa yönümlü olduğu üçün onun bütün reformlarına qarşı idi"[2].

Bütün bu faktları nəzərə alaraq qeyd etmək lazımdır ki, Hüseynqulu xan görkəmli, bacarıqlı, işgüzar, tədbirli və uzaqgörən dövlət xadimi olmuşdu. Çox mürəkkəb və müharibələrlə zəngin bir dövrdə hakimiyyətə gəlməsinə baxmayaraq, bütün fəaliyyəti boyu İrəvan xanlığının müstəqilliyinə və onun çiçəklənməsinə çalışmışdı. Buna da nail olmuşdu.

Qaldı ki, İrəvan xanlığının işğalına bu dövrün faciəsi idi. Obyektiv səbəbləri nəzərə alsaq, başdan- ayağa ən mükəmməl və müasir hərbi texnika ilə silahlanmış Rusiya dövlətinin qarşısında xırda xanlıqlara bölünmüş Azərbaycan aciz qalmışdı. İrəvan xanlığının işğalı ərəfəsində Cənubi Qafqazda Naxçıvandan başqa bütün xanlıqlar ləğv olunmuşdu. Artıq bu iki xanlıq meydanda tək qalmışdı. Şah sarayı isə sona qədər onlara kömək edə bilmədi. Nəticədə, nəhəng dövlətlə üz-üzə qalan İrəvan xanlığı işğal olundu.

---

[1] Кавказский сборник, т.XXVIII Тифлис, 1908.,448

[2] Əminə Pakrəvan, Abbas mirzə və Azərbaycan, Bakı, "Qanun", səh. 96.



## Hüseynqulu xan və Bab hərəkatı

Hüseyn xan Bab hərakatına qarşı vuruşmuşdu.

Nəbil Zərəndi yazır: «O vaxtlar "Sahibi-ixtiyar" ləqəbi ilə məşhur olan Fars hakimi acudanbaşı Hüseyn xan İrəvani şəhərdəki bu qəfil həyəcandan heyrətə gəlib səbəbini soruşdu. Ona dedilər: "Yenicə Məkkə və Mədinə ziyarətindən qayıdıb Buşəhrə gəlmiş Seyyid Bab şagirdlərindən birini Şiraza göndərib ki, Onun hökmlərini yaysın. Bu şəxs iddia edir ki, Seyyid Bab ilahi Vəhylə Ona nazil olmuş yeni şəriətin banisidir. Artıq Molla Sadiq Xorasani bu yeni Əmri qəbul edib heç bir qorxu bilmədən camaatı Babın şəriətinə dəvət edir və ona iman gətirməyi ən mühüm vəzifələrdən sayır"[1].

Hüseyn xan məsələdən agah olan kimi əmr etdi ki, Həzrət Qüddusu və Müqəddəsi (Molla Sadiqi) tutub onun iqamətgahına gətirsinlər. Əmrə uyğun olaraq, onların ikisi də tutularaq Hüseyn xanın yanına aparıldı. Həzrət Babın əsərlərindən olan "Qəyyumüləsma" adlı kitabı da Hüseyn xana verdilər, çünki Molla Sadiq bu kitabın bəzi hissələrini məsciddə ucadan camaata oxumuşdu. Hüseyn xan yaşca böyük olduğu üçün Molla Sadiqlə danışmağa başladı. Həzrət Qüddusa isə etinasızlıq göstərdi, çünki o həm yaşca kiçik idi, həm də əynində əməlli-başlı libası yox idi. Hüseyn xan Müqəddəsə dedi: "Sən bu kitabın əvvəlini oxumusanmı? Orada Seyyid Bab hökmdarlara, sultanlara və şahzadələrə müraciət edərək, onları hakimiyyətdən əl çəkməyə və ona itaət göstərməyə çağırır. Oxumusanmı ki, o necə İran padşahının baş vəzirinə üz tutub deyir: "Ey padşahın vəziri, Allahdan qorx, hakimiyyətdən əl götür, çünki yerin hakimiyyətinin varisləri bizik". Sən bu sözləri oxumusanmı?! Əgər bu sözlər doğrudursa, onda gərək Məhəmməd şah taxt-tacı buraxıb Seyyid Babın dərgahına tələssin. Mən də ki, Məhəmməd şahın təyin etdiyi Fars hakimi olaraq, hakimlikdən əl çəkim və bütün bu cah-cəlaldan vaz keçim". Molla Sadiq dedi: "Əgər bu sözləri deyənin iddiasının düzgünlüyü aydınlaşarsa və Allah

---

[1] http://www.bahai.az/lib/promin/nabil/dawn_breakers_az_13.shtml

tərəfindən göndərildiyi qənaətbəxş dəlillərlə sübuta yetərsə, onda o nə deyirsə, doğrudur, hamı ona itaət etməlidir, çünki onun kəlamı Allah kəlamıdır, Allah kəlamına isə istər Məhəmməd şah olsun, istərsə də Məhəmməd şahın vəziri, hamı itaət göstərməlidir". Hüseyn xan bu cavabı eşitcək qəzəbləndi və Müqəddəsi söyməyə başladı. Fərraşlara əmr etdi ki, müqəddəsi soyundurub, ona min qamçı vursunlar, sonra müqəddəsin və Həzrət Qüddusun saqqalını yandırsınlar, burunlarını deşib noxtalasınlar, qandallanmış və zəncirlənmiş halda bütün şəhəri gəzdirsinlər. Qoy adamlar baxıb ibrət götürsünlər və bilsinlər ki, kafir olanın cəzası budur»[1].

## Hüseynqulu xanın vəfatı

İrəvan xanlığı işğal olunduqdan sonra şah sarayına qaçan Hüseynqulu xanın sonrakı taleyi də müəmmalı qalır. İ.Şopen bu böyük şəxsiyyətin 1834-cü ildə İranda yoxsulluq içərisində vəfat etdiyini qeyd edir[2]. Lakin A.Qriboyedovun 1828-cu il sentyabrın 23-də qraf Paskeviçə yazdığı məktubu bunun belə olmadığını göstərməyə əsas verir. Məktubun məzmunundan görünür ki, həmin ildə Xorasanda hakimlik edən şahın oğlu Həsənəli mirzəyə qarşı Rzaqulu xanın başçılığı ilə üsyan qalmışdı. Bu üsyanın qarşısını almaq üçün keçmiş İrəvan xanı Hüseynqulu xan Xorasanın hakimi təyin olunmuşdu. Məktubda göstərilirdi: «İrəvanın keçmiş sərdarı Xorasanın hakimi təyin olunub, bu zərərli adamın bizim sərhəddən uzaqlaşmasına yetərincə sevinməmək mümkün deyil. Ümumiyyətlə, yazırlar ki, üsyan şahın oğlu Həsənəli mirzənin zülümünə qarşı olmuşdu. Ümid edirlər ki, sərdarın (*Hüseynqulu - Ə.Ç.*) gəlməsilə tezliklə sakitlik bərpa olunacaq»[3]. Məktubdan görünür ki, İrəvandan getdikdən sonra da Hüseynqulu xan yüksək vəzifələrdə işləmişdi. Digər tərəfdən, İrəvandan əlavə, Qəzvin ətrafında da Hüseynqulu

[1] http://www.bahai.az/lib/promin/nabil/dawn_breakers_az_13.shtml
[2] Шопен И. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852, 1232 с.,170.
[3] Грибоедов А.С. Полное собрание сочинений А.С.Грибоедова (прозаическия статьи и переписка). Т.1, СПб, 1889, 476 с., 609-619



xana məxsus kəndlər olmuşdu[1]. Bu faktlara görə, onun yoxsulluq içərisində vəfat etməsi fikiri ilə razılaşmaq olmaz.

Hüseynqulu xan 1830-cu ildə vəfat edib.

## Hüseynqulu xanın ailəsi

Hüseynqulu xan Xədicə bəyimlə ailə qurmuşdu. Mehdiqulu xan adlı oğlu vardı.

Mehdiqulu xan Astarabad yaxınlığında doğulmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı.

Mehdiqulu xanın bir neçə arvadı vardı. Onlardan biri də Şirincan xanım Fətəli şah qızı Qovanlı-Qacar idi. Sarəməddövlə, Əbdülhüseyn xan adlı oğulları vardı.

[1] Грибоедов А.С. Полное собрание сочинений А.С.Грибоедова (прозаическия статьи и переписка). Т.1, СПб, 1889, 476 с., 50

# ƏDƏBİYYAT


1. Abbasqulu ağa Bakıxanov, Gülüstani-İrəm, Bakı, 2001
2. Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA)
4. BƏ. Z. V. Toğan, Azərbaycan, Bakı, 2007
5. Ə. Şəmim, İran dər dövreyi-səltənəti-Qacar, «Elm» nəşriyyatı, II çapı, 1370 hicri (farsca)
6. Əminə Pakrəvan, Abbas Mirzə və Azərbaycan, Bakı, "Qanun"
7. F. Sümər. Oğuzlar, Bakı, 1992
8. History of Persia under Gajars.
9. Qırzıoğlu. M. Fəxrəddin. 1593 (h.1001) yılı Osmanlı vilayət tahrir defterinde anılan Gence-Karabaq sancakları «ulus» ve «oymak»ları, Ahmet Caferoğlu. Ankara.1979.səh. 206.
10. Mirzə Adıgozəl bəy.Qarabağnamə. Qarabağnamələr, I kitab, Bakı, Yazıcı, 1989
11. N. Nəcmi, Abbas Mirzə, Bakı, «Yazıçı», 1993
12. Rəşid bəy Ismayılov, Azərbaycan tarixi, Bakı, 1993
13. Şərəfəddin Əli Yəzdi. Zəfərnamə. Bakı. 1996
14. Umudlu V. Şimali Azərbaycanın car Rusiyası tərəfindən işğalı və mustəmləkəcilik əleyhinə mubarizə (1801-1828). Bakı, «Elm», 2004, 184 səh., 166
15. Бантыш-Каменский. Биографии российских генералиссимусов и фельдмаршалов. Ч. 3-4, СПб, 1840
16. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г.г. в 3-х т. СПб., 1869
17. Всеподданнейшее донесение гр. Гудовича, от 11 декабря 1808 года, № 13. АКАК, т. III, д.467
18. Всеподданнейший рапортъ ген. Ермолова, от 12-го сентября 1826 года, АКАК, т. VI, ч.2 д.681
19. Всеподданнейший рапортъ ген. Ермолова, от 17-го сентября 1826 года, АКАК, т. VII, ч.2 д.687
20. Всеподданнейший рапортъ ген. Ермолова, от 22-го июля 1826 года, АКАК, т. VI, ч.2 д.648
21. Всеподданнейший рапортъ ген. Ермолова, от 30-го сентября 1826 года, АКАК, т. VI, ч.2 д.690
22. Гакстгаузен А. Закавказский край, СПб, 1857
23. Грибоедов А.С. Полное собрание сочинений А.С.Грибоедова (прозаическия статьи и переписка). Т.1, СПб, 1889





24. Дневник генерала Красовского. 1826-1828г.г. см. «Кавказский сборник», т.XXII, Тифлис, 1901
25. Дубровин Н. История войны и владычества русских на Кавказе, т.VI, СПб, 1888
26. Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории). Москва, «Наука», 1969
27. Кавказский календаръ на 1852 г. Тифлис, 1851
28. Кавказский сборник, т.1, Тифлис, 1876
29. Кавказский сборник, т.XXI, Тифлис, 1900
30. Кавказский сборник, т.XXII, Тифлис, 1901
31. Кавказский сборник, т.XXIV, Тифлис, 1903
32. Кавказский сборник, т.XXVIII Тифлис, 1908
33. Кузнецова Н. А. Иран в первой половине XIX века. М., 1983
34. Онамастика Востока. Москва, 1980, В. I. Савина. Этнонимы и топонимы Ирана.стр 150.
35. Отношение маркиза Паулуччи к военному министру, 7-го ноября 1811 года, №41, А.К.А.К., т. V, д.172, Предписание маркиза Паулуччи ген.м. Лисаневичу, от 27-го октября 1811 года, №30, А.К.А.К. т.V, д.170
36. Письмо ген. Ртищева к Эриванскому сердарю Хусейн-Кули хану, от 15-го ноября 1812 года, №542, А.К.А.К, т.V, д.648, стр. 546; Письмо Хусейн хана сардар Эриванского к ген. Ртищеву, А.К.А.К, т.V, д.650, стр. 547; Письмо Хусейн хана сардаря Эриванского к ген.Ртищеву, А.К.А.К, т.V, д.651, стр. 548; Письмо Хусейн хана сардаря Эрсванского к ген.Ртищеву, А.К.А.К, т.V, д.652, стр. 548; Письмо Хусейн хана сардаря Эриванского к ген.Ртищеву, А.К.А.К, т.В, д.653, стр. 548-549.
37. Письмо гр. Гудовича коменданту Эриванской крепости Хасан хану, от 17-го октября 1808 года, №458, А.К.А.К, т.III, д.447
38. Письмо Хусейн хана к ген Ермолову, А.К.А.К., т.VI, ч. 1, д.1370
39. Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, СПб, 1886
40. Потто В. Утверждение русского владычества на Кавказе, т.1, Тифлис, 1901
41. Потто В. Утверждение русского владычества на Кавказе, т.2, Тифлис, 1902
42. Предложение гр. Гудовича ген. м. Ахвердову, от 25-го октября 1808 года, №464. А.К.А.К. т.III, д.450, стр.244.
43. Предписание ген. Тормасова майору Джораеву, от 9 июля 1810 года, №553, А.К.А.К. т.IV, д.666, стр.478., 367, 496
44. Присоединение восточной Армении к России, сборник документов, т.1, (1801-813). Из-во Академии наук Армянской ССР. Ереван 1972

45. Присоединение восточной Армении к России, сборник документов, т.1, (1801-813). Из-во Академии наук Армянской ССР. Ереван 1972, 715 с., 453-454
46. Рапортъ ген. л. Розена гр. Гудовичу, от 4-го декабря 1806 года, №1381. А.К.А.К., т.III, д.424
47. Рапортъ ген. м. Лисаневича ген. Ртищеву, от 7-го октября 1812, №1265. А.К.А.К., т.В, д.827
48. Рапортъ ген. м. Небольсина ген. м. Портнягина, от 28-го сентября 1810 года, №526. А.К.А.К., т.IV, д.1137
49. Рапортъ ген.м. кн. Бебутова гр. Паскевичу , от 18-го апреля 1831 года, №26. А.К.А.К., т.VIII, д.454
50. Рапортъ ген.м. Портнягина ген. Тормасову, от 12-го августа 1810 года, №314. А.К.А.К., т.IV, д.1112
51. Рапортъ подполк. Подлуцкого гр. Гудовичу, от 17-го октября 1808 года. А.К.А.К., т.III, д.874
52. Рапортъ полк. Асеева ген. м. маркиза Паулуччи, от 4-го сентября 1810 года, №407. А.К.А.К., т.IV, д.1127
53. Рапортъ полк. Асеева ген. м. маркиза Паулуччи, от 4-го сентября 1810 года, №407. А.К.А.К., т.IV, д.1127
54. Рапортъ полк. кн. Уракова ген. Тормасову, от 2-го июня 1809 года, №2. А.К.А.К., т.IV, д.1184
55. Руи Гонсалес де Клавихо. Дневник путешествия в Самарканд ко двору Тимура. (1403–1406). М., 1996
56. Сборник материалов для описания местнотей и племен Кавказа, выпуск 4. Тифлис, 1884
57. Соколов А.Е. Дневные записки о путешества Российско-императорскаго посолъства в Персии в 1816 и 1817 годах. Москва, 1910
58. Соколов А.Е. Дневные записки о путешества Российско-императорскаго посолъства в 42.
59. Шереф хан Битлиси, Шерефname, М., 1976
60. Шопен И. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ, 1852
61. Щербатов. Генерал-фельдмаршал княз Паскевич, его жизнъ и деятелъност. т.II, СПб, 1890
62. Юзефович Т. Договоры России с Востоком, политические и торговые. СПб, 1869, 298 с., стр. 208-214.



# MÜNDƏRİCAT

GİRİŞ ........ 3

I fəsil. QACAR ELİ ........ 6
Qacar elinin tarixi ........ 6
Qacar elinin yerləşməsi, yerdəyişməsi, coğrafiyası ........ 24
Qacar elinin oymaqları ........ 25
Qovanlı oymağı ........ 25
Qovanlı (qoyunlu) oymağının nümayəndələri ........ 29

II fəsil. MUSAXANLI-QOVANLI TAYFASI ........ 36

III Fəsil. HÜSEYNQULU XAN QOVANLI-QACAR ........ 40
Hüseynqulu xan Qovanlı-Qacar 1807-1827-ci illərdə ........ 41
Hüseynqulu xan və Osmanlı dövləti ........ 76
Hüseynqulu xanın quruculuğu ........ 77
Hüseynqulu xan və Bab hərəkatı ........ 81
Hüseynqulu xanın vəfatı ........ 82
Hüseynqulu xanın ailəsi ........ 83

ƏDƏBİYYAT ........ 84

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 01.12.2011.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 5,5 ç.v. Tiraj: 300. Sifariş № 86.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru